Hər kəs ədalətli olacaq

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 50 (6093) 27 dekabr 2024-cü il | Qiyməti 40 qəpik

# Azərbaycanı sarsıdan qəza



## Bakıdan Qroznı və Mahaçqalaya uçuşlar dayandırılır



**İstintaq prosesi başa çatana qədər "Azərbaycan Hava Yolları" aviaşirkətinin Bakı-Qroznı-Bakı və Bakı-Mahaçqala-Bakı marşrutları üzrə reysləri dayandırılır.**

Adalet.az xəbər verir ki, bu barədə "Azərbaycan Hava Yolları" QSC (AZAL) məlumat yayıb.

Qeyd edilib ki, digər istiqamətlərdə uçuşlar ştat rejimində cədvələ uyğun həyata keçirilir.

Xatırladaq ki, Aktau şəhəri yaxınlığında AZAL-a məxsus Bakı-Qroznı reysini yerinə yetirən təyyarə qəzaya uğrayıb.

## Aqil Abbas təyyarə qəzasında həlak olanların ailələrinə başsağlığı verdi

**Millət vəkili Aqil Abbas Aktau yaxınlığında baş vermiş təyyarə qəzasında həlak olanların ailələrinə başsağlığı verib.**

**"Azərbaycan Hava Yolları" şirkətinə məxsus təyyarənin Aktau yaxınlığında qəzaya uğraması nəticəsində insanların həlak olması xəbəri hər birimizi sarsıtdı. Həlak olanların ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, yaralananların tezliklə sağalmasını arzulayıram.**

**Başın sağ olsun, Vətən!**

**Aqil ABBAS,**
**Milli Məclisin deputatı**

## VİKTOR ORBAN AVROPAYA MEYDAN OXUDU



**Macarıstanın baş naziri, türk oğlu türk Viktor Orban bildirdi ki, Rusiya-Ukrayna müharibəsi Avropa ölkələrinə 300 milyard avroya başa gəlib. Bəsdir Ukraynaya göstərilən yardımlar, 2025-ci ildə Rusiya-Ukrayna müharibəsi bitəcək, ya danışıqlar nəticəsində, ya da ölkələrdən birinin məğlub olması nəticəsində.**

Təbii ki, Ukraynanın Rusiyaya qalib gəlməsi göydən düşən üç alma nağılına bənzəyir.

## DÜNYANIN BİR NÖMRƏLİ "VOR ZAKONUNA" MƏSLƏHƏT



**Uşaq da bilir ki, bütün müharibələr pul tələsidi. Özündənrazı dövlətlər, başda ABŞ olmaqla bu müharibələrdən insan qırğınlarının hesabına ölçüyə gəlməyəcək dərəcədə pul qazanırlar. Nə qədər ərəb ölüb, nə qədər rus, ukraynalı ölüb, nə qədər ölkələr yerlə-yeksan olub, milyonlarla insan öz yurd-yuvasından didərgin düşüb, bu onları maraqlandırmır, təki pul gəlsin. Həm də silah-sursatlarını satsınlar, qazanc əldə etsinlər.**

Mən belə bir məsləhət verərdim. ABŞ müharibədən nə qədər pul qazanır hesablasın və onu dünyadakı 200 ölkənin arasında bölüşdürsün. Hər bir dövlətin damarına baxıb qanını alsın. Və "vor zakon" kimi həmin ölkələrə illik xərac kəssin, dünyanın canı da müharibələrdən qurtulsun.

## *DEYƏSƏN, FİFA-nın BAŞI XARAB OLUB*

**Tez-tez və lazımsız islahatlar keçirməklə futbolu qumar oyunlarına çevirib. Avroliqanın formatını dəyişərək bir qədər zəif komandaların işini çətinləşdirib. Turnirlərin sayını artıraraq həm futbolçuları, həm də klubları demək olar ki, istismar edir.**

Nə isə, öz işidir, amma bir məsələdə lap axmaqlıq eləyib - ofsayt məsələsində.

Adi tamaşaçı gözlə görür ki, ofsaytdır, amma oyunu saxlamırlar. Gözləyirlər nə ilə nəticələnəcək, ya qolla, ya da top meydandan çıxacaq, ondan sonra yan xətt hakimi bayrağı qaldırır. Bu da futbolçular arasında mübahisələrə səbəb olur və hətta bəzən hakim haqsız olaraq mübahisə edən oyunçulara "sarı vərəqə" çıxarır.

Bu Azərbaycan futbolunda da özünü göstərir. Bəzən VAR ya bir qolu, ya da bir ofsaytı altı dəqiqə müzakirə edir, bu da oyunun tempini aşağı salır, futbolçuları da hövsələdən çıxarır.

***Aqil ABBAS***
***aqilabbas@rambler.ru***

## FATEH SULTAN MEHMET VƏ FATEH İLHAM ƏLİYEV



***Türkiyənin TRT-1 kanalında belə bir serial gedir, indiyədək 22 bölümü nümayiş etdirilib, adı: "Mehmet: Fetihlər Sultanı". O sultan Mehmet ki, Konstantinopolu fəth edib, Türkün və İslamın bayrağını bu şəhərə sancaraq adını dəyişib İstanbul qoyub. 600 ildir Türkün və İslamın bayrağı dünyanın paytaxtında, bəli, bəli, dünyanın paytaxtında dalğalanır.***

***Filmdə və tarixi əsərlərdə Sultan Mehmetin Konstantinopolu fəth edənə qədər çəkdiyi iztirablar öz əksini tapıb. Bütün gücü ilə sancaq bəyləri (yəni indiki dillə desək, qubernatorlar), hətta sədr-əzəm onu bu yoldan çəkindirməyə çalışırlar, yeniçərləri üsyan etdirirlər. Sultan Mehmet xəyanətin ortasında qalıb, amma səbr və təmkinlə bütün maneələri aradan qaldırır və aprelin 6-da hücum əmri verir.***

***Hətta Bizans imperatoru ağır toplarla silahlanmış gəmilərin boğaza girməməsi üçün dənizə zəncir atdırır, amma Sultan Mehmetin əsgərləri o gəmiləri quru yoldan daşıyaraq boğaza daxil ola bilirlər. Səhər Bizans imperatoru ayılır ki, gəmilər artıq Konstantinopolu mühasirəyə alıblar.***

**Bax:səh-2**

## METRODA SIXLIQ ARADAN QALXACAQ



**Ən azı ona görə ki, Zaur Hüseynov işdən çıxarıldı və indi metroya minənlərin sayı bir nəfər azaldı.**

# İlham Əliyev təyyarə qəzası ilə bağlı müşavirə keçirdi



**Xəbər verdiyimiz kimi, Sankt-Peterburq şəhərində keçiriləcək MDB üzv ölkələri dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak etmək üçün Rusiya Federasiyasına səfərə yola düşən Prezident İlham Əliyevə Rusiya hava məkanında olarkən baş vermiş təyyarə qəzası haqqında məruzə edilib və dövlətimizin başçısı dərhal geri dönmək barədə tapşırıq verib.**

Adalet.az xəbər verir ki, təyyarə endikdən dərhal sonra Prezident İlham Əliyev hadisə ilə bağlı Heydər Əliyev Beynəlxalq Aeroportunda müşavirə keçirib.

Dövlətimizin başçısı müşavirədə çıxış edərək deyib:

- Təyyarə qəzasında həlak olanlara Allahdan rəhmət diləyirəm. Onların ailələrinə, yaxınlarına Allahdan səbr diləyirəm, başsağlığı verirəm. Bu, böyük faciədir, Azərbaycan xalqına böyük facie üz vermişdir.

Mən bu gün səhər MDB Zirvə görüşündə iştirak etmək üçün Bakıdan Sankt-Peterburqa təyyarə ilə uçurdum və uçuş zamanı bu qəza ilə, bu facie ilə bağlı mənə məlumat verildi. Dərhal göstəriş verdim və təyyarə geriyə - Bakıya döndü. Hələ havada ikən mənim tərəfimdən müvafiq göstərişlər verildi, Baş nazirlə danışdım, onun rəhbərliyi ilə komissiya yaradıldı. Eyni zamanda, Azərbaycan nümayəndələrindən ibarət heyət qəzanın baş verdiyi Aktau şəhərinə ezam edilmişdir. Əlavə göstəriş verildi ki, Azərbaycan həkimlərindən ibarət briqadalar da Aktau şəhərinə tezliklə ezam olunsun.

Komissiyanın işi məsələni tam araşdırmaqdır, qəzanın səbəblərini və bütün təfərrüatlarını araşdırıb həm mənə, həm də Azərbaycan ictimaiyyətinə məlumat verməlidir. Mənə verilən məlumata görə, Bakı-Qroznı marşrutu ilə hərəkət edən AZAL şirkətinə məxsus təyyarə havanın pisləşməsi ucbatından istiqamətini dəyişmiş və Aktau hava limanına tərəf uçmağa başlamış, eniş zamanı qəza baş vermişdir. Mediada, sosial şəbəkələrdə təyyarənin qəzaya uğraması anları mövcuddur. Ona görə onu hər kəs görə bilər. Ancaq qəzanın səbəbləri bizə bəlli deyil. Müxtəlif versiyalar var. Hesab edirəm ki, hələ bu barədə danışmaq tezdir. Məsələ tam araşdırılmalıdır. Baş Prokurorluq tərəfindən cinayət işi açılmışdır və təbii olaraq Azərbaycan ictimaiyyəti həm komissiyanın işinin nəticələri, həm də cinayət işinin gedişatı ilə bağlı müntəzəm olaraq məlumatlandırılacaq.

Qəzada həlak olanların və onların yaxınlarının acısını çəkərək, həlak olanlara Allahdan bir daha rəhmət, yaralananlara şəfa, həlak olanların, yaralananların yaxınlarına, doğmalarına səbr diləyirəm. Sağ olun.

# Rəcəb Tayyib Ərdoğan Prezident İlham Əliyevə başsağlığı verib

**Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevə başsağlığı məktubu ünvanlayıb.**

Başsağlığı məktubunda deyilir:

"Hörmətli Prezident, Əziz Qardaşım,

Bu gün səhər Qazaxıstanın Aktau şəhərində "Azərbaycan Hava Yolları"na məxsus təyyarənin qəzaya uğradığını, qəzada həyatını itirənlərin və xəsarət alanların olduğunu böyük kədər hissi ilə öyrəndim.

Zati-alinizə və qardaş Azərbaycan xalqına, xüsusən də yaxınlarını itirənlərə xalqım və şəxsən öz adımdan başsağlığı verir, səbir diləyirəm. Uca Allahdan həyatını itirənlərə rəhmət, yaralılara tezliklə şəfa diləyirəm.

Fürsətdən istifadə edərək, Zati-alinizin və qardaş Azərbaycan xalqının rifah və firavanlığı üçün ən xoş arzularımı bir daha bildirirəm".

AQİL ABBAS

# FATEH SULTAN MEHMET VƏ FATEH İLHAM ƏLİYEV

*Türkiyənin TRT-1 kanalında belə bir serial gedir, indiyədək 22 bölümü nümayiş etdirilib, adı: "Mehmet: Fetihlər Sultanı". O sultan Mehmet ki, Konstantinopolu fəth edib, Türkün və İslamın bayrağını bu şəhərə sancaraq adını dəyişib İstanbul qoyub. 600 ildir Türkün və İslamın bayrağı dünyanın paytaxtında, bəli, bəli, dünyanın paytaxtında dalğalanır.*

*Filmdə və tarixi əsərlərdə Sultan Mehmetin Konstantinopolu fəth edənə qədər çəkdiyi iztirablar öz əksini tapıb. Bütün gücü ilə sancaq bəyləri (yəni indiki dillə desək, qubernatorlar), hətta sədrəzəm onu bu yoldan çəkindirməyə çalışırlar, yeniçərləri üsyan etdirirlər. Sultan Mehmet xəyanətin ortasında qalıb, amma səbr və təmkinlə bütün maneələri aradan qaldırır və aprelin 6-da hücum əmri verir.*

*Hətta Bizans imperatoru ağır toplarla silahlanmış gəmilərin boğaza girməməsi üçün dənizə zəncir atdırır, amma Sultan Mehmetin əsgərləri o gəmiləri quru yoldan daşıyaraq boğaza daxil ola bilirlər. Səhər Bizans imperatoru ayılır ki, gəmilər artıq Konstantinopolu mühasirəyə alıblar.*

*Nə isə, mən bütün filmi danışmaq istəmirəm, tarixi də sizə öyrətmək niyyətində deyiləm, filmə də baxa bilərsiz, tarix kitablarından da dəqiqliklə öyrənə bilərsiniz.*

*Mən bu filmə baxdıqca gözümün önünə Ali Baş Komandan, Cənab Prezident İlham Əliyev gəlirdi. Sultan Mehmetin Konstantinopolun fəthi ilə Cənab İlham Əliyevin Şuşanı azad eləməyində o qədər oxşarlıq gördüm ki.*

*Necə Sultan Mehmetin əsgərləri o ağır gəmiləri torpaqdan daşıyaraq boğaza saldıqları kimi İlham Əliyevin əsgərləri də ağır texnikanı, eləcə çiyinlərində daşıyaraq keçilməz meşələrdən, cığırlardan keçirərək Şuşaya aparıb çıxara bildilər. Bunu sənədli kadrlarda çox görmüsünüz. Sultan Mehmetin əsgərləri Konstantinopolun hasarlarına dırmaşdıqları kimi Cənab İlham Əliyevin əsgərləri də Şuşanın ətrafındakı sıldırımlardan eləcə dırmaşdılar və şəhərin içində ermənilərlə əlbəyaxa döyüşə girdilər və şəhəri azad etdilər. 30 ildən sonra Gövhər ağa məscidinin minarəsindən Azan səsləndirildi. Və Cənab İlham Əliyev müqəddəs bayrağımızı Şuşada qaldırdı. Ermənilərin Şuşi adlandırdığı şəhər yenidən öz qədim adına qovuşub Şuşa oldu. Son 200 ildə zəbt olunmuş torpaqlarımız məhz Ali Baş Komandan, Cənab Prezident İlham Əliyevin sərkərdəliyi ilə düşməndən azad oldu.*

*Necə ki İstanbulda 600 ildir Türk bayrağı dalğalanır, eləcə də Şuşada və Qarabağda min illər Azərbaycan bayrağı dalğalanacaq. Möhtərəm Prezident necə deyib: "Biz həmişə burda yaşamışıq, min illərlə də yaşayacağıq".*

*Əlbəttə, bu qələbə Cənab Prezident üçün də asan olmamışdı. Bizdə də İlham Əliyevi bu müharibədən çəkindirmək istəyən qüvvələr vardı, amma Cənab İlham Əliyev səbr və təmkinlə həmin qüvvələri sıradan çıxartdı, saraydan uzaqlaşdırdı. Apardığı islahatlar nəticəsində ordunu təmizlədi və bu təmizləmə müharibə getdiyi dövrdə də həyata keçirilirdi.*

*Çox qəribədir ki, o dövrdə Roma Papası Sultan Mehmetə məktub göndərir ki, fikrindən daşın, bütün xristian dünyası birləşib, sən bu müharibədə uduzacaqsan. Amma Sultan Mehmet bu hədələyici məktubdan qorxmur və fikrindən daşınmır.*

*təkcə Ermənistanı deyil, dünyanın böyük dövlətlərini mat vəziyyətinə saldı. Çünki O, özü demişkən, nəyi nə vaxt deməyi və etməyi yaxşı bilirdi. Və 44-cü gedişlə 44 günlük müharibəni zəfərlə başa çatdırdı.*

*Və adını Sultan Mehmet kimi Türkün tarixinə qızıl hərflərlə yazdırdı.*

*Sultan Mehmet İstanbulu 53 günə azad etmişdisə, Cənab Ali Baş Komandan Qarabağı 44 günə azad etdi.*



*Avropa dövlətləri də belə məktublarla və bəyanatlarla Ali Baş Komandana müraciət edirdilər ki, Qarabağda müharibəyə başlamaqdan çəkindirsinlər. Amma Cənab Ali Baş Komandan da Sultan Mehmet kimi onların məktub və bəyanatlarından çəkinmədi və onların bəyanatlarına Dəmir Yumruqla cavab verdi.*

*Uğurlu xarici siyasəti nəticəsində Ermənistana dayaq olan bəzi xarici qüvvələri zərərsizləşdirdi. Əsgərləri Qarabağda savaşarkən özü də 44 gün dünya mətbuatı ilə, dünya siyasəti ilə savaşdı. Hamı axşamlar kəsdirirdi televizorun önünü ki, Cənab Ali Baş Komandanın səsini və xoş xəbərlərini eşitsinlər. Düzdür, Müdafiə Nazirliyi qələbələrimizlə bağlı xəbərlər yayırdı, amma adamlar ən son məlumatları Cənab Ali Baş Komandandan eşitmək istəyirdi.*

*Bəzi jurnalistlər, Ermənistanı dəstəkləyən ölkələrin jurnalistləri, əlləm-qəlləm suallarla Cənab Ali Baş Komandanı çaşdırmaq istəsələr də Möhtərəm Prezident onları elə ustalıqla yerində oturdub susdururdu ki, valeh olmaya bilmirdin.*

*Liderlər, siyasətçilər şahmat oynamağı çox sevirlər, eləcə də Cənab İlham Əliyev.*

*Ən böyük siyasət şahmatçısı Ulu Öndər Heydər Əliyev idi. Şahmatla maraqlananlar bilir, qrossmeyestrlər 15-16-cı gedişi oyun başlamamış görə bilirlər. Və onu da şahmatçılar bilir ki, bir oyun 40-cı gedişdə adətən təxirə salınır. Heydər Əliyev dünyada yeganə şahmatçı idi ki, 40-cı gedişi görürdü və 40-cı gedişdə oyunu təxirə saldı və 41-ci gedişi varisi İlham Əliyev üçün saxladı. İlham Əliyev 41, 42, 43 və 44-cü gediş edərək*

*Mən Parlamentdəki çıxışlarımın birində bu barədə qısaca danışıb Cənab İlham Əliyevi Fateh adlandırmışdım. Kimlərsə "Fateh" sözü ilə razılaşmasa da, mən fikrimdə qalıram. Əgər türklər üçün Sultan Mehmet Fatehlər fatehidirsə, bizim üçün də Fatehlər fatehi Cənab Prezident İlham Əliyevdir. İlham Əliyevin Sultan Mehmetdən bir fərqi də vardı ki, onun yanında Mehriban xanım Əliyeva kimi bir güclü xanımı da vardı.*

*"Fateh" sözünü başqa yerə yozmayın, ərəbcədən Anadolu türkcəsinə belə tərcümə olunur: (fəth edən, böyük zəfərlər qazanan, qalib). İndi Cənab Ali Baş Komandan Azərbaycan tarixində ən böyük zəfəri qazandı. İndi Cənab İlham Əliyevə Fateh deməkdən niyə çəkinməliyik ki?*

*Və sonda. Əgər türk qardaşlarımız Fateh Sultan Mehmetdən gözəl bir serial çəkə bilirlərsə, bəs biz niyə Fateh İlham Əliyevdən bir film çəkməyək? Bacarıqlı ssenariçilərimiz də var və Oqtay Mirqasımov, Şeyx Əbdül, Elxan Cəfərov kimi də güclü rejissorlarımız var. Nəyi və niyə gözləyirik?*

*24 dekabr torpaqlarımızı 200 illik işğaldan azad edən Fateh İlham Əliyevin ad günü idi. Bu münasibətlə Cənab Ali Baş Komandan, möhtərəm Prezidentimiz İlham Əliyevi təbrik edir, Ona dövlətçiliyimizin möhkəmləndirilməsində daha böyük uğurlar arzulayırıq!*

*Tanrı Fateh İlham Əliyevi qorusun!*

*Tanrı həmişə Fateh İlham Əliyevin yanında olan xalqımızı qorusun!*

*Və Tanrı Şuşada əbədi dalğalanan müqəddəs bayrağımızı qorusun!*

# ŞƏHİD ANASININ GİLEY-GÜZARI

**Aqil Abbas Ağcabədi rayonunun Sarıcalı kəndində Qarabağ müharibəsində şəhid olmuş Habil Baxışovun 94 yaşlı anası Reyhan Baxışovanı evində ziyarət etmişdir.**



Həyat yoldaşını vaxtsız itirən Reyhan xanım 8 uşağı necə əzab-əziyyətlə böyütdüyündən danışmış və qeyd etmişdir ki, onların heç bir maddi ehtiyacı yoxdur. Amma onu da xüsusilə vurğulamışdır ki, oğlu Habil şəhid olandan sonra gəlib onların mənzil şəraiti ilə maraqlandılar və mənzil şəraitinin ağır olduğunu söyləyərək şəhid ailəsinə yeni ev tikəcəklərini bildirdilər.

Və yeni tikiləcək ev üçün həyətdəki ağacları da kəsdilər. Aradan uzun müddət keçməsinə baxmayaraq, nə ev tikən oldu, nə də sonradan onlarla maraqlanan. Millət vəkili söz verdi ki, bu problemi araşdıracaq və yeni evin tikilməsi üçün aidiyyatı təşkilatlar qarşısında məsələ qaldıracaq. Reyhan xanım demişdir:

**- Oğlum Habil canını Vətən yolunda qurban verəndə fikirləşməmişdi ki, hökumət gəlib bizə ev tikəcək. Heç biz də belə bir şey fikirləşməmişdik. Amma gəldilər, evimizi pis vəziyyətdə görəndən sonra özləri dedi ki, sizə yeni ev tikəcəyik. Məni yandıran evin tikilməməsi deyil, məni yandıran dövlət məmurlarının yalan danışmasıdır.**

# MİLLƏT VƏKİLİ MƏKTƏBDƏ GÖRÜŞ KEÇİRMİŞDİR



**Dekabrın 20-də millət vəkili Aqil Abbas Ağcabədi rayonunun Sarıcalı kənd məktəbində müəllimlərlə və şagirdlərlə görüş keçirmişdir.**

O, şagirdlərin təlim-tərbiyəsi, təhsili ilə maraqlanmış və məktəbdə gedən təhsil islahatlarından razı qalmışdır. Millət vəkili məktəbin problemləri ilə maraqlanmış, çox xoşdur ki, müəllimlər heç bir problemin olmadığını vurğulamışlar.

# AVROPA İTTİFAQI LAP GİCLƏYİB

**Qarabağlılar "gicləyib" sözünü "gijdiyib" kimi işlədirlər Bu söz daha çox yerinə düşür.**

İndi gijdiyən Avropa İttifaqı 30 il Azərbaycan torpaqlarını işğalda saxlayan Ermənistana gözün üstə qaşın var demədi. Və Aİ-nin üzvü olan dövlətlər əksinə, Ermənistanı silahlandırdılar, maddi yardımlar göstərdilər. Hələ üstəlik ABŞ Azərbaycana məlum "907"-ni tətbiq elədi. qarabağdakı separatçı ermənilərə isə hər il 20 milyon dollar "yardım" göstərdi.

Axırda məcbur olduq BMT-nin dörd qətnaməsini özümüz yerinə yetirdik, Qarabağdakı separatçı rejimi də diz çökdürdük. Və rejimin liderlərini də qandallayıb həbs etdik. Elədikləri cinayətlərə görə indi məhkəmə qarşısında cavab verirlər.



Avropa İttifaqı isə bizi sanksiyalarla hədələyir və separatçı rejimin dırnaqarası liderlərini də dərhal həbsdən azad etməyimizi tələb edir.

Ay siz ölməsiniz, sizin ölkələrdə terror törədən şəxslərə mükafat verirsiniz? Siz də onları həbs edirsiniz, cəzalandırırsınız.

Sizin sanksiyalarınız, ağdamlılar demiş, bizə az təfavut edər.

Biz qüdrətli dövlətik və bu ölkənin qüdrətli bir prezidenti var və heç bir ölkədən yardım almadan Ermənistanın viran qoyduğu şəhər və kəndlərimizi yenidən tikir. Qısa bir müddətdə on mindən çox məcburi köçkün öz yurd-yuvasına dönüb.

Sizin nə pulunuza, nə yardımınıza, nə də çörəyinizə, suyunuza ehtiyacımız var.

Ölkədə hər il pensiyalar, əmək haqları, minimum əmək haqları artırılır. Əhalinin rifah halını yaxşılaşdırmaq üçün sosial islahatlar həyata keçirilir.

**Gedin öz dərdinizi çəkin, hamınız ABŞ-ın vassalına çevrilmisiniz. Hətta ABŞ-dan icazəsiz gecələr arvadlarınızla yata da bilmirsiniz.**

# ÜÇ AĞDAMLI GƏNC DÜNYA ÇEMPİONU OLDU



**Dekabr ayının 5-8 tarixində Gürcüstan Respublikasının Kutaisi şəhərində Alpaqut türk döyüş sənəti üzrə Dünya Kuboku uğrunda yarış keçirilmişdi.**

Ağdamın Alpaqut türk döyüş sənəti idmançıları bu beynəlxalq yarışda iştirak etmişdilər. Məşqçi Kənan Quliyevin rəhbərliyi altında yarışda iştirak edən Ağdam idmançıları uğurla çıxış edərək çempion olmuşdular.

Çempionları sizə təqdim edirik: Qənbər Ağayev, Rəşad Quluzadə, Fərid Sarıyev.

Millət vəkili Aqil Abbas Quzanlı qəsəbəsində çempionlarla görüşmüş, problemləri ilə maraqlanmış və qarşıdakı yarışlarda onlara uğurlar arzulamışdır.

# AZAL-ın sərnişin təyyarəsi qəzaya uğradı



**"Azərbaycan Hava Yolları" aviaşirkətinin J2-8243 nömrəli Bakı-Qroznı reysini yerinə yetirən "Embraer 190" təyyarəsi Aktau şəhərinin 3 km yaxınlığında qəza enişi edib. AZAL-dan Adalet.az-a bildirilib ki, hadisənin səbəbləri araşdırılır.**

# İsrail HƏMAS liderlərinin ölümündə iştirakını etiraf etdi

**İsrailin müdafiə naziri İstael Kas ilk dəfə olaraq Fələstinin HƏMAS hərəkatının siyasi bürosunun rəhbəri İsmail Haninin qətlində iştirak etdiklərini etiraf edib.**

Bu barədə məlumat verən Times of İsrael qəzeti, müdafiə nazirinin sözlərini önə çıxararaq bildirir: "Kas bəyan edib ki, İsrail Hüsilərin strateji infrastrukturlarına zərbələr endirməyə davam edəcək, həmçinin onların da liderlərini məhv edəcəyik".

"Biz, Tehranda, Qəzzada, Livanda HƏMAS-ın liderləri Hanini, Sinvarı və HƏMAS-ın baş katibi Həsən Həsullahı qətlə yetirdiyimiz kimi, Hodeydə və Sanedə də bunu edəcəyik"- deyə nazir qeyd edib.

Xatırladırıq ki, İsrail daha əvvəl Tehranda Haninin qətlə yetirilməsndə əli olduğunu rəsmi etiraf etməmişdi.

**Rüstəm Hacıyev**

# "Nikol ölkənin demoqrafik mənzərəsini dəyişib Qərbi Azərbaycana çevirir"

**Xəbər verdiyimiz kimi, Prezident İlham Əliyev "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin Baş direktoru Dmitri Kiselyova müsahibəsində Ermənistandan qovulmuş azərbaycanlılardan danışıb.**

Dövlət başçısı deyib ki, Azərbaycanda Ermənistandan gələnlərin icması var, onlar 1980-ci illərin sonunda - 1990-cı illərin əvvəlində deportasiya olunmuş təxminən 300 min azərbaycanlıdır:

"Bu icma qayıtmaq, reinteqrasiya üçün onlara belə bir şəraitin yaradılmasına dair Ermənistan rəhbərliyinə rəsmi müraciət edib. Çünki onların 1990-cı illərin əvvəlində oradan deportasiyası o demək deyil ki, bu insanların qayıtmaq hüququ yoxdur. Ona görə də biz hələ bu günədək Ermənistan rəhbərliyindən azərbaycanlıların öz tarixi torpaqlarına reinteqrasiyası prosesini necə görmələri barədə cavab almamışıq", - deyə dövlət başçısı əlavə edib.

Azərbaycan liderinin bu açıqlaması ermənilər əməlli-başlı rəncidə salıb və hətta əsəbləşdirib.

Adalet.az xəbər verir ki, əsəbləşən ermənilərdən biri də politoloq Qagik Hambaryan olub. O erməni mediasına açıqlama verib və bildirib ki, Əliyev Nikol vasitəsilə 300 min azərbaycanlını Ermənistana yerləşdirməyə hazırlaşır:

"Bəli, Əliyev bu planı 44 günlük müharibədən sonra irəli sürür və planlar qurur. Nikol Ermənistanın demoqrafik mənzərəsini dəyişərək



Qərbi Azərbaycana çevirir". Daha sonra politoloq yayınladığı xəritədən danışıb:

"Azərbaycanlılar bu xəritəni dərc edib Ermənistanda türk-azərbaycanlıları harada yerləşdirəcəklərini qırmızı ilə qeyd edirlər..."

Qeyd edək ki, hələ ötən il indiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə, sülh yolu ilə geriyə qayıtmasının təmin edilməsi barədə Qayıdış Konsepsiyasının tam mətni yayımlanıb.

**Bu Konsepsiya indiki Ermənistan ərazisindən zorla çıxarılmış azərbaycanlıların geriyə qayıtması üçün İcmanın həyata keçirəcəyi fəaliyyətin məqsədləri, prinsipləri, hazırlıq və icra tədbirləri üçün ümumi çərçivəni müəyyən edir. Konsepsiya beynəlxalq hüquqa, aidiyyəti dövlətdaxili hüquqa, tarixi faktlara əsaslanır, ədalətin və sülhün bərqərar olunmasına xidmət edir.**

**Əntiqə Rəşid**

# "QARABAĞ" LİDERLİYİNİ MÖHKƏMLƏTDİ

**Futbol üzrə Azərbaycan çempionatının 18-ci turuna yekun vuruldu. Klublar 18 turdan sonra qış fasiləsinə çıxdılar. "Qarabağ" ən yaxın rəqibi "Araz-Naxçıvan"dan 8 xal öndə gedərək liderliyini daha da möhkəmlətdi.**



# ARVADI İLƏ 27 İL KƏBİNSİZ YAŞAYAN BAŞ NAZİR



**Hər şeyi görmüşdük, amma bunu görməmişdik. Məlum olub ki, Ermənistanın baş naziri Nikol Paşinyan 27 ildir birgə yaşadığı arvadı Anna ilə kəbin kəsdirməyibmiş.**

İndi Anna Akopyan iki ayağını bir başmağa dirəyib ki, ya kəbin kəsdir, ya da ajıx eliyif gedəcəm Fransaya.



Səxavət Məmməd

## Təyyarə qəzası: PUA, HHM, yoxsa quş hücumu?

**AZAL-a məxsus təyyarənin qəzaya uğraması, yoxsa quş dəstəsinə, Ukrayna PUA-na tuş gəlməsi və ya rusların hava hücumundan müdafiə sistemi (HHM) tərəfindən vurulması cəmiyyət tərəfindən ciddi müzakirə edilir. Bəri başda deyim, bəziləri konkret boşboğazlıqla məşğuldur.**

**Hər kəs düz bildiyini yazır, amma hərənin düzü özünə, biz reallıqlara baxaq. Əvvəla, bu tip hadisələrdə bütün versiyalar yoxlanılır. "Qara qutu" isə son sözü deyir.**

**Ən çox iddia olunan məsələ HHM sistemi tərəfindən vurulmasıdır. Hansı HHM sistemi olub bu? HHM sistemi ilə az mülki təyyarə vurulmayıb. Hamısının aqibəti də məlumdur. O necə HHM olub ki, mülki təyyarəni vurub, ancaq təyyarə bir saat havada var-gəl edib, Mahaçqalaya enmək istəyib, alınmayıb, sonda yanacağı boşaldıb Aktauya enməyə qərar verib? Hər kəs videolar üzərindən analiz verir. Təyyarənin enmə videosuna bir neçə dəfə baxdım, təyyarə havada olarkən tüstü gözə dəymirdi.**

**Hesab edək ki, Rusiya HHM səhv edib təyyarəni vurub. Belə olsaydı, Rusiya bunun üçün rəsmən üzr istəyib, rahatlıqla məsələni bağlaya bilərdi. Bu cür hallar ilk deyil, son da olmayacaq. Hətta bilərəkdən vurulma anlarında belə rəsmi üzr və təzminatla məsələ öz həllini tapır. Misal üçün rus helikopterinin Naxçıvan istiqamətində, Rusiya qırıcısının Türkiyə tərəfindən vurulması, İranın Ukrayna təyyarəsini bilmədən vurması və s   Bu cür halları say-say bitməz.**

**Rusiya ilə Azərbaycan münasibətlərini nəzərə alsaq, hətta Azərbaycan Prezidentinin MDB sammiti üçün getdiyini göz önünə gətirsək, Rusiya tərəfinin belə səhvini etiraf etməsindən nə çəkindirə bilər sualı HHM versiyasını ağlabatan etmir. Demirəm, mümkün deyil, sadəcə, versiyanın özü də böyük sual işarəsidir.**

**PUA məsələsi də maraqlı versiyadır. PUA-nın mülki təyyarəni vurma ehtimalı real deyil. Normalda Ukrayna tərəfi kamikadze dronlarla hücum edir. Hədəfləri isə havada yox, yerdəki obyektlər olur. PUA-nın zərərsizləşdirilməsi nəticəsində PUA-nın, yaxud onu vurmaq üçün atılan raketin qalıqlarının təyyarəyə çırpılmaq ehtimalı ola bilər? Mümkün variantdır. "Pantsir-S1/SM" özüyeriyən zenit raket kompleksidir. Bu kompleksin hədəf aşkarlama sistemi aşağı süratli kiçik ölçülü PUA-ları aşkar etmək üçün dəyişdirilib. PUA-nı vurmaq üçün atılan raket təyyarəyə zərər verə bilər? Bilər. O zaman daha bir sual çıxır: mülki təyyarə istiqamətinə doğru niyə atəş açılıb? Yeri gəlmişkən, bu sistemlərdən atılan mərmilər dəyərək yox, havada partlayır və qəlpələrlə zərər verir. Təyyarə ilə PUA toqquşması mümkündür? Mümkün variantdır. Hətta toqquşmadan sonra PUA-nın təyyarədən kənarda partlaması da mümkündür. Kamikadze PUA təyyarəyə çırpıldığı an partlayarsa, təyyarə də havada partlayardı. Təyyarədən kənarda partlayarsa, zərər verə bilərdi.**

**Bəziləri deyir ki, təyyarəni pilot suya endirsə, daha yaxşı olardı. İnsan özü suya kəllə vuranda belə səhv edirsə, mütləq şəkildə "yanır". Suya düzgün şəkildə baş vura bilməyən insanlar görmüşəm ki, ağrıdan və boğulmaqdan güc-bəla ilə xilas etmişik. Bir anlıq düşünün, dənizə təyyarə düşür. Onun dəyməsi bir problem, sudakı insanların hipotermiyadan ölməsi isə başqa bir problem olardı. Qış fəslində olduğumuzu nəzərə alsaq, təyyarə suya ensəydi, zərbədən sağ qalanlar da hipotermiyadan öləcəkdi.**

**Quş versiyasını heç kim qəbul etmədiyi üçün bu versiyaya da bir "quş" qoyub, keçim brifinqə. Brifinq olacağını dedikdə, oturub gözlərimi ekrana zillədim ki, nə isə maraqlı bir şey eşidəcəyəm. Məlum oldu ki, 3 qurumun mətbuat xidmətinin bildiyindən daha çox informasiyam var. Bütün dünyanın gözü o brifinqdə idi. Azərbaycan mediasını yola verə bilərsiniz, buna bir sözüm yoxdur. Çünki yola verilləsi mediadır. Lakin dünyanın bütün media qurumları ən azı onlayn şəkildə sizi izləyir ki, bir şey deyəsiniz.**

**Deməyiniz bir yana, ümumiyyətlə, o nə idi hələ də anlamış deyiləm. Brifinq keçirən şəxslər mətbuatdan o qədər uzaqdırlar ki, ya zəlzələdən, ya da vəlvələdən nə edəcəklərini bilmirdilər. Bəhanələri olacaq ki, ağır hadisə baş verib, ona görə dilxor idilər. Belə brifinq keçirməkdənsə, keçirməmək daha yaxşı olardı.**

**Dəyişən heç nə yoxdur. Bildiyimiz Azərbaycan cəmiyyəti bölünüb iki yerə: bir qismi Rusiyanı günahkar çıxarmaq istəyir, digər bir qismi də Ukraynanı. Yazıq ölənin halına**

**Ölənlərə rəhmət, sağ qalanlara isə can sağlığı arzu edirəm.**

## Bu sektorlarda çalışanların maaşları artırılacaq



**"Minimum əməkhaqqı gələn aydan 400 manata çatdırılacaq. Minimum əməkhaqqındakı artım sadəcə aşağı maaş alanların deyil, eləcə də vahid tarif cədvəlinin (VTC) bütün pillələri üzrə əməkhaqlarında artımları təmin edəcək".**

Adalet.az xəbər verir ki, bunu iqtisadçı deputat Vüqar Bayramov deyib. O bildirib ki, dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin aylıq tarif (vəzifə) maaşları da bu Sərəncama uyğunlaşdırılacaq və artırılacaq.

"Sosial, elm, səhiyyə, mədəniyyət, gənclər və idman, kənd təsərrüfatı, ekologiya və ətraf mühitin mühafizəsi, mənzil-kommunal, nəqliyyat və rabitə, meliorasiya, su təsərrüfatı və balıqartırma sahələrində çalışan dövlət qulluqçusu statusu olmayan işçilərin də əməkhaqları artacaq. Bu sahələrdə çalışan və dövlət qulluqçusu statusu olmayan vətəndaşlarımızın əməkhaqları Vahid Tarif Cədvəli (VTC) əsasında dövlət büdcəsindən maliyyələşdirilir. Vahid Tarif Cədvəlində maaşlar 19 dərəcə üzrə müəyyənləşdirilir. Hazırda ilk 4 dərəcə üzrə əməkhaqqlar 400 manatdan azdır və onlar 345-389 manat arasında dəyişir.

Ən yüksək dərəcə üzrə əməkhaqqı isə 1125 manatdır. Minimum əməkhaqqının artırılması bütün dərəcələr üzrə artımlara səbəb olacaq. Bu zaman əməkhaqqının minimum səviyyədən az və çox olması xüsusi önəm daşımır".

**Nicat**

## Trampın yeni savaş planı: «Panama kanalını və Qrenlandiyanı mənimsəmək»

**"Panama kanalı ABŞ-ın mülkiyyətinə qayıtmayacaq, çünki o, yalnız Panamaya məxsusdur".**

Adalet.az xəbər verir ki, bu sözləri Panamanın prezidenti Xose Raul Mulino deyib.

Bundan sonra ABŞ-ın yeni seçilmiş prezidenti Donald Tramp bu açıqlamaya istehzalı cavab verib, Panama kanalının fotosunu "Amerika Birləşmiş Ştatları Kanalına xoş gəlmisiniz" başlığı ilə yerləşdirib .

Mulino Trampın bu paylaşımını cavabsız qoymayıb:"1977-ci il Torrixos-Karter sazişləri keçmiş Kanal Zonasının ləğvini, Panama suverenliyinin tanınmasını və kanalın tam olaraq Panamaya verilməsini nəzərdə tuturdu. Mən prezident kimi açıq şəkildə bildirmək istəyirəm ki, Panama



kanalının hər kvadratmetri və ona bitişik zona Panamaya aiddir, bu, bizim ölkənin suverenliyi və müstəqilliyi ilə bağlı müzakirələrə yol verilmir". Kanalın ölkəsinin tarixinin ayrılmaz hissəsi olduğunu vurğulayan Mulino sonda fikrini bu sözlərlə yekunlaşdırıb:"Hər bir panamalı "bunu ürəyində daşıyır."

Xatırladaq ki, 20-ci əsrin əvvəllərində amerikalılar tərəfindən inşa edilən Panama kanalı 1977-ci ildə ABŞ prezidenti Cimmi Karterlə Panamanın o zamankı faktiki lideri arasında müqavilələrin imzalanmasından sonra neytrallaşdı və buna əsasən Panama bu transokeanik marşruta nəzarəti ələ keçirdi. Kanalın istifadəsi üçün ABŞ icarə haqqı müəyyən edilmişdir. Kanal həm sülh, həm də müharibə şəraitində bütün xalqların gəmilərinin təhlükəsiz və açıq keçidinə zəmanət verir. Odur ki, Trampın sonuncu açıqlaması bu mövzunun böyük bir qalmaqal və gərginlik yaradacağı şübhəsizdir:""Prezident Cimmi Karter prezidentliyi dövründə kanalı axmaqcasına bir dollara verəndə, ona Çin və ya başqası yox, yalnız Panama nəzarət edə bilərdi".

Bundan bir neçə gün əvvəl Tramp daha bir açıqlama yaymışdı.Tramp hesab edir ki, Amerika hakimiyyəti Qrenlandiya üzərində nəzarəti bərqərar etməlidir:"Dünyada milli təhlükəsizlik və azadlıq naminə Birləşmiş Ştatlar hesab edir ki, Qrenlandiyaya sahiblik və nəzarəti əldə etmək mütləq zərurətdir", o, "Truth Social" səhifəsində yazıb.

***P.S.** ABŞ-ın yeni seçilmiş prezidenti Donald Tramp hələ and içməmiş 2 ölkənin yuxusuna haram qatıb. Panama dövlətinə məxsus Panama kanalını və Qrenlandiyanı mənimsənilməsi planı bəşəriyyətə heç də xeyir gətirən plan olduğunu demək olmaz. Görünür dünyadakı müharibə ocaqlarının sayı okeanın o tayından baxanda çox az görünür.*

**Əntiqə Aslan**

Rüstəm Hacıyev

## İki atom nəhənginin qarşıdurması reallaşır...



*Qlobal müharibə 2025-ci ildə başlaya bilərmi?*

*Dekabrın ortalarından başlayaraq, Rusiyanın bir neçə yüksək vəzifəli məmuru, gələcəkdə Rusiya və NATO arasında qarşıdurmanın qaçılmaz olacağı barədə bəyanatlar səsləndirirlər.*

*Baxmayaraq ki, dünyada daha çox Ukrayna münaqişəsinin sülh yolu ilə tənzimlənməsi ilə bağlı müzakirələr aparılır,  lakin görünən odur ki, bu pərdəarxası hazırlanan faciənin pərdələnməsindən başqa bir şey deyil.*

*Rusiyanın xarici işlər nazirinin müavini Aleksandr Qruşko bildirir ki, NATO  Rusiya ilə müharibəyə hazırlaşır, müdafiə naziti Andrey Belausov da bəyan edir ki, ordusu belə bir ssenariyə cavab verməyə hazırdır.*

*Rusiyalı siyasətçilər əvvəllərdə alyansın Ukrayna münaqişəsinə aktiv  müdaxiləsinin Rusiya-NATO arasında mümkün qlobal müharibəyə apara biləcəyi barədə bəyanatlar səsləndirirdilər. Bəziləri hətta daha irəli gedərək, alyansın "hücum planları" barədə geniş məqalələr də*



*dərc edirlər. Əslində Rusiya ilə NATO arasında açıq qarşıdurma ssenarisi baş verə bilərmi?*

*Rusiya müdafiə nazirinin müavininin sözlərinə görə, Şimali Atlantika Blokunun hazırda tutduğu kurs, Rusiya üçün, ümumi qlobal arxitektura  və regional təhlükə yaradır. NATO-ya üzv dövlətlərin əməl və hərəkətləri Rusiyanı risk altında qoyur. Bununla yanaşı rusiyalı diplomat qeyd edir ki, hakimiyyət ətrafda baş verənləri diqqətlə izləyir və vəziyyətin hər an daha da gərginləşə biləcəyinə hazırlıq görür. Bununla bağlı alyansa üzv ölkələrin bir çoxuna qarşıdurmaların ağır nəticələri barədə xəbərdarlıq siqnalları da göndərilir. Rusiya Dövlət Dumasının beynəlxalq əlaqələr komitəsi sədrinin birinci  müavini Aleksey Çipa bildirir ki, NATO həmişə Rusiya ilə qarşıdurmaya hazırlaşıb. Lakin Ukrayna münaqişəsinin davam etməsi,  qarşıdurmanın qarşısıalınmaz olacağından xəbər verir. Həqiqətən də, göründüyü kimi, təkcə kütləvi informasiya vasitələri, jurnalistlər, politoloqlar, sitasi şərhçilər deyil, siyasi elita da, artıq Rusita və NATO arasında geniş miqyaslı qarşıdurmanın qaçılmaz nöqtəyə gəlməsi ilə bağlı həyəcan təbili çalmağa başlayıblar.*

*Alyans ölkələri Rusiyanın NATO-ya hücum edəcəyini bəyan edirlər, Moskva isə əksinə, Şimali Atlantika blokunun münaqişəyə hazırlaşdığını bəyan edirlər. Bu günlərdə Kremldə ilin yekunları ilə bağlı ənənəvi yığıncaqda jurnalistlərin məsələ ilə bağlı suallarını cavablandıran Rusiya Federasiyasının prezidendi bildirib ki, "Baxın nə deyirlər, "Rusiya NATO-ya hücum etmək istəyir". Siz tamamilə ağlınızı itirmisinizmi?". Rusiya lideri daha sonra əlavə edib ki, "təbii ki, Rusita üçün qırmızı xətt var, əgər bu xətt keçilərsə Moskva NATO-nu münaqişənin tərəfi kimi qiymətləndirəcək". Yəni Putinin sözlərindən aydın olur ki,  "qırmızı xətt" keçilərsə, alyansla qarşıdurma qaçılmaz olacaq.*

*Rusiya Ukraynanın (oxu NATO-nun) qoyfuğu "qırmızı xətti",  Altsns isə hazırda  Ukraynaya amerikan silahlarından Rusiya ərazilərinə raket zərbələri endirməsinə icazə verməklə faktiki olaraq "qırmızı xətti" çoxdan keçiblər və demək olar ki, NATO-Rusiya qarşıdurması artıq başlayıb. Sadəcə olaraq, bu qarşıdurma açıq şəkildə aktiv fazaya keçməyib.*

*Münaqişənin açıq qarşıdurma fazasına keçə biləcəyi çox da inandırıcı görünməsə də, qarşıdurmanın daha da gərginləşməsinə səbəb olacağı heç bir şübhə doğurmur. Bu isə, danışıqların sülh yoluna dönməsini çox çətinləşdirəcək.*

*Dünya hazırda bəlkə də, ən maksimal təhlükəli günlərini yaşayır. Dünyanın ən çox nüvə potensialına malik iki nəhəng gücünün qarşıdurmasının hansı faciələrə gətirib çıxara biləcəyini təsəvvür etmək belə adamı dəhşətə gətirir.*

*Lakin görünən hələ ki, münaqişənin siyasi yolla həlli mexanizmi tapılmır. Yeganə ümid ABŞ-ın yeni seçilmiş prezidenti Donald Trampın müharibəni dayandıracağı ilə bağlı verdiyi sözə qalıb, onunda həlləki ortalıqda bunu necə edəcəyi ilə bağlı ağlabatan planı yoxdur.*

# Yurdun təəssübkeş oğlu: Şəhid Əşrəf Əşrəfov zirvəsi

**Birinci Qarabağ müharibəsindən 30 ildən də artıq vaxt keçməsinə baxmayaraq , hələ də elə şəhidlərimiz var ki, onun haqqında nə sosial şəbəkələrdə , nə də mediamızda heç bir məlumat yoxdu. Yaxud da o qədər azdır ki, gözə çarpmır!**

Bu çox ədalətsiz və utancverici bir haldır ki, şəhidlərimizin tanıdılması, vətənpərvərliyin təbliği hələ də düzgün qurulmayıb. Bu işdə təbliği sıfır olan şəhidlərin yaxınlarının da böyük günahı var.




Hazırda hər kəsin istənilən mövzuda danışacağı bir platforması olduğu halda bir çox şəhidlərimiz haqqında, ümumiyyətlə, heç bir məlumata, hətta sosial şəbəkələrdə belə bir cümləlik xatırlatmaya da rast gəlmədik. Qeyd etdiyim kimi, bunun ilk günahkarları şəhidin yaxınları, ikinci günahkarı isə şəhidin doğulub böyüdüyü kəndin ziyalı qismidir. Axı, niyə kəndin qəhrəman oğlu haqqında heç bir məlumatı sosial şəbəkədə paylaşmayıblar? Bu şəhidimizə biganəlikdir axı?

Demək olar ki, 1 həftədir bütün növ sosial şəbəkələri "ələk-vələk" edirəm, amma Ağdam rayon Qızıllı Kəngərlidən olan şəhid Əşrəf Əşrəfov haqqında bir cümləlik yazılı məlumata rast gəlməmişəm. Düzü , Facebook sosial şəbəkəsində "Lerik Tanıtım Səhifəsi" olmasaydı heç mən də bilməyəcəkdim ki, Ağdamın Əşrəf Əşrəfov adlı bir şəhidi var. Bu çox ayıb bir nüansdır. Hanı o kəndin yetirməsi olan jurnalistlər, şairlər, publisistlər? Niyə hazırkı onlayn mediada niyə şəhidimizin adına, fəaliyyətinə işıq salacaq məqalələr?

"Lerik Tanıtım Səhifəsi"nin admini məndən ağdamlı olaraq şəhidimizlə bağlı məlumat toplayıb onlara verməyimi xahiş edərkən çoxdan tanıdığım və həmin kənddən olan rəfiqəm Sadə Nəsibovaya üz tutdum. Sadə xanım bildiyi məlumatları mənə atdı, mən də onları bir yerə toplayıb, bu məqaləni hazırlamağa başladım.Məlumatlar dolğun olmasa belə...

Amma kimsə şəhidimiz Əşrəfi daha yaxından tanıyırsa, daha ətraflı məlumatlar verə bilərsə, onu da bu məqaləyə əlavə edə bilərəm.

İndi isə ürəyimdəki təəssüf hissi ilə şəhid Əşrəf Əşrəfov haqqında məlumatları diqqətinizə çatdırıram. Əşrəf Qaraş oğlu Əşrəfov 22 iyun 1972-cü ildə Ağdam rayonu Qızıllı Kəngərli kəndində anadan olub. 1978-ci ildə həmin kəndin 8 illik orta məktəbinə daxil olub. Natamam orta məktəbi bitidikdən sonra təhsilini 36 saylı texniki peşə məktəbində davam etdirir və kəndinin inkişafında rolu olmaq üçün Əşrəf burada avtomobil sürücüsü ixtisasına yiyələnir.

(Yeri gəlmişkən bir çoxlarının bu məktəblə bağlı bilgisi olmadığı üçün araşdırmaçı jurnalist Orxan Zakiroğlunun məqaləsinə müraciət edək: "1965-ci ildə yaranmış Ağdam 36 nömrəli orta texniki-peşə məktəbi Ağdam, Xaçınçay (Xaçınstroy)qəsəbəsində yerləşib. 1975-ci ildə 136 nömrəli Ağdam kənd texniki-peşə məktəbi kimifəaliyyətini davam etdirib.Kənd təsərrüfatında işləmək üçün kadrlar hazırlayan məktəbdə(traktorçu, üzümçülük ustaşı, kranşı, mexanizator, baytarlıq, qaynaqçısı, çilingər avtomobil sürücüsüsü hazırlanıb.)

1990-cı ildə Hacı Zeynalabdin Tağıyev qəsəbəsində yerləşən "N" saylı hərbi hissədə hava hücumundan müdafiə üzrə kurs keçir.Kurs bitdikdən sonra Mingəçevir ərazisindəki N saylı hərbi hissədə xidmətə başlayır.

1991-xi ilin iyun-iyul ayında hərbi hissə dağılır və Əşrəf milli özünü müdafiə dəstəsində ermənilərə qarşı döyüşlərə atılır. 1992-ci ildən 1993-cü ilə qədər döyüşlərdə iştirak edir.

1993-cü ilin 19 iyun ayında Əşrəf Əşrəfov qəhrəmancasına həlak olur. Döyüş dostlarının verdiyi məlumata görə düşmən snayperi onu başından vurmuşdu.

**Dəqiqləşdirə bilmədim ki, Ə.Əşrəfov hansı hərbi hissənin döyüşçüsü olub. Onu tanıyanlardan, bir cəbhədə döyüşənlərdən xahiş edirik ki, bu haqda bizim sosial şəbəkə hesabımıza məlumat versin.**

**Əntiqə Rəşid**

# BİZƏ YAZIRLAR



Azərbaycan Respublikası Milli Məclisinin üzvü-millət vəkili cənab Aqil Abbasa

Şuşa şəhəri Dəmiryol küçəsi, bina 12, mərtəbə 3 mənzil 6 ünvanında yaşayan ( yazışmalar üçün ünvan: Bərdə şəhəri Nüşabə küçəsi, ev 26) Abbasov Pərviz Tofiq oğlu tərəfindən

ƏRİZƏ
( Xidmət haqqının ödənilməsinə köməklik göstərilməsi barədə)

**Hörmətli Aqil müəllim!**

Üzləşdiyim haqsızlıq və qanunsuzluqla əlaqədar millət vəkilimiz kimi köməklik göstərilməsi üçün Sizə müraciət edir və dəyərli vaxtınızı aldığıma görə əvvəlcədən üzürxahlıq edirəm !

Sizə olan müraciətimin mahiyyəti ondan ibarətdir ki, Şuşa şəhərində həyata keçirilən **"ŞUŞA ŞƏHƏRİ ASAN XİDMƏT KOPLEKSİNİN TİKİNTİSİ LAHİYƏSİ"** ilə əlaqədar "Conrad" MMC ilə mənim aramda bağlanmış 01.03.2024 -cü il tarixli İcarə müqaviləsinə əsasən mən xüsusi mülkiyyətim olan MERSEDES BENZ VİTO minik markalı 99 XU 417 dövlət nişanlı avtomabilimi həmin tikintidə istifadə olunması üçün MMC-yə icarəyə verir icarə müddətində onu özüm işlədərək işçilərin daşınması və digər xidmətləri göstərir, bu xidmətin əvəzində MMC mənə aylıq 1744,18 manat pul vəsaiti ödəməyi öhdəsinə götürür.

Mənim tərəfimdən müqavilənin şərtlərinə tam əməl edilərək həmin avtomobilimlə tikintinin həyata keçirilməsində MMC-yə yüksək səviyyədə xidmət göstərmişəm. Hətta **"ASAN XİDMƏT"** kompleksinin istifadəyə verilməsi ərəfəsində son 20 günü gecə-gündüz istirahət bilmədən çalışmışam. Lakin 5 aydır ki, "Conrad" MMC-nin mənə ödəməli olduğu pul vəsaitini qalan hissəsi olan 1346 manatı ala bilmirəm . MMC-nin rəhbərliyi, xüsusən də Natiq adlı əsas rəhbər vəzifəli şəxs

**Şuşa şəhər sakini Abbasov Pərviz Tofiq oğlu bizə müraciət edib.**

**Sizə olan müraciətimin mahiyyəti ondan ibarətdir ki, Şuşa şəhərində həyata keçirilən "Şuşa şəhəri ASAN xidmət kompleksinin tikintisi layihəsi" ilə əlaqədar "Conrad" MMC ilə mənim aramda bağlanmış 01.03.2024-cü il tarixli icarə müqaviləsinə əsasən mənim xüsusi mülkiyyətimdə olan "Mersedes Benz Vito" minik markalı 99 XU 417 dövlət nömrə nişanlı avtomobilimi həmin tikintidə istifadə olunması üçün MMC-yə icarəyə vermişəm.**

**Bu xidmətin əvəzində MMC mənə aylıq 1744,18 manat pul vəsaiti ödəməyi öhdəsinə götürmüşdü. Mənim tərəfimdən müqavilənin şərtlərinə əməl edilərək MMC-yə yüksək səviyyədə xidmət göstərmişəm. ASAN xidmət kompleksinin istifadəyə verilməsi ərəfəsində son 20 günü gecə-gündüz istirahət bilmədən çalışmışam. Lakin beş aydır ki, "Conrad" MMC mənə ödəməli olduğu pul vəsaitinin qalan 1346 manat hissəsini ala bilmirəm. MMC-nin rəhbərliyi Natiq adlı rəhbər vəzifəli şəxs və mühasib Rəna xanım mənə bildirirlər ki, Şuşa Qoruq İdarəsi bizə verməli olduğu pul vəsaitini vermədiyi üçün pullarınızı verə bilmirik. Mən şəxsən Şuşa Qoruq İdarəsinin rəhbərliyi ilə görüşmüşəm, idarənin rəhbərliyindən mənə bildiriblər ki, MMC-nin rəhbərliyi sizi aldadır, həmin idarənin MMC-yə borcu yoxdur.**

**Onu da bildirirəm ki, hay-küy salan işçilərin bəzilərinin pullarını xəlvəti ödəyib yola salırlar. Mənim kimi fağır işçiləri isə aldadıb süründürür, halal pulumuzu vermək istəmirlər.**

**Hazırda ailə vəziyyətim çətindir, xüsusən də xəstə ailə üzvümün müalicəyə ehtiyacı var. Xahiş edirəm, "Conrad" MMC-nin mənə olan 1346 manat borcumun ödənilməsinə köməklik edəsiniz.**

**Hörmətlə:**
**Abbasov Pərviz Tofiq oğlu**

# Paytaxt nəqliyyatından şikayət var - Dözülməz vəziyyət yaranıb




**Son zamanlar tıxaclarla bağlı yaşanan problemlər bitmək bilmir. Lakin problem yalnız tıxac deyil, həm də nəqliyyat vasitələrinin yararsız olmasıdır. Paytaxt nəqliyyatından sərnişinlər şikayət edirlər.**

Onlar Zabrat 1 qəsəbəsi istiqamətində hərəkət edən 118 a, b marşrut avtobuslarının fəaliyyətindən narazıdırlar. "Zabrat 1 qəsəbəsinə işləyən 118 a, b avtobuslarının texniki və sanitar vəziyyəti dözülməzdir. Eyni zamanda bu marşrutlarda hələ də sürücü gediş haqqını şəxsən toplayır. Bu halda isə onun diqqəti yoldan yayınır". Bunu Adalet.aza açıqlamasında həmin qəsəbədə yerləşən 192 saylı tam orta məktəbin müəllimi Kamal Hacıyev deyib. Onun sözlərinə görə, bütün nəqliyyat sistemində tətbiq edilən kartlar və ya "Birbank"la ödəniş sistemi hələ də bu marşrutlarda yoxdur:"Bəzən avtobuslar bir dayanacaqda 10-15 dəqiqə saxlayaraq müştəri gözləyir. Məktəbə, işə tələsən müəllim və şagirdlər vaxtında mənzil başına çata bilmirlər. Bəzi sürücülər salonda siqaret çəkir, çay-qəhvə içə -içə sükanı idarə edirlər. Həqiqətən çox dözülməz vəziyyət yaranıb. Xahişimiz və tələbimiz odur ki, bu istiqamət üzrə nəzarət olunsun və xəttə kartla işləyən yeni "Bakubus" avtobusları buraxılsın. Fikrimcə, kart sisteminin tədbiqi bu nüansların aradan qaldırılmasında kömək ola bilər"-deyə, o, bildirib.

**Əntiqə Kərimzadə**

# Rusiyanı yasa batıran Tu-154 hərbi təyyarəsi: Qara dənizə gömülən 93 hərbçi

**2016-cil Azərbaycan üçün məşəqqətli bir il oldu. 4 günlük Aprel döyüşlərində xeyli igid hərbçilərimizi itirdik. O igidlərin böyük əksəriyyəti Rusiya istehsalı olan silahlardan atılan mərmilər və güllələr nəticəsində şəhid olmuşdu. MN bildirmişdi ki, 101 hərbçi ölüb, 5 hərbçi itkin düşüb, 44 hərbçi yaralanıb. 6 mülki şəxs ölüb, 26 mülki şəxs yaralanıb,1 Mi-24 helikopter vurulub və 1 PUA itib.1 tank məhv olunub.Ümumiyyətlə, həmin dönəmlərdə Azərbaycan xalqı çox pəjmürdə idi.**

Adalet.az xəbər verir ki, 2016-cı il Rusiya üçündə kədərli il oldu. Beləki, 25 dekabrda Rusiya Müdafiə Nazirliyi Tu-154 təyyarəsində qəza olduğunu, təyyarənin radarlardan itdiyini xəbər verdi. Təyyarə Moskva vaxtı ilə 05:50-də Tu-154 tipli təyyarə Soçi şəhəri yaxınlığında, Qara dəniz üzərində qəzaya uğradı. Hadisə nəticəsində təyyarənin göyərtəsində-



ki 93 nəfərin hamısı, o cümlədən Müdafiə Nazirliyinin Aleksandrov adına ansamblının 64 üzvü, Rusiyanın NTV, "Zvezda" və Birinci kanalının 9 jurnalisti, həmçinin "Ədalətli yardım" xeyriyyəçilik fondunun rəhbəri Yelizaveta Qlinka (Doktor Liza) həlak oldu. Təyyarənin qalıqları Soçidən 1,5 km aralıda Qara dənizdə tapıldı.

2017 -ci ildə rus mediası yazırdı ki, partlayış üzrə mütəxəssislər Soçi şəhəri yaxınlığında qəzaya uğrayan "Tu-154" təyyarəsinin göyərtəsində terror aktı versiyasını istisna ediblər.Məsələn "Kommersant" qəzeti bildirirdi ki, qəzadan sonra hərbi təhqiqatçılar laynerin korpusunun hissələrinin, sərnişinlərin cəsədlərinin və şəxsi əşyalarının, həmçinin təyyarənin daşıdığı yükün bir sıra ekspertizasını keçiriblər.

"Təyyarənin göyərtəsində kriminal partlayış və ya onun raketlə vurulması izləri aşkarlanmayıb - beləliklə, terror barədə versiyalar təhqiqat tərəfindən araşdırılıb və qəzanın mümkün səbəbləri siyahısından çıxarılıb. Bundan sonra mütəxəssislər diqqətlərini digər versiya - hərbi təyyarə ekipajının mümkün xətası üzərində cəmləyib".

**Qeyd edək ki, həmin il Rusiya xaricdə də imicinə zərb alıb. Rusiyanın Türkiyədəki səfiri Andrey Karlov dekabrın 19-da Ankarada Müasir Sənət Mərkəzində rəsm sərgisinin açılışında çıxış edərkən silahlı hücuma məruz qalaraq öldürülüb.**

**Əntiqə Rəşid**

## *Xocalı rayonu üzrə təhsil sektorunun əməkdaşının qəfil ölümü: Fakt və şayiə*

**Xankəndi şəhərində müəllimlərin yaşadığı çoxmənzilli yaşayış binasında bir şəxsin həyatına son verdiyi ilə bağlı mediada və sosial şəbəkələrdə xəbərlər yayılıb. Məsələn , Publika.az, Qafqazinfo.az, Hurriyyet.az, Lent.az bildirib ki, Nəcəf Həsənov dekabrın 23-də saat 19 radələrində Xankəndi şəhərində müəllimlər üçün ayrılmış binada özünə xəsarətlər yetirib. N.Həsənov daha sonra özünü asıb.**

Adalet.az xəbər verir ki, mərhum Həsənov Nəcəfin Qarabağ Regional Təhsil İdarəsinin Xankəndi şəhəri və Xocalı rayonu üzrə təhsil sektorunun əməkdaşı olduğu deyilir. Məlumatı Xocalı rayon sakini, şəhid ailəsi Ceyran Əzizova da paylaşıb. Rəsmi məlumatlarda bildirilir ki, Qarabağ Regional Təhsil İdarəsi Nəcəf Həsənovun dekabrın 23-də yaşadığı evdə dünyasını dəyişib. Hazırda hadisə ilə



bağlı hüquq-mühafizə orqanları tərəfindən araşdırma aparılır:" Tibbi-ekspertiza yekunlaşdıqdan sonra hadisənin baş vermə səbəbi ilə bağlı əlavə məlumat veriləcək. İlkin ehtimala görə, Nəcəf Həsənov beyninə qan sızması səbəbindən dünyasını dəyişib".

**Əntiqə Rəşid**




**Faiq QİSMƏTOĞLU**
**faiqqismetoglu@box.az**


# Dünyanın taleyi

***Bu günlərdə Sərdar Cəlaloğlunun internet televiziyasında bir çıxışına baxdım. Azərbaycanın çox istedadlı, bizim tanımadığımız, amma dünyaca məşhur olan bir alimi, bir ziyalısı haqqında danışırdı.***

***Sərdar bəy dedi ki, ötən əsrin 90- cı illərinin əvvəlləri idi. Otağımda əyləşmişdim, bir də gördüm qapı döyüldü və içəri beli əyilmiş 70 yaşlarında bir kişi daxil oldu. O vaxtlar bizə çox imkansız adamlar müraciət edirdi və bizim də elə bir maddi imkanımız yox idi ki, onlara kömək edək. Düşündüm ki, bu yaşlı adam da yəqin bizdən kömək istəyir. Amma onu dinləyəndən sonra hər şey aydınlaşdı.***

***Məlum oldu ki, bir kitab yazıb onu satmaq istəyir. Özü də kitabı rus dilində yazıb. Kitaba baxdım, vərəqlədim, çox xoşuma gəldi. Kitabın adı belə idi: "Erməniçilik". Və kitab ermənilər haqqında, onların iç üzünün açılması, dünyada ifşa olunması, namərdlikləri barədə ən yaxşı və unikal bir tarixi mənbədir. Təkcə bu kitab bəs eləyir ki, ermənilər dünyada ifşa olunsun. Kitabın birini alıb, axıra qədər oxudum. Və bu qənaətə gəldim ki, heç bir elmlər doktoru, heç bir professor, heç bir akademik ermənilərin tarixi və onların iç üzünü açan belə dəyərli kitab ərsəyə gətirməyib. Sonradan kitabın müəllifi Saleh Hacıyevi tapıb bir dəfə 200, bir dəfə də 50-sini aldım.***

***Xaricə səfər edəndə senatorlara, konqresmenlərə, səfirliklərin nümayəndələrinə payladım. Amma indi gəlin görək, bu dünya şöhrətli alimi Azərbaycanda kütlə tanımır. Mən bir jurnalist olaraq, bir çox ziyalılar və alimlər arasında sorğu apardım. Kütlənin onu tanımamağı bir yana, tanınmış şəxslərin onu tanımaması bir millət olaraq bizim faciəmizdir.***

***Saleh Hacıyev barəsində araşdırma apardıq. Öyrəndik ki, bu dünya şöhrətli alim Şuşada anadan olub. Uşaqlığı çox çətin və məşəqqətli keçib. Əbdürrəhim bəy Haqverdiyevin qohumu imiş. Və gənc yaşlarında qarşılaşdığı çətinliklərdən bezib, Orta Asiya respublikalarından birinə gedir. Orda əvvəl kimyadan müdafiə edərək, elmlər doktoru, sonra da fizikadan müdafiə edərək elmlər doktoru olur və professor vəzifəsində işləyir. Alman və rus dillərini gözəl bilir. Almaniya universitetlərində alman dilində mühazirələr oxuyur. Sonradan ingilis dilini də öyrənir. Onun yazdığı dərslikdən bu gün də ABS-ın məşhur Universitetində geniş istifadə edilir. Saleh Hacıyevin xarici ölkələrdə çap olunmuş yüzlərlə elmi məqaləsi var. O, 90-cı illərin əvvəllərində Qarabağ müharibəsi başlayan kimi, hər cür şəraitini atıb, kömək üçün Vətənə dönür və bir ziyalı, bir alim kimi tarixi, unikal kitabları yazır.***

***Amma onun da ömrü Hadinin, Şirvaninin, Sabirin həyatı kimi çox pis keçir. İki otaqlı bir mənzildə yaşayır və ora yağış damır, imkanı olmur ki, evini təmir etdirsin. Amma belə şəraitdə o, bir- birindən gözəl elmi əsərlər yazır. Və "Dünyanın taleyi" kitabını ortaya qoyur. Günlərin bir günündə dünyasını dəyişir. Belə böyük alimin, ziyalının hansı qəbiristanlıqda dəfn edildiyi bilinmir. Bu da xalqa, elmə xidmət etməyin sonu. Bu dünyada Saleh Hacıyevə yer olmadı, ancaq o dünyada onun yeri Cənnətdir. Və belə təmiz adamların dostu insanlar deyil, Allah olur!!!***

## Dilənçiyə iki yüz manat pul verdi...



**Yəqin çoxları yazının sərlövhəsin oxuyanda təəccüblənəcək, amma təəccüblənməyin və bu, olmuş hadisədir.**

Biz gördüyümüz və şahid olduğumuz hadisələri qələmə alırıq. Bu hadisə də dekabrın 21- də Bakıda olub. Məkanı biz demək istəmirik, çünki həmin adamı kimsə, tanıya bilər. Qucağında körpə olan ismətli, abırlı bir qadın gəli- gedənlərə yalvararaq deyirdi ki, uşağın yeməyi qurtarıb, pulu yoxdur ki, ona yemək alsın.Uşağında yeməyi bahadır. Şüşə qabda körpə sonuncu qidanı yeyirdi. Qadının yalvarışlarına çox adam məhəl qoymadan onun yanından ötüb keçirdi. Birdən onun yalvarışlarını eşidən hündür boy bir oğlan qadına yaxınlaşdı.

Deyəsən, onun yalvarışlarını bu oğlan da eşitmişdi. Oğlan əlini cibinə salıb 200 manat pul çıxardı və sonra da vizit kartını qadına verib dedi:- Mən hər ay sənə bundan da artıq kömək edəcəm, amma bir də buralara gəlmə! Qadın sevinə- sevinə göz yaşları içində dilləndi:- Qardaş, vallah, mən dilənçi deyiləm, gördüm uşağın yeməyi qurtarır, əlacım kəsilib camaatdan kömək istədim, Allah sənin balanı saxlasın, sən məni sevindirdin, səni də Allah sevindirsin.

Həmin anı telefonla çəkmək istədik, ancaq oğlan razı olmadı. Dedi ki, sağ əl verdiyini, sol əl bilməməlidir. Sonra da avtomobilinə əyləşib yoluna davam elədi. Ətrafdakılar isə məəttəl qalmıdılar. Bilmirdilər ki, sevinsinlər, yoxsa, kövrəlsinlər. Nə yaxşı ki, dünyada belə mərhəmətli insanlar var!

**Emil Faiqoğlu**

## Yol polisi kobud qayda pozuntularına qarşı mübarizəni gücləndirib



**Respublikamızın avtomobil yollarında hər gün on minlərlə nəqliyyat vasitələri hərəkət edir.**

Təbii ki, onların hərəkətini tənzimləmək yol polisinin üzərinə düşür. Heç kimə sirr deyil ki, bəzi sürücülər kobud qayda pozuntularına yol verir və nəticədə ağır qəzalar qaçılmaz olur. Ona görə də respublikanın avtomobil yollarında xidmət aparan Baş Dövlət Yol Polisi İdarəsinin Yol Patrul Xidməti Alayının tağımları belə qayda pozuntularının qarşısınıalmaq üçün mütəmadi tədbirlər həyata keçirirlər. Bu mənada Yol Patrul Xidməti Alayının 12- çi tağımının əməkdaşları tapşırılan vəzifələri məsuliyyətlə yerinə yetirməyə çalışırlar. Tağım Hacıqabul- Beyləqan avtomobil yolunun 0-çı kilometrindən 112 - çi kilometrə qədər xidmət aparır.

Öncə onu qeyd edək ki, tağım əməkdaşları qeyri - sabit hava şəraitində yüksək peşəkarlıqla xidmət aparır, avtomobil yolunun təhlükəli yerlərində daha diqqətli olur, baş verə biləcək qəza şəraitini düzgün qiymət verir və bu barədə sürücüləri məlumatlandırır.Sərxoş , ötmə əməliyyatını düzgün yerinə yetirməyən, sürücülük hüququ olmadan avtomobil idarə edən , ara məsafəsi saxlamayan, mobil telefonla danışan, nəqliyyat vasitəsinin konstruksiyasında dəyişiklik edən, texniki cəhətdən nasaz avtomobili idarə edən sürücülər yol polisi əməkdaşları tərəfindən saxlanılır və inzibati məsuliyyətə cəlb edilirlər.

Əlbəttə, bu cür addımların atılması kobud qayda pozuntularının azalmasına və ölümlə nəticələnə biləcək qəzaların azalmasına səbəb olur. 12- ci tağımın komandiri Namiq Əzizov çox savadlı və peşəkar polis zabitidir. O, həmişə tağım əməkdaşlarından ədalətli olmaği və hərəkət iştirakçılarına hörmətlə yanaşmağı tövsiyə edir. Namiq Əzizov bizimlə söhbətində dedi ki, biz həmişə çalışırıq ki, rəhbərliyimizin qarşımızda qoyduğu vəzifələri məsuliyyətlə yerinə yetirək. Eyni zamanda hərəkətin təhlükəsizliyi üçün xidmət apardığımız avtomobil yolunda mövcud problemi vaxtında aradan qaldıraq. Bununla yanaşı, əməkdaşlarımız qeyri-sabit havalarda, yağış, qar yağanada və yollar təhlükəli olanda stasionar postda sürücüləri saxlayır, bu barədə onlara xəbərdarlıq edir, daha diqqətli olmaları bildirilir. Bu da öz müsbət nəticəsini göstərir. Ümumiyyətlə biz calışırıq ki, cərimə etmək yox , maariflәndirək.Çünki onlarla yol polisi arasında qarşılıqlı hörmət olanda , bu, işimizə müsbət təsir edir.

Ona görə də biz bu cür qabaqlayıcı tədbirləri həmişə diqqət mərkəzində saxlayırıq. Qarşıdan yeni il bayramı gəlir. Bir çox insanlar bayram günlərində rayonlara gedəcəklər. Ona görə də həmin insanlar hava şəraitini nəzərə almalı və mənzil başına sağ-salamat çatmaq üçün yol hərəkəti qaydalarına əməl etsələr daha yaxşı olar.

## Ən uzun gecə...



**Ən uzun gün olduğu kimi, ən uzun gecə də var.**

Və insanlar ən uzun gecədən ən uzun günü daha çox sevirlər. Çünki gün uzun olanda ondan daha səmərəli istifadə etmək olur. Başqa sözlə demiş olsaq, ən uzun gündə insanlar özlərini rahat hiss edir, asanlıqla çörəkpulu qazanırlar. Amma ən uzun gecənin də öz ləzzəti var. Həmin günü tənbəl insanlar yatmaqdan doymur, gecəni böyük sevinclə yaşayırlar. Ən uzun gecə dekabrın 22- si sayılır və həmin günü qış girir. Düzü,,mənim qışdan zəhləm gedir. Üşüyən adam oduğuna görə, yaydan xoşum gəlir. Amma qışında öz gözəlliyi var. Xüsusən kənd yerində. Odun sobasının qarşısında oturub qızına bayırda yağan qara baxırsan... Və kartofu dilimləyıb, sobanın üstünə düzürsən... Qıpqırmızı qızarır, yeyirsən ləzzət eləyir. Bir sözlə, nolsun qışdan mənim xoşum gəlmir, xoşu gələnlər də az deyil. Və hər fəslinin öz gözəlliyi var. Ən azından qışda qar yağanda hamı sevinir və elə mən də sevinirəm. Bax, ən uzun gecə də belə yadda qalır...

## Reklam olunan həkimlərin yanına getməyin

**Çox adam telekanallara inanıb verilişlərdə reklam olunan həkimlərin yanına gedirlər.**

Sovet dönəmindən insanların yaddasında belə bir iz qalıb ki, televiziyalarda, qəzetlərdə nə desələr, nə yazsalar doğrudur. Amma bu, sovet dönəmində belə idi.İndi isə pul qazanmaq üçün ən savadsız həkimi elə tərifləyirlər ki, insanlar televiziyalara inanır və ora axın edirlər. Məsələn, ATV kanalında reklam olunan travmatoloq-ortaped həkim Vüsal Mahmudovu bir o qədər də tanıyan yox idi. Reklamdan əvvəl onun yanına getmişdik, qəbulunda bir- iki nəfər xəstə vardı. Zaur Baxşəliyev onu reklam edəndən sonra onun qəbulunda uzun növbələr yarandı.Bizim xəstəni də yaxşı müalicə edə bilmədi və başqa həkim xəstəmizi sağaltdı. Onun yanına gedən xəstələr bu həkimdən narazılıq edir.



Ümumiyyətlə, reklama inanıb belə həkimlərin yanına getməyin , onlar sizi şikəst edəcək.Telekanalların nə vecinə pulun alıb reklam edirlər. Məgər, Xalq artisti Flora Kərimovanın gözünü cərrah həkim pis günə qoymayıbmı! Bizim bir qonşumuz xanım var, onun da gözlərini reklam olunan" məşhur" həkim kor edib. Reklam olunan savadsız həkimlərlə bağlı əlimizdə çoxlu sayda faktlar var və lazım gəldikcə onların adını, soy adını oxucularımıza deyəcəyik! Hələlik bu qədər bəsdi və ardı olacaq!

## Sürücü sükan arxasında siqaret çəkirsə...



**Bizim ölkəmizdə bəzi sürücülər var ki, avtobusu idarə etməyi bir yana, özlərini idarə edə bilmirlər. Ya telefonla danışır, ya da siqaret çəkirlər. Mən konkret fakta danışıram.**

Belə ki, dekabrın 20- də gündüz saat üç radələrində metronun " Nefçilər" stansiyasından Yeni Günəşliyə hərəkət edən 50 nömrəli marşrutda hərəkət edən avtobusun sürücüsü yolboyu siqaret çəkirdi. Qulağında da mobil telefonun qulaqcığı. Siqaretdən bir neçə qüllab vurub, kimləsə, şirin-şirin söhbət edirdi. Heç ona bu hərəkətinə görə, sərnişinlər də irad tutmurdu. Hava da çox soyuq idi. Avtobusun istilik sistemi işləmirdi. Sürücü yanındakı pəncərəni açıq qoymuşdu ki, siqaretin tüstüsü çölə çıxsın. Amma o, bilmirdi ki, pəncərədən avtobusun salonuna dolan soyuq hava içərini bir qədər də soyudurdu. Düz " Ballı marketin" yanına kimi, sürücü üç siqaret çəkdi. Ümumiyyətlə, bu marşrutun əksər sürücülər bax belə intizamsızdır. Bu avtobusların çoxunda istilik sistemi işləmir. Sürücülər bir çox halda onlara irad tutan sərnişinlərlə kobud rəftar edir. Hətta bəzi sürücülər yol digər avtomobillərlə ötüşür və qəza vəziyyəti yaradırlar.

Ona görə də bu marşrutun sahibi mövcud nöqsanları aradan qaldırmalı, qış mövsümü ilə əlaqədar avtobusdakı istilik sistemini işlək vəziyyətə salmalıdır. Əks - təqdirdə sərnişinlər 50 nömrəli marşrutun fəaliyyətindən narazı qalacaqlar!

## Keşlə bazarı sökülür...




**Bakıda Keşlə bazarı kasıbların bazarı kimi tanınır. Heç orada işləyənlər də bir o qədər varlı deyillər.Onların hamısı işlədikləri yeri icarəyə götürüblər. Yəni bu obyektlər alver edən adamların mülkiyyəti deyil. Özü də bu bazarda digərlərilə müqayisədə ucuzluqdur. İndi bir neçə gündür ki, burada işləyən insanların kürkünə birə düşüb. Yəni bazarın rəhbərliyindən bildirilib ki, ayın axırına qədər ordan çıxsınlar.**

Çünki bazar sökülləcək və buradan böyük yol çəkiləcək. Bazarda işləyənlər deyirlər ki, bu, az vaxtdır.On- oniki günə buradan çıxa bilməyəcəklər. Ən azından onlara martın axırına kimi vaxt verilməlidir.Bazardakılar onu da deyirlər ki, həmin yerdə iki min adam işləyir və evinə çörək aparır. Və burada onların tonlarla məhsulu var, hara aparsınlar. Bazarda alver edən Nazim Əhmədov deyir ki, Göyçaydan 130 ton nar alın gətirib ki, yeni ildə satıb, balalarına çörək qazansın.Bəs bu məhsulu hara aparsın? 60 yaşlı Gülnar Məmmədova da əlində qalan müxtəlif turşuladan ürəkağrısı ilə danışır

Bildirir ki, 2 tona yaxın turşunu bilmir ki, kimə versin və neçə satsın. Həmin yerdən yol çəkmək istəyən I Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinindən isə bildirilir ki, bazar mütləq söküləcək və bu barədə bazar rəhbərliyinə altı ay bundan əvvəl xəbər verilib, sadəcə olaraq rəhbərlik bazarda işləyənləri vaxtıda məlumatlandırmayıb. Göründüyü kimi, hərə özünü haqlı sayır. Amma ən böyük haqqı olan bazarda işləyən zəhmətkeş insanlardır. Və onların da haqqı tapdanır.Bazar sökülür, sökülsün, ancaq yüzlərlə inasanın haqqına gırılməsin və onlar heç bir ziyan görmədən başqa bazarlarda yerləşdirilsin!..

**EMİL FAİQOĞLU**



# Aytən Şıxalıyeva: "İnsanları sevməyən biri insan resursları sahəsində uzunmüddətli işləyə bilməz"

*İnsan istehsal prosesinin ayrılmaz hissəsi olmaqla yanaşı, həm də onun hədəfidir. İnsan resurslarının idarə edilməsinin də ən önəmli xüsusiyyəti insanı əsas tutmasıdır. Bu yanaşma, insanın iş yerinin dəyərini mənimsəməsi, təmin olunmuş bir həyat sürməsinin işin məhsuldarlığına da təsir edəcəyini göstərir.*

*İnsan sevgisi yer alan təşkilat, müəssisədə çalışanların da gördükləri iş həmişə effektiv olur, müsbət nəticə verir.*

*Elə Azərbaycan Texniki Universiteti və Türkiyə-Azərbaycan Universitetində İnsan resursları departamentini rəhbəri Aytən Şıxalıyeva ilə bu mövzuda söhbətləşmişik.*

*Müsahibəni təqdim edirik.*

## *Şəffaflıq, ədalət, peşəkarlıq, məxfilik...*

**-Öncə insan resursları sahəsindəki uzunmüddətli təcrübənizdən danışaq...**

-10 ildən artıqdır ki, insan resursları sahəsində fəaliyyət göstərirəm. Bu müddət ərzində həm İT, həm startap, həm media, həm təsərrüfat, həm tibb, həm də təhsil sahəsindən müxtəlif mühitlərdən olan kontingentlə çalışmağım insanları daha yaxşı tanımağıma, davranışlarını analiz etməyimə və bu sahədəki təcrübəmə dəyərli töhfə verib.

Hər bir təşkilatın uğurunun təməlində düzgün kadr strategiyası dayanır, buna görə də fəaliyyətim və təcrübəm əsasən kadr siyasətinin qurulması, təlim və inkişaf proqramlarının hazırlanması, performans qiymətləndirmə sistemlərinin tətbiqi və strategiya planlaşdırması üzərində formalaşıb.

Bu müddətdə həm dövlət, həm də özəl sektorla əməkdaşlıq etmişəm və hər iki sektorda əldə etdiyim bilikləri birləşdirərək bu sahədə innovativ yanaşmalar tətbiq etməyə çalışmışam. Çalışdığım qurumlarda işçilərin özlərini güvəndə hiss edəcəyi və məhsuldar işləyəcəyi mühit formalaşdıraraq, eyni zamanda işçilərin potensialını üzə çıxaracaq yarışlar, layihələr və tədbirlər təşkil etmişəm. Əməkdaşların performansını obyektiv qiymətləndirmək, onların güclü tərəflərini üzə çıxarmaq və inkişaf sahələrini müəyyənləşdirmək üçün müxtəlif metodologiyalar və qiymətləndirmə alətlərindən istifadə etmişəm. İnsan kapitalını daha da gücləndirmək, insanlara faydalı olmaq və uzunmüddətli inkişafına töhfə vermək məni xoşbəxt edir.

**- Bu sahədə hansı prinsiplər rəhbər tutulmalıdır? Şəxsən sizə hansı prinsiplər önəmlidir?**

- İnsan resursları sahəsi istənilən təşkilatın davamlı inkişafı üçün strateji bir əhəmiyyət daşıyır. Bu sahədə rəhbər tutduğum prinsiplər əsasən şəffaflıq, ədalət, peşəkarlıq, məxfilik və davamlı inkişafa əsaslanır. Mənim üçün bu prinsiplər önəmlidir.

Proseslər insanlara aydın və şəffaf şəkildə təqdim edilməli və izah olunmalıdır. Həmçinin sağlam qərar verilməsi üçün bərabərlik və ədalət prinsipi qorunmalıdır, insanlar onlar arasında hər hansısa xüsusi səbəbə görə ayrı-seçkilik edilməyəcəyini bildikləri mühitdə daha məmnun və məhsuldar çalışa bilirlər.

Düşünürəm hər bir sahədə peşəkarlıq prinsipi önəmlidir. İşinin nəzəri və praktiki cəhətlərini bilərək və sevərək etmək, qərarlarda və münasibətlərdə şəxsi yanaşma ilə deyil, iş mövqeyindən davranmaqla peşəkar yanaşma sərgiləmək vacibdir.

Şəxsi məlumatların məxfiliyini qorumaq işçilərin təşkilat daxilində özlərini tam güvəndə hiss etməsini təmin edir.

Davamlı inkişaf prinsipi isə təşkilat daxilində işçilərin bacarıqlarının daimi olaraq təkmilləşdirilməsi, yeni vəziyyətlərə adaptasiyası və innovativ yanaşmaları təşviq edir. Sürətlə yenilənən dünyada rəqabətə davamlı olmaq və uğur qazanmaq üçün inkişaf önəmli faktordur.

**-Niyə məhz insan resursları sahəsini seçdiniz? Bu maraq necə yarandı?**

-İlk dəfə bu sahədə çalışmağa başlayanda II kurs bakalavr tələbəsi idim və qiyabi təhsil alırdım, dərsə getmədiyim zamanlar vaxtımı səmərəli keçirmək istəyirdim. Bütün məlumatlar mənə yeni idi, lakin işlədikcə insanların davranışları, ehtiyacları və motivasiyalarının necə idarə olunduğunu bildikcə marağım yarandı. Daha sonra dəyərlərimi düşünəndə bu peşəni sevməyimə təsir göstərən insanları dinləmək, onlara yardım etmək, faydalı olmaq, insanların karyera yollarını formalaşdırmaq, həmçinin kompleks problemlərini çözməyə olan marağımın bu sahəni sevməyimə səbəb olduğunu anladım.

Düşünürəm ki, bütün HR-ların oxşar cəhəti insanlarla işləməyi sevməsidir. İnsanı sevməyən, insan fokuslu olmayan biri insan resursları sahəsində uzunmüddətli işləyə bilmir.

HR sahəsi indi daha çox işçilərin rifahını təmin etmək ətrafında fəaliyyət göstərir

**-Müasir HR fərqi nədir?**

-Müasir HR sadəcə şəxsi məlumatları qorumaq deyil, işçilərin əsas qayğı mənbəyi kimi çıxış edir.

HR sahəsi insan resursları anlayışının ənənəvi idarəetmə prinsiplərindən çıxaraq müasir yanaşmalarla yenidən formalaşmasıdır. İndi HR sahəsi sadəcə işçi idarəetməsi deyil, həm də təşkilatın strateji partnyoru kimi çıxış edir. Müasir HR anlayışı əsasən insan kapitalının dəyərləndirilməsi, texnologiyaların istifadəsi və mədəniyyət formalaşmasında özünü göstərir.

Ənənəvi kadrlar işləri sıfır səhv prinsipi əsasında idarə etməyə fokuslanan qaydalarla aparır və əsasən inzibati proseslərlə məşğul olurdu. Müasir HR sahəsi işçilərin iş məmnuniyyəti, şəxsi inkişaf və kollektivin düzgün idarə edilməsi kimi sahələrə fokuslanır.

Strateji yanaşma HR-ı təşkilatın üstünlüklərinə adaptasiya edən, dəyişən bazar şəraitinə uyğun çözüm yolları təklif edən bir funksiya kimi əks etdirir.

HR sahəsi indi işçilərin əmək haqqını idarə etməkdən çox, onlarla emosional əlaqə qurmaq və onların rifahını təmin etmək ətrafında fəaliyyət göstərir. Məsələn, bir təşkilat kollektivin mənəvi rifahını artırmaq üçün meditasiya proqramları təqdim edərək stress səviyyəsini əhəmiyyətli dərəcədə azaldır. Və ya təhlillər nəticəsində, iş dövriyyəsinin çox olduğu şöbələrdə yeni motivasiya proqramları tətbiq edilir.

**-Sizcə, müəssisənin insan resursları siyasətinin əsası nələr olmalıdır?**

-İnsan resursları siyasəti şirkətin üstünlükləri və dayanaqlılığını əsaslandıran vacib təməl daşıdır. Düzgün qurulan siyasət təşkilatın işçi məmnuniyyətini, performansını və üstünlüyünü daimi olaraq artırır.

Hər bir müəssisənin uzunmüddətli məqsədlərinə çatması və dayanaqlı inkişafı təmin etməsi üçün düzgün qurulmuş insan resursları siyasəti vacibdir. Bu siyasət, təşkilatın strateji hədəflərinə uyğun olaraq şəkildəndirilməli və insan kapitalının effektiv istifadəsinə yönəldilməlidir.

HR siyasəti kollektivin müsbət mədəniyyətinin formalaşmasını təşviq etməlidir. Səmimi ünsiyyət, işçi rifahı və kollektiv çeviklik əsas prioritet olmalıdır. İşçilərin bərabər imkanlardan yararlanması təmin edilməlidir.



Müasir HR siyasəti insan kapitalını idarə edərkən təşkilatın böyümə məqsədlərinə tam uyğun olmalıdır. Bu yanaşma eyni zamanda çevik idarəetmə sistemlərini qorumaqla yanaşı, işçilərin potensialının açılmasına imkan yaradır.

HR siyasəti yenilikçiliyi, işçilərin yaradıcı potensialından maksimum istifadə etməyə imkan yarada biləcək şərait yaradır. Bəzi şirkətlərdə "Yaradıcılıq Günü" və ya "İdeya Bankı" adı ilə innovasiya laboratoriyası yaradılaraq işçilərin yeni ideyaları təqdim etməsini təşviq edən layihə və komponiyalar həyata keçirilir.

Təşkilatın insan resursları siyasətində dayanaqlı liderlik prinsipinin də yeri böyükdür. Bu, işçilər arasında liderlik bacarıqlarının artmasına, eyni zamanda kollektiv idarəetmə bacarıqlarının inkişafına kömək edir.

HR siyasəti işçi rifahını qorumaqla yanaşı, stress idarəetməsi və psixoloji dəstək proqramları, mentor və kouçluq xidmətləri də təmin etməlidir. Bu yanaşma işçi məmnuniyyətini artırır və daha effektiv kollektiv şərait yarada bilir.

**-Nümayəndəsi olduğunuz müəssisədə HR siyasətini necə həyata keçirirsiniz?**

-Hazırda Azərbaycan Texniki Universiteti və Türkiyə-Azərbaycan Universitetində İnsan resursları departamentinin rəhbəri olaraq fəaliyyət göstərirəm. Bildiyiniz kimi universitetlərin əksəriyyətində insan resursları funksiyası ənənəvi kadr kargüzarlığı funksiyasını daşımaqdadır. Mənim hədəfim çalışdığım ali təhsil müəssisələrində insan resursu siyasətini formalaşdırmaqdır. Qəlibləşmiş ənənələri dəyişdirmək çox asan olmasa da dəyişimin qaçılmaz olduğuna inanıram.

Hazırda universitetdə tam ədalətli və şəffaf işə qəbul prosesləri qurulub və kadr yetişdirilməsi siyasəti əsas məqsədlərimizdən biridir. Bu baxımdan işə qəbul zamanı gənc kadların, universitet məzunlarının cəlbinə önəm verilir. Universitetdə "Könüllü layihəsi" də tətbiq edilir ki, bu da həm tələbələrin real iş mühitində təcrübə qazanması, həm də struktur bölmələrə ehtiyat kadr yetişdirmə məqsədi daşıyır. Daxili heyətin potensialını kəşf etmək yönümlü layihələr tətbiq edilir, bu yaxınlarda təşkil etdiyimiz müəllim və tələbələri komanda olaraq birlikdə çalışmağa sövq edən "İnnovativ layihə" müsabiqəsini nümunə verə bilərəm. Həmçinin həm tətqiqatçı alimlərin, həm müəllim heyətinin, həm də inzibati heyətin performansının dəyərləndirilməsi sistemi yaradılır. Hər birinin özünəməxsus meyarları formalaşdırılaraq, yarımillik mükafatlandırma tətbiq edilməsi və eyni zamanda diferensial əmək haqqı müəyyən edilməklə həvəsləndirmə proqramları tərtib olunub.

Bununla yanaşı inkişaf proqramları da təşkil edilir. Bura daxildən seçilən təlimçilər və eyni zamanda xaricdən dəvət olunan təlimçilərin iştirakı ilə təşkil edilən təlim və seminarları qeyd edə bilərəm. Eyni zamanda gələn ildən tətbiqinə başlanılacaq müəllim və rəhbər heyətin hədəf götürüldüyü "Kouçvari düşüncə" inkişaf proqramı bir neçə istiqamətdə inkişafa yönəlmiş bir layihəsidir. Layihə iştirakçıları probleme deyil, həllinə fokuslanmağı, güclü və zəif tərəflərini bilərək onlar üzərində işləyə biləcək və hədəfinə uyğun strategiya hazırlayacaqlar. Həmçinin universitetdə "Açıq qapı" günləri keçirilərək hər struktur bölmə əməkdaşları ilə görüşlər keçirilir, müxtəlif maddi və qeyri maddi motivasiya tədbirləri təşkil edilir.

## *HR mütəxəssisinin dəyərlərinin mərkəzində insan sevgisi yer almalıdır*

**-Ölkəmizdə bu sahəyə aid mütəxəssislərin yetərincə hazırlıqlı və bilikli olması üçün nələri tövsiyə edərdiniz?**

-HR sahəsinin ölkəmizdə inkişafı, insan resursları idarəetməsinin strateji bir funksiya kimi formalaşması üçün mütəxəssislərin hazırlıqlı, bilikli və innovativ olması əsas şərtlərdəndir.

Hər şeydən əvvəl bir HR mütəxəssisinin dəyərlərinin mərkəzində insan sevgisi yer almalıdır. İnsanla işləməyi, dinləməyi, kömək etməyi sevməyən biri bu sahədə dərinləşə bilmir. HR texnologiyaları, psixologiya, kouçinq, idarəetmə strategiyaları və qanunvericilik kimi sahələrdən məlumatlı olmalıdır, həmçinin liderlik, emosional zəka və empatiya kimi bacarıqlarını inkişaf etdirməlidirlər.

HR sahəsi daim yenilənən trendləri və texnologiyaları əhatə edir. Buna görə də mütəxəssislər təlimlər, seminarlar və master-klasslarda iştirak etməli, xüsusilə rəqəmsal HR, data analitikası və avtomatlaşdırılmış sistemlər mövzularında təcrübə toplamalıdırlar.

Təlim və təhsil prosesində nəzəri biliklərlə yanaşı, praktiki təcrübəyə diqqət yetirməlidirlər. Mütəxəssislər real iş mühitində layihələrdə iştirak etməyə və ya təcrübə proqramlarına cəlb olaraq bacardıqca çox təcrübə qazanmağa çalışmalıdırlar. Nəzəriyyənin praktiki tətbiqini, çətin əməkdaşlarla işləmə mühitini,problemlərə çevik həll yolu tapmağa və hazırlıqlı olmağa kömək edəcək.

**Sübhan MAHMUDOV**

---

### *Türkiyə Suriya ilə dəniz sərhədlərinin demarkasiyası haqqında saziş imzalamağı planlaşdırır*



**Türkiyə gələcəkdə Şərqi Aralıq dənizində Ankaranın maraqlarını qorumaq üçün Suriya ilə dəniz sərhədlərinin demarkasiyası haqqında saziş imzalamağı planlaşdırır.**

Adalet.az xəbər verir ki, bu barədə Türkiyənin nəqliyyat və infrastruktur naziri Abdulkadir Uraloğlu jurnalistlərə bildirib.

"Yəqin ki, gələcəkdə dəniz sərhədləri haqqında saziş imzalanacaq və Şərqi Aralıq dənizində maraqlarımız qorunacaq. Belə bir saziş həm Suriyanın həmin regiondakı səlahiyyətlərini, həm də bizim fəaliyyət sahəmizi genişləndirərdi.

Onun köməyi ilə biz beynəlxalq hüququ da nəzərə alaraq bu regionda karbohidrogen kəşfiyyatı üzrə hüquqlarımızı bölə bilərdik.

Əlbəttə, orada Livan və İsrail də fəaliyyət göstərir və biz bunu nəzərə alırıq. Lakin Suriya bizim ən yaxın qonşumuzdur və biz onunla bu regionda aydın nəzarət sisteminin olmasını istəyirik", - A.Uraloğlu söyləyib.

Nazir qeyd edib ki, sazişin hazırlanması mərhələsinə keçməzdən əvvəl Suriyada daimi hökumətin formalaşmasını gözləmək lazımdır.

Onun sözlərinə görə, dəniz sərhədlərinin demarkasiyası məsələsi ilə məşğul olmaq hələ tezdir.

İki dövlət arasında hava əlaqəsi məsələsinə toxunan A.Uraloğlu vurğulayıb ki, Ankara Suriyanın beş hava limanından ikisinin fəaliyyətinin təşkilinə kömək etməyi planlaşdırır.

"Bu, Dəməşq və Hələb hava limanlarıdır.

Biz vəziyyəti qiymətləndirmək üçün oraya ekspertlərdən ibarət qruplar göndərdik.

Orada hətta radar sistemi də yoxdur, 1990-cı illərdən qalma köhnə kompüterlər istifadə olunur.

Normal rentgen skanerləri, digər nəzarət sistemləri yoxdur. Uçuş-enmə zolaqları çox köhnədir", - nazir deyib.

**A.Uraloğlu əlavə edib ki, birinci mərhələdə Türkiyə hökuməti Dəməşq hava limanının bərpasına kömək etməyi planlaşdırır. Bunun üçün müvafiq planlar və yol xəritələri hazırlanır.**



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# Məni duyğulandıran Zəka

Mənim üçün ruh adamları təkcə doğmam, dostum, əzizim deyil, bu, həm də güvəndiyim insandır. Yəqin ki, bunun nə demək olduğunun fərqindəsiniz.

Ona görə də ruh doğmamı güvəndiyim insan sayıram ki, onunla həyatımı, düşüncələrimi, arzularımı, hətta bəzən sevgini də bölüşüb, müzakirə edib hansısa bir nəticəyə gələ bilirsən.

İndi barəsində daha bir yazını qələmə aldığım bu insanı Azərbaycanda, elə onun hüdudlarından kənarda da tanıyırlar, sevirlər, dəyərləndirirlər. Çünki o, həm mənəviyyat adamıdı, həm əxlaq adamıdı, həm mədəniyyət adamıdı, həm ruh adamıdı, həm də ən vacibi o, adam kimi ADAMDI !!! Bu, cizgiləri özündə təmsil edən və həm də qarşısındakına böyük ürək və sayqı ilə yönəldən həmin o adam kimi ADAMIN adı və soyadı Zəka Vilayətoğludur!

Yəqin ki, bu ad və soyad artıq hər şeyi sizə çatdırdı və siz də mənimlə razılaşdınız. Çünki onun səsi, onun ifası və onun yaradıcılığı özü o qədər daxili gücə, incə ruha və saf bir duyğuya söykənib ki, ondan yan keçmək mümkün deyil, çəkir adamı özünə və günlərin bir günündə də məni çəkdi, məni öz səsinin, öz yaradıcılığının sehrində sadəcə susub dinləməyə, düşünməyə məcbur etdi. O gündən mən Zəka Vilayətoğlu dünyasının aurasındayam. Deməli olar ki, hər gün onunla təmas qurur, sosial şəbəkədə paylaşdığı ifalarını, yaradıcılıq nümunələrini, günə olan sözünü diqqətimdən yayındırmıram. Çünki onun dediyi "Günün sözü" də mütləq nəyəsə işarədi, nəyisə silkələmək üçündü. Belə olan halda mən necə kənara çəkilə bilərəm. Bu, mümkünsüz bir haldır.




Səsini, ifasını dinlədiyim Zəkanın yaradıcılığı da mənə yaxşı məlumdur. Tez-tez mənə bağışladığı kitabları vərəqləyirəm. Bu gün səhər-səhər də kitab rəfimlə dil tapmağa çalışanda diqqətim çəkdi Zəkanın mənə verdiyi sonuncu kitabı. Bu kitab "50 ilin ZƏKASI" adlanır. Mən bu kitab barəsində isti-isti fikirlərimi bölüşmüşdüm. Amma görünür hələ çox üz tutacam bu kitaba. Necə ki, bu səhər yenə vərəqlədim. Kitabı açan kimi diqqətimi çəkən şeirin mənə yükünə vardım. Elə bil duyğularımı cilaladı, elə bil könüldəki rahatsızlığıma bir həzin dua oxudu və mən də sehirləndim, barışdım onunla - yəni razılaşdım onun dediyi fikirlərlə. Zəka yazmışdı ki:

*Sənə aparan yolun,*
*Bir yolçusu olmaqdan,*
*Sən tək gözəl ceyranın,*
*Bir ovçusu olmaqdan*
*Daha gözəl nə var ki?*

*Aşiqin yanar canı,*
*Ahı tutar dünyanı,*
*Yar bağının bağbanı,*
*Bir bağçısı olmaqdan,*
*Daha gözəl nə var ki?*

*Gedib ömrün yarısı,*
*Sovrulmaqda darısı,*
*Yar evinin xalısı,*
*Bir xalçası olmaqdan,*
*Daha gözəl nə var ki?*

*Zəka heyran o gülə,*
*Dönüb şuri-bülbülə,*
*Yar gözündə bir gilə,*
*Bir damcı su olmaqdan,*
*Daha gözəl nə var ki?*

Yəqin siz də razılaşarsız ki, sevgi yeganə hisdir ki, yeganə duyğudur ki, ondan gözəl heç nə yoxdur.

Hətta verdiyi əzab da, yaşatdığı həsrət də, ağrıtdığı ürək də, yuxusuz qoyduğu gözlər də onun gözəlliyi ilə razılaşır, barışır. Elə o gözəlliyin sehrində həm də cilalanır sevgi. Ona görə də elə Zəkanın özü də öz dediyini təkrar təsdiqləyir, heyranlığını gizlətmir.

Hətta fikirlərini davam etdirib təkrar-təkrar bizə xatırladır ki, təbiətin də bütün gözəlliyini sevmək və bu sevginin işığında isə yuxunu qaçırdan, həyatını daha da gözəlləşdirən, mənalı edən sevginin pərvanəsi olmalısan.

Məhz onda həmin sadaladığımız təbiətə, cəmiyyətə aid yaxşı nə varsa hamısı sənin sevgini daha da ucaldacaq, daha da möhtəşəm edəcəkdi.

Zəkanın bu kitabında yaşadığı 50 ilin müəyyən məqamları, yəni həm nəsr, həm poeziya nümunələri, həm də özü ilə bağlı yazılmış bəzi məqalələr yer alıbdır. Mən bunu ona görə diqqətə çatdırıram ki, oxucu kitabın adının niyə "50 ilin ZƏKASI" olduğunu fəhm edə bilsin. Zənnimcə həmin 50 ilin sözdə görüntülənən çalarları özü-özlüyündə bir mənəviyyat, bir sənət və söz adamının hansı zirvədə olduğunu, hansı ucalığı təqdim edə bildiyini özü açıb deyir. Yəni burda sözə nə yer, nə də ehtiyac qalmır. Fikirlərimi Zəkanın "Duyğular" şeiri ilə yekunlaşdırmaq istəyirəm. Çünki həmin şeirdə mənim indi kağıza köçürtdüyüm fikirlərim müəyyən mənada özünü təsdiqləyir. Zəka yazır ki:

*Gecə yuxusundan oyanıb səhər,*
*yuyur üz-gözünü yağış suyuyla.*
*Baxıb pəncərədən seyr edirəm mən*
*yeni bir uğurlu gün arzusuyla!*

*Həyat çox maraqlı filmdir, film,*
*cavanlıq, qocalıq - ikicə bölüm.*
*Onsuz da son ucda gözləyir ölüm,*
*üzülmək nə lazım, xof, qorxusuyla?*

*Tanrı çox verəndə azı düşündüm,*
*oldum hər qismətdən razı, düşündüm.*
*Qışda üşüyəndə yazı düşündüm,*
*döyündü ürəyim, xoş duyğusuyla!*

Bax, barəsində danışdığım, daha doğrusu, içimdə olanların bir qismini bölüşdüyüm Zəka Vilayətoğlu Tanrının verdiyi ilə qane olmağı bacardığı kimi - böyük ümidlər, böyük arzularla yaşamağı da, öz istəklərinə qovuşacağına inamı da özü üçün birmənalı şəkildə qəbul edir. Yəni o, bir ruh adamı olaraq bugünlə, sabahla çiyin-çiyinə addımladığı kimi dünəndən də üz çevirmir, ondan da qopub ayrılmır.

Ondan götürdüyü, ondan qazandığı və ondan aldığı yaxşı, dəyərli, gərəkli və bir də həm də xatırladan nə varsa, hamısını bugünə də, sabaha da daşımağı bacarır. Ona görə də 50 ilin hər anı yaşanan, yaşadan və yaşadacaq ömür yolunun sözdə ifadəsidir, sözdə təsdiqini tapıb öz gücünü sabaha yönəldəndi. O yönəltmə həm də sabaha gedən yola düşən işıqdı. Hər zaman işıqlı yolda, Qardaşım!

# BİR ÖMÜRDƏN FRAQMENT...

Onun barəsində danışmaq, yazmaq həm asanddır, həm də çətin. Bu fikri ona görə birbaşa bilgisayara diktə edirəm ki, yazını oxuyan hər kəs mövzuya öz baxış bucağı altından baxanda mənim məramımı dürüst anlasın.

Bilsin ki, 86 yaşlı yazıçı, publisist, ictimai xadim, həm də Dövlət Təhlükəsizlik Xidmətinin yüksək rütbəli zabiti, eləcə də əməkdar incəsənət xadimi, alim, ziyalı olan bir şəxs barəsində fikir söyləmək nə qədər çətin və həm də asandır. Bu mövzunun çətinliyi ondadır ki, saydığım və saymadığım titullar özü-özlüyündə böyük məsuliyyət yaradır. Mövzuya adamı ehtiyatla, təmkinlə yanaşmağa vadar edir.



Çünki sözün bu üzündən baxıb o biri üzün də görən bir yüksək rütbəli DTX zabitinin haqqında yazılacaq hər bir sözə peşəkarcasına, həm də ürəklə nəfəs verməlisən ki, o, qəbul olunsun, dinlənilsin.

Bax, bu mənada çətin və məsuliyyətli yazıya könül verirəm. O ki qaldı, yazının asan tərəfinə...

Bəli, mən onu çoxdan tanıyıram. Öncə yazıçı-publisist kimi tanımışam, imzası ilə, kitabları ilə təmasım olub. Sonra "Azərbaycan" Nəşriyyatında eyni mərtəbənin sakinləri kimi qarşılaşmışıq. Məhz bu qarşılaşmada bir bölgənin, bir yurd nisgilinin acısını yaşayan həmyerlilər kimi görüşmüşük. O Cəbrayıl nisgilini, mən isə Hadrut-Tuğ acısını sinəmdə közərtmişəm. Və beləcə üzbəüz söhbətlər, masa ətrafındakı fikir bölüşmələri və bir də ki, yenə qələm,söz, kitab. Bizi o qədər bir-birimizə yaxınlaşdırıb ki, hətta dərdlərimizi də bir-birimizlə paylaşmışıq və

Onun barəsində əvvələr də yazı yazmışam. Keçdiyi həyat yoluna - Cəbrayılın Kavdar kəndindən başlayan ömürlüyünə də bələdəm.

Söhbətlərimizdə, sonra da kitablarında nələrdən keçdiyini, nələrlə qarşılaşdıqları barədə eşitdiyim və oxuduqlarım həmişə məndə belə bir təəssürat yaradıb ki, həqiqətən əqidəm, inadkarlıq, dözüm, səbir və bir də zəhmət insanı dardan çıxardır. İnsanı mənzil başına apara bilir.

Uç gün öncə onun doğum günü ilə bağlı arzularımı yazıya çevirmək istəyim əlimdən tutub onunla bağlı bilgilərimin qapısına gətirdi...

Xatırladım ki, çox da uzaq olmayan tarixdə onunla bağlı , yəni 85 yaşı ilə əlaqədar maraqlı bir kitab oxumuşam. İndiki anda ürəyimdən keçənlərin, yəni yazmaq istədiklərimin çoxu bu kitab da öz əksini tapıb. Kitab Yasif Mirzə oğlu Nəsirlinin həyat və fəaliyyətinə həsr olunub.. Kitabın redaktoru, əməkdar elm xadimi, professor Qəzənfər Kazımov, müəllifi isə yazıçı-publisist Mirzə Talıb oğludur.

"Mən insanlar tanıyıram ki " adlanan kitab da göstərilir ki, zaman gələcək ki, Cəbrayıl rayonunun Kavdar kəndində 1938-ci il dekabr ayının 23-də doğulan Yasif öz nəslinin, öz el-obasının, Azərbaycanının dizi bərk, sözü qəti, nüfuzlu ziyalısı olacaqdır.Elə buradaca xüsusi vurğulamalıyam ki, bu kitabı da sözün həqiqi mənasında, məni heyrətləndirən, hətta özümün lap ilk tanışlığımızdan bildiyim bir çox məqamlarla çox təəccüblə baxıram.

Ona görə ki, Yasif Nəsirlinin doğulduğu kənddən universitetə daxil olmağa gəldiyi günə qədər yaşadıqları, çəkdiyi əzabəziyyət bütün ölkənin yaşadıqları olsa da, amma hamı Yasif Nəsirli ola bilməyib. Deməli, dözüm, iradə, əqidə onu istəyinə qovuşdurubdu.

Bu dünyanın çərxinin necə fırlandığını qismən bilən bir Allah bəndəsi kimi,mütləq vurğulamaq istədiyim bir məqam var:- MƏSULİYYƏT!!!

Mən ,Yasif müəllimin keçdiyi həyat yolunu izlədikcə şahidi olduğum ən böyük və vacib xüsusiyyət kimi onun Məsuliyyət hissinin gücünə baş əydim!

Birmənalı olaraq başa düşdüm ki, bu İNSAN şəxsi həyatında olduöu kimi, çalışdığı sahələrdə də ona olan güvəni, etibarı həmişə birinci cərgədə tutub!!!

Bu Məsuliyyət hissi də onun başını hər zaman uca edib.Və heç kimin qarşısında əyilməyib!

Mən də onun bu özəlliyi barəsində düşünərkən ürəyimdən ona doğum günü hədiyyəsi olan kitabda yer almış və Yasif Nəsirliyə məxsus bir fikri öz-özümə pıçıldayıram:

- Adamlar var ki, etdikləri yaxşılıqları, xidmətləri heç vaxt dilə gətirmirlər. Hər şeyi Allahın ixtiyarına verirlər. Bax, Yasif Nəsirli də göstərdiyi xidmətləri, hətta ən yüksək təmaslarda olan münasibətlərində heç vaxt, heç kimə söyləməyibdir. Amma zaman və şahidlər bu xidmətləri bu gün təkcə bu kitabda yox, elə bir-biriləri ilə olan söhbətlərdə də təzələyir.

Əbülfət Mədətoğlu

# İçimdəki "Barat Vüsal havası"

**Bu məmləkətdə bir şair yaşayır. Özü də məmləkətin əyalətində. Amma sözü də, səsi də məmləkətin hər yerində eşidilir, dinlənilir. Hətta türk dünyasına da gedib çatıb. Bu da o deməkdir ki, bu məmləkətdə yaşayan türkün, turanın şairidi. Özü də adının, təxəllüsünün bütün çalarları sözüylə, şeiri ilə həmahənglik yaradır. Çünki ona ad qoyanda Tanrı payı olduğunu biliblər. O da özünə şair təxəllüsü götürəndə sözü ilə hamını sevindirəcəyini, hamının yanında olacağını bilib və bunu vüsal adlandırıb. Bax, beləcə Qazaxda doğulan şair çox qısa zamandan sonra Azərbaycanın ən kövrək, ən haqq sevər və mənim ölçülərimə görə bugünün ən sufi şairlərindən biri olan Barat Vüsaldı.**

Bizi bir-birimizə ruhlarımız bağlayır. Bizi bir-birimizə tərəf fikirlərimiz, düşüncələrimiz, ürəklərimiz çəkir. Bizi bir-birimizlə sözümüz, misralarımız doğmalaşdırır. Ona görə hər görüşümüz, hər telefon bağlantımız şəxsən mənim üçün bir ruh istirahəti olur, yorulmuş könlümün nəfəs dərib dincəlmək anı kimi gəlir mənə

Bütün bu lirik girişdən sonra birmənalı şəkildə qeyd etmək istəyirəm ki, mən Barat Vüsalın poeziyasının vurğunuyam. Ona görə də ekrandan, efirdən, mətbuatdan səsini, imzasını eşidəndə, görəndə, necə deyərlər əlimdə yağım da daşsa, öncə diqqətimi ona yönəldirəm. Son telefon danışığımız bir ay bundan öncə olubdur. Elə telefonda mənə yeni bir şeirini də oxudu və o , ümumən məni elə kökləyibki, kitabxanama hər daxil olanda mütləq əlimi uzadıb onun avtoqrafla bağışladığı kitablarını götürüb ən azı 2-3 şeirini oxuyuram.

Bu gün səhər isə hiss etdim ki, əməllibaşlı havalanmışam. İçimdəki "Barat Vüsal havası"nı ifa etməsəm dincəlməyəcəm. Ona görə də onun "Ömür bitər, yol bitməz " kitabını özümlə götürüb dayandım bilgisayarın sağında.

Və başladım Baratla söhbət etməyə. Söhbətimi lap Adəmdən başladım. Yəni adamlıqdan, adam olmaqdan və bir də adamlığın bugünündən. Məni həmin o uzaqlara istiqamətləndirən Barat Vüsal yazıb ki, hər şey adamlıqdan başlayır. Özü də bunu şeirlə, birbaşa, hər birimizin gözlərinin içinə baxabaxa deyir Barat Vüsal. Onun dediyini siz də eşidin və yaxud oxuyun:

*Bu adamların bəlası*
*Adəm olmaqdan başlayır.*
*Bu adamların xilası,*
*Adam olmaqdan başlayır.*

*Qurulandan haqq divanı,*
*Süleymanın taxtı hanı?*
*Hər dəfə bu Nuh tufanı,*
*Gödən olmaqdan başlayır.*

*İkidi dünyanın üzü,*
*Biri qurdu, biri quzu.*
*Dünyada kişilik sözü,*
*Vətən olmaqdan başlayır!*

Mənə elə gəlir ki, bu üç bəndlik şeirdə adamlığın dünəni və bu günü, hətta sabahı da şair qələmi ilə söz-söz kağıza köçürülüb qoyulub qarşımıza. Biz də adamlığın Adəm olmaqdan başladığını düşünə-düşünə içimizdə bir inacın - yəni Nuh peyğəmbərin ruhunu hiss edirik və onun yer üzünün fəlakət tufanından canlıları necə xilas etdiyini xatırlayırıq. Öz gəmisi ilə o missiyanı necə yerinə yetirdiyini yaddaşımızda təzələyirik. Və anlayırıq ki, kim dünyaya gödənindən baxırsa, orda adamlıq itir, qurtarır. Hətta KİŞİ sözü də mənasını itirəndə , adi tör-töküntüyə çevriləndə Vətən də arxa plana keçir. Deməli, KİŞİ sözü elə öz çəkisində qalmalıdı ki, Vətən də Vətən ola bilsin.

Mən bu şeirin aurasında bir məqamı da özüm üçün qırmızı qələmlə qeyd etdim - yəni tamamilə əmin oldum ki, adam qrub yaratmalı, sevib-sevilməli, yaşadıb yaşamalıdır. Birbaşa desəm isə, adam təkcə Adəm yox, həm də Adam olmaldıdı.

Bu, bir az pafoslu, amma özümə aid olan duyğuların içərisində , mən təbii ki, bütün duyğuların "sim-simi" olan sevginin yerini unuda bilmərəm. Çünki elə adamlıq da həm də sevgidən başlayır. Elə ona görə də Barat Vüsal sanki mənim içimdəki həmin o duyğuların nə qədər dəqiq olduğunu fəhmlə duyaraq kitabına bu şeiri əlavə edib və yazıb ki:

***Gəlib ürəyinə varmaq fikrim var,***
***Qoynunda yurd-yuva qurmaq fikrim var.***
***Səndən taleyimi sormaq fikrim var,***
***Ağlın özgəsinə getməsin sənin.***

***Səni yarıyolda saxlayasımı,***
***Qəlbim yarıyolda ağlayasımı?!***
***Mən yolu getmirəm yarıya kimi,***
***Ağlın özgəsinə getməsin sənin.***

***Mən yüz yol danışıb, yüz yol düşünüb,***
***Aşıra bilərəm hər bir işini.***
***Məndə lələyi var Zümrüd quşunun,***
***Ağlın özgəsinə getməsin sənin.***

***Özümü özümsüz qınayıram mən,***
***Sən mənim özümsən, anlayıram mən.***
***Özümü görəndə tanıyıram mən,***
***Ağlın özgəsinə getməsin sənin.***

Çox maraqlıdır ki, bu şeirin canında, qanında bir səmimi etirafla yanaşı bir inadkarlıq və qətiyyət də var.

Üstəlik, o inadın arxasında duran haqlı bir istiqamətləndirmək, göstərmək gücü də amirlik edir. Şeiri oxuyanda Barat Vüsal bir müəllif olaraq oxucuya deyir ki, sən ağlına başqa bir şeylər gətirmə. Mənim niyyətim, məramım sevgidi, sevməkdi, sevilməkdi. Mən təsadüfi adam deyiləm. Mən fürsətçil, şəraitdən yararlanmaq məqsədinə xidmət edən "aşiq" deyiləm. Mən bu sevgini içində yaşadan və o sevgi ilə yaşayan adamam. Ona görə də sənin ürəyində də o cür olmaq məramlıyam. Necə ki, sən mənim ürəyimdəsən.

Bəli, Barat Vüsalın şair istedadının, şair fəhminin və şair hikkəsinin bir çaları da Öz fikrindəki əminliyi, niyyətindəki dürüstlüyü



sevdiyinə və oxucusuna israrla inandırmaq. Bax, burda bircə məqam qalır. O da ağlına başqa heç nə gətirməmək. Özgə cür düşünməmək

Bəli, elə bu yolun davamı olaraq Barat Vüsal sevdiyinə bir gerçəyi də pıçıldayır - yəni bir açıqlama da verir. Onun açıqlamasının mayasında yenə dürüstlük dayanır, yenə reallığın özünü görürük. Yəni o, öz sevgisini etiraf etməklə yanaşı, həm də sevdiyinə problem olmayacağını, ona problem yaratmadığını, əl-ayağına dolaşmayacağını, sadəcə sevəcəyini deyir.

Və vurğulayır ki, sevgi, vüsal, həsrət ürək işi olduğu kimi, ayrılmaq da ürək işidi. Yəni getmək istəyəni saxlamaq olmaz. Təbii ki, əgər bu istək ürəkdən qaynaqlanır, ürəyin ehtiyacıdı. Yəni biri var hansısa bir maddiyyatdan, hansısa işin düz gəlməməyindən inciyib ayrılasan, biri də var ki, ürək artıq o sevgini qəbul etmir, onu özününkü saymır. Onu yad bir cism kimi daşımaq zorundadı. Bax, belə olanda ürəyin ayrılmaq istəyi haqlı arzudu. Mənim bu yozumumu Baratın "Ayrılıq özü də ürək istəyir" şeirində siz də görə bilərsiz. Həmin şeirin son iki bəndində Barat Vüsal ayrılmaq istəyən ürəyin son akkordlarını sanki səsləndirir:

***Səni yoldan edib getmə, demirəm,***
***Ayrılıq özü də ürək istəyir.***
***Gedirsən, mən sənə heç nə demirəm,***
***Amma şeirim nəsə demək istəyir.***

***Qoymaram ürəyim itirsin səni,***
***Bu eşqin yazıyla, qışıyla varam.***
***Bir dayan, qoy şeirim ötürsün səni,***
***Qayıdanda özüm qarşılayaram!***

Doğrudan da, ürəyin istəyi ilə barışmamaq qeyri-mümkündü. Üstəlik ürəyin nazı ilə oynamaq da hər adamın bacardığı iş deyil. Ona görə də gerçək sevgilər ürəyi həm dəyanətli, dözümlü, həm də ağrılı, qayğılı edir. Çünki gerçək sevginin istənilən təması vüsal sayılır, istənilən sızıltısı ürəyi yaralayır, ona əzab yaşadır. Bunu təkcə bədii söz kimi, bədii fikir kimi qəbul etməyin. Bu, hər birimizin, sevən və sevilən hər bir Allah bəndəsinin həyat düsturudu.

Onun qurulan, bölünən, çıxılan, toplanan tərəflərini hərə öz ürəyinə, öz sevgisinə görə müəyyənləşdirir. Bu mənada Barat Vüsalın bir işarəsini də, bir sözə çevrilmiş baxış anını da diqqətinizə təqdim edirəm. Çünki o an məni də qayğılandırıb, mənim də yaxamdan tutub silkələyib. Söhbət yenə sevgidən gedir, sevəndən gedir. Mənimlə razılaşmaq üçün sizi həmin şeiri oxumağa dəvət edirəm:

***Gülün tikanını öpürdü bülbül,***
***Gülə yalvarırdı, yazığım gəldi.***
***Sanki oxumurdu, öz ağzındakı,***
***Dilə yalvarırdı, yazığım gəldi.***

***Leyli söyləməkdən dilimi doyub?***
***Məcnunun çəkdiyi zülümə hayıf!***
***Gül kimi sevdiyi Leylini qoyub,***
***Çölə yalvarırdı, yazığım gəldi!***

***Sevgi kitabının var-varağına,***
***Baxıb töküşdürüm var-varağı, nə?!***
***O gün Barat düşüb yar ayağına,***
***Elə yalvarırdı... yazığım gəldi!***

Bu, bir gerçəklikdir ki, şeir ruhun, ürəyin, duyğuların, yaşamın, düşüncənin anidən sözə çevrilən formasıdı.

Yəni gerçək şeir mənim o vurğuladığım ürəyin, ruhun, duyğuların, yaşananların içindən doğur. Özü də Tanrının xeyir-duası ilə. Və bu gerçək şeir də yalnız o vaxtı könül oxşayır, ürəyə yatır ki, o anlaşılır, o qəbul olunur.

Məhz şeirlərinin mayasında anlaşma, qəbulolunma reallıq təşkil edən Barat Vüsal da sonuncu təqdim etdiyim şeirində də gülə, bülbülə üz tutmaqla əslində o ipucundan yararlanaraq yenə duyğularımızın sarı siminə toxunur. Yenə bizə sözün alt qatına enmək, ordakı gerçəkliyi görmək çağırışı edir. Və

**Bəli, bu beş-üç kəlməlik söhbətimlə mən "Barat Vüsal havası"nı içimdə yerbəyer etdim və məhz ondan sonra hiss etdim ki, şairin, şeirin yeri onu anlayanların ürəyində, ruhundadır. Yerinə mübarək deyib alqışlayıram SƏNİ - dostum, qardaşım Barat Vüsal!**

**Əbülfət Mədətoğlu**

# "Ömrün səhifələri"

**Goranboy şəhər Mədəniyyət Evində, Azərbaycan Yazıçılar Birliyinin üzvü, şair, publisist İmam Cəmillinin 70 illik yubileyinə və ədəbi-bədii yaradıcılığına həsr olunmuş "Ömrün səhifələri" adlı tədbir keçirildi.**

Tədbirdə, RİH-i başçısının müavini Mirvari Ağamalıyeva, Azərbaycan yazıçılar birliyinin üzvü, Prezident təqaüdçüsü, jurnalist, Şair, publisist İqbal İsmayılov, Şair, publisist, Azərbaycan Yazıçılar Birliyinin üzvü Fazil Sənan, Azərbaycan yazıçılar Birliyinin üzvü, şairələr Səlmi Baxış, Şəfəq Vilayətqızı və digər qonaqlar, bir qrup rayon ziyalıları, mədəniyyət işçiləri və ictimai





fəallar iştirak etdilər. Tədbirdə çıxış edən Rayon İcra Hakimiyyəti başçısının müavini Mirvari Ağamalıyeva və digər ziyalılar, İmam Cəmillinin ədəbi, bədii yaradıcılığı barədə geniş söhbətlər açdılar.

Şairin "Biçilməmiş zəmin oldum", "Haraylayır İstisuyum", "Həsrətinə boylanıram", "Kəlbəcər həsrəti", "Ana fəryadını eşitmir dünya", "Təbriz həsrəti", "Daş altında məktub", "Məndən sənə oğul olar ay Vətən", "Yaddaşımın ağrıları" və s. şeir, nəsr və publisistik əsərlərindən ibarət olan kitablarında Azərbaycan Ədəbiyyatında özünəməxsus yaradıcılığı və bu sahədə təqdirəlayiq nailiyyətləri xüsusi ilə vurğulandı.

**Tədbirdə, rayon Mədəniyyət Evinin incəsənət ustalarının ifasında musiqi proqramı nümayiş etdirildi.**

# Xatirə körpüsü

## Aydın Çobanoğlunu düşünərkən...

**Onu təkcə ədəbiyyatşünaslar, dostlar, tələbələr deyil, həm də sözə, saza dəyər verənlər də tanıyır. Çünki o, zatən söz üçün, saz üçün doğulmuşdu. Adama elə gəlirdi ki, saz onun sinəsində ikinci bir ürəkdi, ikinci bir nəfəsdi. Çünki elə şövqlə sazı sinəsinə sıxıb meydanı ayağa qaldırırdı ki, bu mənzərədən, bu məclisdən doymaq olmurdu.**

Mən onu hələ tələbəlik illərinin ilk günlərindən tanımağa başlamışdım. Özü də adi bir təsadüfdən, belə ki, oturub bibim oğlu ilə (Qarabağda mamam oğlu deyilir - Ə.M) söhbət edirdik. "Söz arası dedi ki, Aydıngilə gedəcəm. Darıxmışam ondan ötəri. Gedim, sazı kökləsin, bir az əhvalım düzəlsin". Doğrusu, təəccüblə baxdım üzünə. Elə bil nəsə soruşacağımı hiss etdi və gülümsəyərək dedi:

- Aydını tanımırsan? Aydın Çobanoğlunu deyirəm. Yaxın qohumumdu. Əmim qızının həyat yoldaşıdı.

Bax, mən onda adını eşitdiyim, ifasından xəbərdar olduğum Aydın Çobanoğlunun bizimlə qohum olduğunu da öyrəndim və durub qoşuldum bibioğluna. Birlikdə getdik Aydın Çobanoğlunun evinə

O zamandan bugünə qədər harda bir saz səsi eşitsəm, harda bir şövqlü aşıq ifası diqqətimi çəksə, dərhal düşür yadıma. Sözü ilə, söhbəti ilə xatırlayıram onu. Hətta oxuculara xatırladım ki, o, 80-ci illərdə Azərbaycan televiziyasında özünün maraqlı çıxışları ilə də diqqəti çəkirdi. Həmin çıxışlarda onu qızları sazla müşayiət edirdi. Məktəbyaşlı bu qızlar ataları ilə birlikdə saz havalarını ifa edirdilər. Sanki bir qrup yaratmışdılar - ailə qrupu

Ötən bazar günü televiziya kanallarının birində Aşıq Ədalətlə bir fraqment diqqətimi çəkdi. O fraqmentdə Bəhmən Vətənoğlu Aşıq Ədalətlə üzbəüz oturub üzü Kəlbəcərə kövrək saz havası üstündə şeir söyləyirdi. Həmin an Aydın Çobanoğlu da düşdü yadıma. Veriliş bitən kimi gəlib dayandım kitab rəfimin önündə. Götürdüm onun məndə olan və 2010-cu ildə işıq üzü görmüş "Ömrün etməyəcək vəfa dedilər" adlı kitabını. Kitab "Elm və Təhsil" Nəşriyyatında görkəmli alimimiz, böyük ziyalımız, yorulmaz tədqiqatçımız, bütövlükdə ədəbiyyatımızın, sözümüzün, türkçülüyümüzün fədaisi olan filologiya elmləri doktoru, professor Qəzənfər Paşayevin təsisçiliyi və ön sözü ilə işıq üzü görüb. Kitabdakı materialları Aydın Çobanoğlunun övladları - Aytən və Səyyad toplayıb. Ön sözündə hörmətli Qəzənfər müəllim vurğulayır ki, "Aşıq Aydın Çobanoğlunun yaradıcılığını tam əhatə edən bu maraqlı kitabın əlyazmasını vərəqlədikcə gənclik illərindən dostluq etdiyim Aydını sanki yenidən kəşf etdim. Digər tərəfdən də dostum haqqında çoxdan bəri söz demək arzum gerçəkləşdi". Zənnimcə ön sözün ilk cümləsi olan bu fikir artıq kitabın mahiyyətini və həm də Aydın Çobanoğlunun kimliyini oxucuya birbaşa təqdim edir. Mən də 446 səhifəlik və bir neçə fəsildən ibarət kitabı vərəqlədikcə çox hörmətli Qəzənfər müəllimin vurğuladığı hissləri yaşadım. Hələ 1980-ci ildən bu kitabı oxuduğum ana qədər bir yol gəldim. Bu zaman kəsiyində Aydın Çobanoğlunu necə görmüşdümsə, necə görürdümsə, indi də elə gördüm. Yaddaşımda səsi də tər qalmışdı, misraları da, ifa etdiyi havalar da. Bu, artıq təkrar vurğuladığım Aydın Çobanoğlu istedadının birmənalı barı və bəhəri idi. Özü də bitməyən, tükənməyən, solmayan barı, bəhəri. Aydın Çobanoğlu kitabdakı qəraylısının birində yazır:




*Gördükcə solğun çöhrəni,*
*Hər an xəyal üzür məni.*
*Nədir vadar edən səni,*
*Ömrü verirsən yelə sən?!*
*Könül, nə üçün beləsən?!*

*Nə tapmısan ağlamaqdan,*
*Qəm çələngi bağlamaqdan,*
*Nadan dərdi saxlamaqdan*
*Yanıb dönmüsən külə sən,*
*Könül, nə üçün beləsən?!*

*Bilirsənmi, gözəl mələk,*
*Çox yaraşır sənə gülmək?!*
*Bəsdir, yetər dərd-qəm çəkmək!*
*İntizardasan hələ sən?!*
*Könül, nə üçün beləsən?!*

Aydın Çobanoğlunun əslində öz könlünə, ürəyinə yox, ona biganə olan, onu görməyən, onu dəyərləndirməyən, onu duymayan hər kəsə verdiyi sualdı bu və həm də haqlıdı. Nədən biz beləyik, nədən bir-birimizin qarşısına kötük yumalayır, bir-birimizə badalaq gəlir, bir-birimizə laqeydlik göstərir, bir-birimizin haqqına giririk. Axı bu ömür "Ol"la "ölüm" arasındakı məsafədi. Nədən bu məsafəni bir-birimizə dəstəklə, verdiyimiz dəyərlə, uzatdığımız əllə, yaratdığımız şəraitlə yaşayıb yaşatmayaq. Nədən ancaq qan qaralıq, ancaq əsəb, ancaq giley-güzar sərgiləməliyik. Onun içərisində olmalıyıq. Bir millət, bir soy olaraq, onsuz da kifayət qədər gözü götürməyənlərimiz, haqqımızı yeyənlər var. Onlarla qarşılaşmaq, onları yerində oturtmaq əvəzinə özümüzözümüzlə dartışırıq. Və beləcə də ömrü yelə veririk. Günləri xəzəl kimi səpələyirik..

Bəli ilk baxışdan Aydın Çobanoğlunun şeir dili ilə bizə ünvanladığı bu sualların hər birini ayrı-ayrılıqda da cavabı var, bütöv halda da. O cavab da xalq olaraq, millət olaraq özümüzü dəyərləndirmək, özümüzə qayıdıb özümüz olmaqdan ibarətdir. Bax, onda bir kimsə haqqımıza girə bilməyəcək.

Bir kimsə bizi aşağılamağa cəsarət etməyəcəkdi. Çünki birliyimiz, bir olmağımız onları öz yerində otuzduracaqdır.

Mən bu fikirləri Aydın Çobanoğlunun 20 Yanvar şəhidlərinin adına ünvanladığı "Şəhidlər Xiyabanı" şeirində də oxudum və təkrar dərk elədim ki, Aydın Çobanoğlu xalqını, torpağını və onun şəhidlərini də elə bu dünya boyda istəyib, bu dünya boyda sevibdi. Həmin şeirin son iki bəndinə diqqət yetirək:

*Mən dağam, dözürəm belə sitəmə,*
*Baxıb ah-naləmə, gözümdə nəmə,*
*Yağı sevinməsin bugünkü qəmə,*
*Yəqin borclu qalmaz sabahım mənim.*

*Çobanoğlu, dolan bu xiyabanı,*
*İndi düşmənini, dostunu tanı!*
*Batmaz şəhidlərin günahsız qanı,*
*Başımın üstədir Allahım mənim.*

Bəli, biz Aydın Çobanoğlunun bu şeirində onun faciəmizə ürək ağrısını da duyuruq, bu ağrının qisasının yerdə qalmayacağını da görürük.

Təbii ki, biz onun şair-aşığın fəhminin, uzaqgörənliyinin də şahidi oluruq.

Çünki biz 44 günlük müharibədə şəhidlərimizin qanını aldıq, bayrağımızı sərhədlərimizdə dalğalandırdıq. Bu şeirdə deyildiyi kimi, başımızın üstündəki və ürəyimizdəki Allahımız bizə yar oldu. Dostumuzu, düşmənimizi tanıyaraq Ali Baş Komandanın ətrafında birləşib böyük Zəfərimizi təmin etdik.

**Bu gün xatirələrinə baş vurduğum Aydın Çobanoğlunun masamın üzərində olan kitabında bir-birindən maraqlı xatirələri, görüş təəssüratları da yer alıb. Həmin xatirə və təəssüratların hər biri də ayrı-ayrılıqda bizimlə Aydın Çobanoğlu arasında bir görüş, bir təmas körpüsüdü. Deməli, biz, yəni Aydın Çobanoğlu sevənlər, onu xatırlayanlar, onunla təması xatirə körpümüzdə qururuq. Həmişə var olacaq xatirə körpüsü ilə!..**

**Əbülfət Mədətoğlu**

# Səttar Bəhlulzadənin özünəməxsus üslubu və realizmə kökə bağlılığı



***Nəvai Metin***

**Azərbaycan təsviri sənətində realizmin ən unikal nümayəndələrindən biri olan Səttar Bəhlulzadə, təkcə rənglər və kətanla deyil, həm də ruhu ilə yaratdığı əsərləri ilə sənət tariximizdə özünəməxsus bir yer tutmuşdur. Onun sənəti realizmin sərhədlərini aşaraq milli ruhun ifadəsi ilə zənginləşmişdir. Bəhlulzadə həm realist ənənələrə, həm də Azərbaycan mədəniyyətinin dərin köklərinə bağlı bir sənətkar kimi yadda qalır.**

Realizm və Millilik

Səttar Bəhlulzadə, realist üslubda işləsə də, bu realizmi sırf obyektiv təzahürlərə bağlamaq olmaz. O, təbiətin və insanların gerçəkliyini təsvir edərkən, onları milli koloriti ifadə edən simvolik elementlərlə zənginləşdirirdi. Onun işlərində Azərbaycanın qədim tarixini, kənd həyatını, insanların adət-ənənələrini əks etdirən motivlər dominantlıq təşkil edir. Bu yanaşma, sənətkarın realizmi yalnız bir texniki vasitə kimi deyil, milli dəyərlərin ifadə platforması kimi qəbul etdiyini göstərir. Məsələn, onun "Köhnə Bakı", "Abşeron bağları" və ya "Qobustan" kimi əsərlərində Azərbaycanın təbiəti, şəhər mənzərələri və mədəni irsi çox real, lakin bir o qədər də romantik baxışla təsvir olunmuşdur. Bu əsərlərdə gerçəkliklə xəyali poetik dünyalar arasında möhkəm bir əlaqə vardır.

Səttarın rənglərə münasibəti də onun üslubunun bir əsas cəhətidir. O, təbiətdə olan rənglərin təkrarı ilə kifayətlənməyərək, rənglərin daxili mənasını ifadə etməyə çalışırdı. Xüsusilə, Azərbaycan torpaqlarına məxsus isti, günəşli tonlar - qızıl, narıncı, qəhvəyi və yaşıl çalarlar onun əsərlərinin əsasını təşkil edir. Rəssam üçün bu rənglər həm torpağın məhsuldarlığını, həm də xalqın əzmkarlığını simvolizə edir.



Rəssamın "Təbiət", "Dağ kəndləri" və digər əsərlərində rəng palitrası, Azərbaycanın həm torpağa bağlılığını, həm də bu torpağın insanlara verdiyi mənəvi qüvvəni ifadə edir. Bu rənglər yalnız gözəllik yaratmaqla deyil, həm də bir xalqın dünyaya baxışını və həyat fəlsəfəsini əks etdirmək məqsədi daşıyırdı.

Səttar Bəhlulzadənin əsərlərində insan faktoru da xüsusi diqqətə layiqdir. O, insanları təbiətdən ayırmadan təsvir edir və beləliklə, təbiət-insan harmoniyasını vurğulayır. Əsərlərində kəndlilərin gündəlik həyatı, iş prosesi, torpağa bağlılığı böyük bir sevgi və ehtiramla əks olunur. Bu isə yalnız təsvir yox, həm də sənətkarın həyat fəlsəfəsinin bir ifadəsidir.Bu yanaşma, həm də realizmin Azərbaycan milli sənətindəki interpretasiyasını yeni bir səviyyəyə qaldırır. Çünki bu, təkcə xarici görünüşü yox, həm də mahiyyəti göstərən bir realizmdir. Onun "Azərbaycanın kənd mənzərələri" kimi işləri bu harmoniyanın təntənəsidir. Səttarın üslubunda Azərbaycan xalq ədəbiyyatı və folklorunun dərin izləri görünür. O, miniatür sənəti, nağıllar, dastanlar və xalq rəqslərinin ritmlərindən ilham alaraq, onları müasir təsviri sənətə adaptasiya edirdi. Bu yanaşma, onu təkcə rəssam deyil, həm də milli irsin qoruyucusu kimi xarakterizə edir.

Onun əsərlərində görkəmli Azərbaycan ədiblərinin - Nizami Gəncəvinin, Füzulinin, Molla Pənah Vaqifin və başqalarının yaradıcılığına xas olan lirizm və dərin fəlsəfə öz əksini tapır. Belə ki, rəssamın əsərləri eyni zamanda bir növ vizual poeziya kimi qəbul edilə bilər.

### *Kökə Bağlılığın Ruhu*

Bəhlulzadənin yaradıcılığının əsasını təşkil edən bir konsept, onun öz köklərinə - Azərbaycan torpağına və mədəniyyətinə olan dərin bağlılığıdır. Bu bağlılıq, təkcə əsərlərinin mövzusunda yox, həm də onların ruhunda hiss olunur. O, Azərbaycanın təbiətini yalnız mənzərə kimi deyil, həm də milli ruhun bir təcəssümü kimi təsvir edirdi.

Rəssamın həyatı və yaradıcılığı, Azərbaycan xalqının və mədəniyyətinin tərənnümü olmaqla yanaşı, eyni zamanda modern realizmin milli xüsusiyyətlərlə zənginləşdirilmiş modelini yaratmışdır.



Bu, Səttar Bəhlulzadənin natürmort janrında çəkdiyi əsərlərdən biridir. Əsərdə rənglərin parlaq harmoniyası və canlı fırça izləri diqqəti cəlb edir. Təsvir olunan elementlər, məsələn, meyvələr və çiçəklər, Azərbaycan təbiətinin zənginliyini və rəngarəngliyini ifadə edir. Səttar Bəhlulzadə öz əsərlərində milli ruhu və təbiəti xüsusi üslubda canlandırmağı bacaran rəssamlardan biri kimi tanınır.

Bu natürmort əsərindəki dinamik fırça vuruşları və rənglərin gücü, onun impressionizm və ekspressionizmə yaxınlaşan üslubunu əks etdirir.

Bəli, bu əsər Azərbaycanın məşhur rəssamı Səttar Bəhlulzadənin sənət dünyasına aid qiymətli əsərlərdən biridir. Səttar Bəhlulzadə Azərbaycanın təbiət gözəlliklərini və milli ruhunu öz rəsmlərində çox təsirli şəkildə əks etdirən dahi rəssamlardan biridir. "Kəpəzin göz yaşları" əsərində rəssam Kəpəz dağını və onun ətrafındakı təbiəti unikal ekspressiv yanaşma və rənglərin ahəngi ilə təsvir edib. Əsərin adı dərin simvolizm daşıyır: "göz yaşları" həm təbiətin zərifliyini, həm də dağın əfsanələrlə dolu tarixini ifadə edir. Əsərdə dağın möhtəşəmliyi ilə yanaşı, mavi tonların və ahəngli fırça zərbələrinin istifadə olunması əsərə həm sakitlik, həm də emosional bir dərinlik verir.

### *Nəticə*

Səttar Bəhlulzadə Azərbaycan təsviri sənətində realist ənənələrin çərçivəsindən çıxaraq, milli dəyərləri və fəlsəfəni sənət vasitəsilə ifadə edən bir sənətkar kimi yadda qalmışdır. Onun üslubu, Azərbaycan mədəniyyətinə olan sevgisinin, köklərə bağlılığının və bəşəri realizm anlayışının bir sintezidir. Bu baxımdan, Bəhlulzadənin sənəti yalnız dövrünü deyil, həm də gələcək nəsilləri ilhamlandıracaq bir xəzinədir.

# Yada düşüb yaşamaq

**Sizi deyə bilmərəm, amma mən dünəndən - nostalji duyğulardan heç ayrıla bilmirəm. Və çox qəribədir ki, o duyğular, o hisslər sorğu-suz-sualsız axtarıb tapır məni və mən zaman-zaman o duyğuların içərisində dünənlə, itirdiklərimlə bir yerdə oluram, həmin dünyanın adamı kimi yaşayıram məni özünə çəkib aparan anı, hissləri...**

Həyatda təsadüflər kifayət qədərdir. Bu yazının qələmə alınması da əvvəldən düşündüyüm və nə vaxtsa yazacağıma qərar verdiyim bir gerçəklikdir. Lakin yazının belə tez bilgisayara diktə edilməsi isə bir təsadüfün nəticəsidir. Yəni kitab rəfimdə səliqə-səhman işləri görəndə götürdüm bu kitabı, açdım və yazılmış avtoqrafa baxdım və sonra da həmin avtoqrafın yazıldığı tarixə diqqət yetirdim. 23 rəqəmi bir anlıq məni silkələdi. Elə bil tələsdirdi məni bu yazını yazmağa. Çünki kitabın müəllifi yazmışdı ki, "İnqilab İsaqdan Əbülfət Mədətoğluna. Var ol, qardaş! Yeni görüşlərədək. 23.06.2023".

Yadımdadı. İnqilab İsaq bu kitabı mənə "Ədalət" qəzetinin redaksiyasında təqdim edəndə mətbəədən təzəcə götürmüşdü və avtoqraf yazanda da məndən ayın tarixini soruşdu. 23-dü dedim. O da gülümsədi.. Təsadüfə bax, 23.06.2023!!!

İndi xatırlayıram o xatirəni. İndi həmin xatırlama məndən təkrar ayın tarixini soruşur. Özüm-özümə deyirəm. 23 dekabr!..

Hə, deyəsən 23 rəqəmi özündə nəyisə ifadə edir. Onun nə ifadə etdiyini mən artıq İnqilab İsaqa deyə bilməyəcəm. Çünki o yeni görüşlər vəd etsə də, vədini tutmadı, köçdü Tanrı dərgahına. Ruhu şad olsun. Mənə hər kitabını böyük həvəslə bağışlayıb və oturub həyatımızdan, ailəmizdən, yaradıcılığımızdan həvəslə söhbət etdiyim bir insan indi xatirədi. Amma onun bağışladığı kitab masamın üstündən baxır mənə. Sanki vərəqlər öz-özünə çevrilir və mən də şeirləri oxuyuram. Və oxuduqca da İnqilabın səsini eşidirəm. Sanki o mənə deyir ki:

*Getdiyim, yetdiyim mənzil qarşıda...*
*Yuxular gecəmə duzlanmış yara.*
*Sözümü sağlıqla yaşamaq üçün -*
*Ömür köçürürəm bu misralara.*

"Yuxuların şirin vaxtı" adlanan kitabın ilk şeirinin son bəndidi bu. Bilmirəm, nədəndi, amma mənə elə gəldi ki, İnqilab bir şair kimi, bir duyğu adamı kimi hiss edibdi qarşıda onu gözləyəni. O gedəcəyi məkanın yaxınlığını. Elə ona görə də özünə də, sözünə də və onu gözləyənlərə də bir sağlıq arzu edib, sonra da deyib ki, sözümü sağlıqla deyirəm. Amma bu sağlıq sizin düşündüyünüz sağlıqdan deyil. Əlimdə badə deyil, qələmdi. Ona görə də iç dünyamı, düşüncələrimi, duyğularımı sizə sağlıq arzusuyla misralayıram.



Tez-tez şair dostlarla, ruh adamları ilə həmsöhbət olanda belə bir fikrin səsləndiyini və ona da hər kəsin öz baxış bucağından qiymət verməsinin şahidi oluram. Hamı deyir ki, şairlər, bütövlükdə ruh adamları bir az digər Allah bəndələrindən fəhmli olurlar. Sabahı, gələcəyi təxmin edə, düşünə bilirlər. Görünür, bu, həqiqətdi, gerçəklikdi. Çünki həqiqi şairlərin fikirləri zamanı qabaqlayır, söylədikləri, yazdıqları, gələcəyin də sözü, yazısı olur. Deməli, fəhm, öncəgörmə, hissetmə kimi anlayışlar elə şairlərin də boyuna biçilib. Bax, İnqilabın kitabının ilk şeirində olduğu kimi. Mən bu kitabı vərəqlədikcə hər bir şeirin, hər bir misranın arxasında müəllifini görürəm. Ona görə ki, bu şeirlərdə səmimiyyət var, ürək çırpıntısı var. Və bu səmimiyyət, ürək çırpıntısı da şeirə çevrildiyi üçün oxucu ilə dil tapa bilir. Bu anlaşma isə bəzən oxucunu sırf düşünməyə vadar edir. Məsələn, onun "Taleyim" şeirində olduğu kimi:

*Sözün də söz tutan vədəsi ötdü...*
*Alınır, allanır, yanaqlar indi.*
*Təzə-tər anlarım xəzan yelində -*
*Yaman hay-küydədi yamaqlar indi...*

*Sözə kül üfürən közün əlacı,*
*Nəfəsi qaralmış ocaq daşında.*
*Bacamı tüstüsü tale ovurmuş -*
*Kəlmə savaşında, söz savaşında.*

*İnadım asanca düşməz kilidə*
*Kölgəm də yan ötər bağlı qapıdan...*

*Soyuq günlərimin hirsi, qınağı,*
*Keçirər kölgəmi yeddi qatından...*

*Daha sağ əlim də soluna ögey*
*Bir can təkliyində - ayrı adamlar.*
*İçinin güzgüsü, haqqı sınanda...*
*Vurhavur bəzəyir bayrı adamlar.*

*Gör necə haldayam, gör necə gündə...*
*Əzaba, sevincə könül xətriyəm...*
*Toxunsan, incitsən, qanım tökülər*
*Mən öz taleyimin yanlış xəttiyəm...*

Bu şeirdə təkcə fikrin, sözün birbirini tutması yox, həm də bir-birini təqdim etməsi diqqəti çəkir. Oxuduqca çevrəmizdə, həyatımızda baş verənlərin necə rəngarəng, bəzən isə boz bulanıq olduğunu görməmək mümkün deyil. Bir xaotiklik, bir qarmaqarışıqlıq içərisində ömrü öz xəttində saxlamaq, talehini idarə edə bilməmək hünər istəyir adamdan. Çünki insanın içi ilə çölü üz-üzə gəlib, bir təzad var. Onun çözümü isə gerçəyi anlamaqdan keçir. İnqilab İsaq da məhz olduğu halın, durumun fövqünə qalxaraq etiraf edir ki, o talehinin yanlış xətti olsa da, amma əzaba da, sevincə də könüllü şəkildə qol açıbdır. Bu isə o deməkdir ki, şair gerçək həyatın hər halını yaşamaq gücündədi, dəyərləndirmək iqtidarındadı.

Ümumiyyətlə, İnqilab İsaqın bu kitabında mövzu rəngarəngliyi özünü asanlıqla göstərir. O, vətəndən də, sevgidən də, yazdığı ovqatın havasında mina axtarandan da, qazidən də, şəhiddən də yazmaq istedadını nümayiş etdirə bilir. Yəni onun üçün predmetlər yox, mövzular yox, ürək və ruh önəmlidi. Çünki ürəyinin və ruhunun hopduğu istənilən mövzu onun qələmində oxucu diqqəti çəkir. Ona görə də bir təsadüfdən qaynaqlanan yazının sonunda İnqilabın hələ 2019-cu ildə yazdığı "Yada düşüb yaşamaq" şeiri ilə bitirirəm:

***Enir, ruhlara, enir***
***Yenə də şam işığı.***
***Unudulmaq, unutmaq -***
***Söz-könül barışığı.***

***Oyanır - Amin, Amin...***
***Göyün yerə kəlamı.***
***Bir dua salamıdı***
***İndi ümiddə hamı.***

***Qorxma, zaman körpədi***
***Qorxma, zaman qoç-qoça.***
***Bəlkə bu da ömürdü***
***Kimsə düşməyir yada.***

***Bütün üfüqlər uzaq...***
***Baxışlar ondan betər.***
***Yada düşüb yaşamaq***
***Tanrı sözünə yetər.***

Şeirin sonuncu bəndindəki iki misra özü-özlüyündə şair İnqilab İsaqın nə qədər haqlı olduğunu təsdiq edir. Həmin bu iki misrada vurğulanıb ki,

Yada düşüb yaşamaq
Tanrı sözünə yetər!!! -

Bax, gerçək budu. Nə vaxt yada düşürsən, nə vaxt anılırsan onda da yaşayırsan. Elə bu yazını başladığım andan bitirənə qədər və hələ düşünəcəyim nə qədər zaman boyunca İnqilab İsaqın yaşayacağına şübhəm yoxdur. Ruhu şad olsun.

**Əbülfət Mədətoğlu**

## *AQTA bu məhdudiyyətləri aradan qaldırdı*

**Yoluxucu heyvan xəstəliklərindən qorunmaq məqsədilə tətbiq olunan bəzi məhdudiyyətlər aradan qaldırılıb.**

Adalet.az xəbər verir ki, bu barədə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi məlumat yayıb. Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (WOAH) rəsmi məlumatlarına əsasən, Rusiyanın Leninqrad vilayətində xırdabuynuzlu heyvanların çiçək, Pakistanın Sind, Pəncab regionlarında nodulyar dermatit, Hindistanın Çhattisqarh, Karnataka, Madya Pradeş, Qücərat, Pəncab, Madhya-Pradeş, Uttar-Pradeş, Cammu-Kəşmir, Haryana, Bihar ştatlarında və Haryana ştatının Pançkula, Madhya-Pradeş ştatının Cabua, Maxaraştra ştatının Parbhani inzibati ərazi vahidlərində, Botsvananın Kqatlenq dairəsində, Rusiyanın Başqırdıstan, Tatarıstan, Komi respublikalarında, Ruminiyanın Teleorman inzibati ərazi vahidində qeydə alınmış yüksək patogen quş qripi xəstəliyi aradan qaldırılıb.

Belə ki, WOAH -nin "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi"nə əsasən, qeyd olunan ərazilərdə bu xəstəliklərin ləğv edilməsindən sonra gözləmə müddəti başa çatıb və epizootik sağlamlıq statusu bərpa olunub.

**Bununla əlaqədar, Azərbaycanın həmin yoluxucu xəstəliklərdən qorunması məqsədilə adıçəkilən ərazilərə tətbiq etdiyi məhdudiyyətlər aradan qaldırılıb. Eyni zamanda müvafiq tədbirlərin görülməsi üçün Dövlət Gömrük Komitəsinə müraciət olunub.**

# İsveçrənin «səlib» addımları: Saxta soyqırıma dəstək, Azərbaycana qərəz, müsəlmana biganəlik...

**Xəbər verdiyimiz kimi, 17 dekabrda İsveçrə Parlamentinin Aşağı Palatası "Dağlıq Qarabağ: Sülh Forumu" ilə bağlı Qətnamə qəbul edib. Qətnamənin müəllifi deputat Erix Fontobelledi. İsveçrə deputatları hökumətə "erməni əhalisinin geri - Qarabağa qaytarılması ilə bağlı danışıqlar üçün forum" təşkil etməyi təklif ediblər.**

Ermənilərinin geri qayıtmaq hüququ var-deyən İsveçrə Milli Şurası müzakirə nəticəsində 96 lehinə, 80 əleyhinə, 16 bitərəf səs nisbəti ilə qətnaməni qəbul edib. Xarici işlər naziri İqnazio Kassis petisiyaya qarşı olduğunu bildirib.

Bir çox ölkə parlamentlərinin, o cümlədən ABŞ, Fransa və s parlamentlərinin bu kimi və ya buna bənzər qətnamə çağırışları erməni-lərin böyük bir qismində yüksək əhval ruhiyyə yaradıb.

Adalet.az xəbər verir ki, o ermənilərdən biri də Ermənistanın keçmiş ombudsman Arman Tatoyandır. Tatoyan öz Facebook səhifəsində qəzəblə yazıb ki, Azərbaycan prezidentinin artıq 300 min azərbaycanlının Ermənistanın baş nazirinə "Vətənə qayıtması" üçün müraciət etdiyini bəyan etdiyi bir şəraitdə sülhü təbliğ etmək açıq istehzadır. Hegemon və "ədalət" çarçısı imicini özünə zorla pərçim etmiş dövlətlərin erməni yalanlarına dəstək verməsindən həvəslənən irticaçı və şovinist düşüncəli Tatoyan daha sonra yazır: "Aydındır ki, bu, humanitarlıq pərdəsi altında Ermənistanı işğal etmək planıdır ki, bu da Ermənistanın demoqrafik vəziyyətində dağıdıcı dəyişikliklərə gətirib çıxaracaq. Bu da düşmənçiliyi daha da dərinləşdirir".

1988-1989-cu illərdə Qərbi Azərbaycandan (Ermənistan) azərbaycanlıların döyülərək, söyülərək, öldürülərək qovulmasını tamamilə unudan köhnə ombudsman sərsəmləməsini davam etdirir:"Bu şəraitdə Ermənistan hökumətinin başçısı və ondan sonrakı digər yüksək vəzifəli şəxslər Azərbaycana qarşı dövlətlərarası beynəlxalq şikayətlərdən imtina etməkdən, ölkəmizin və xalqımızın milli maraqlarını kobud şəkildə pozmaqdan danışırlar.

Bu, Azərbaycanın qüdrətinə xalqımıza qarşı törətdiyi cinayətlərdən özünü təmizləmək və gələcək cinayətlər üçün münbit zəmin yaratmaq imkanı verəcəkdir.




Ermənistanın təhlükəsizliyini və ərazi bütövlüyünü yalançı sülh illüziyasına, ölkə elitasının hakimiyyətdə qalması və mövqelərindən məhrum edilməməsi naminə qurban verməmək olmaz".

Qeyd edək ki, bu həmin İsveçrə parlamentininin aşağı palatasıdır ki, heç bir rəsmi məhkəmə sənədi polmadan, digər tərəfin - Türkiyənin sözünü dinləmədən 2003-cü il dekabr ayının 16-da 1915-ci il hadisələrini soyqırım kimi tanınması haqda qətnamə qəbul edib. Bununlada İsveçrə Türkyədə erməni soyqırımını tanıyan ilklərdəndir və 15-ci ölkə oldu. Hazırda bu saxta erməni soyqırımını tanıyan ölkələrin sayı 100-ü ötüb.

Görünən odur ki, 1 il əvvəl Qarabağda heç bir zorakılıqla üzləşmədən, Qarabağı könüllü tərk edən, oraya dönməyi ağıllarına belə gətirməyən separatçıları Azərbaycana dönməyə müxalif olan böyük, eyni zamanda kənar qüvvələr məcbur edir.

Görəsən, azərbaycanlılar erməni silahlıları tərəfindən Qarabağdan- doğma yurd yuvasından qovularkən, 30 il vətəndə vətənsiz yaşayarkən, ABŞ, Fransa, İsveçrə parlamentariləri harda idi?

Yeri gəlmişkən, İsveçrə Milli Şurası (parlamentin böyük palatası) Fələstin dövlətinin tanınmaqdan imtina edib. Maraqlıdır, Bolqarıstan, Norveç , Kipr, Çexiya, Macarıstan, Malta, Polşa, Ruminiya və Slovakiya Fələstini rəsmən tanıdığı halda İsveçrə kimi özünü bitərəf elan edən ölkə niyə Fələstinə qarşı biganədir?

Bu ilin avqustunda İsveçrənin xarici işlər naziri İqnazio Kassisə Qəzzada hücumlarını davam etdirən İsrailə dəstək verdikllərini bildirmişdi.

**Sizcə bu , hər zaman aktiv olan "səlib yürüşü"nün təzahürü ola bilərmi?**

**Əntiqə Rəşid**

# Hüseyn Arif – Dastan ömrü yaşayan şair



*Ramiz Göyüş,*
*Yazıçı-publisist*

**XX əsr Azərbaycan ədəbiyyatı üçün, xüsusilə Azərbaycan poeziyası üçün, çox məhsuldar və poeziya nəhəngləri ilə zəngin bir əsr kimi Azərbaycan ədəbiyyatı tarixinə düşmüşdür. Bu əsrin başlanğıcında dünyaya gələn və yaradıcılığa başlayan Hüseyn Cavid, Əhməd Cavad, Hacıkərim Sanılı, Cəfər Cabbarlı, Səməd Vurğun, Mikayıl Müşfiq,Osman Sarıvəlli, Süleyman Rüstəm, Rəsul Rza, Məmməd Rahim kimi görkəmli və nadir söz ustadları adlarını Azərbaycan ədəbiyyatını tarixinə əbədi yazmış sənətkarlardır və nə qədər ki, Azərbacan var, Azərbaycan poeziyası var, onlar da var olacaqdır. Bu söz ustadlarının Azərbaycan ədəbiyyatı qarşısındakı ən böyük xidmətlərindən biri də, bütün ideoloji basqı və təsirlərə baxmayaraq yaratdıqları nadir sənət nümunələri ilə yanaşı, həm də özlərindən sonra böyük bir yaradıcı nəslin yetişməsinə vəsilə olmaları ilə əlaqmətdardır. Məhz adlarını şəkdiyim və çəkmədiyim görkəmli sənət adamlarının təsiri nəticəsində, ötən əsrin ortalarında, əslində yeni bir şairlər nəsli böyük axınla poeziya kəhkəşənımıza parlayan ulduzlar kimi daxil olmağa başladılar. Bu sıradan Bəxtiyar Vahabzadə, Nəbi Xəzri, Qabil, Əliağa Kürçaylı, Cabir Novruz, Xəlil Rza Ulutürk, Nəriman Həsənzadə, Fikrət Qoca kimi şairlər, əsrin ikinci yarısında Azərbaycan poeziyasına əvəsiz töhfələr vermislər. Heç şübhəsiz həmin dövrdə poeziyamıza böyük vüsətlə daxil olan gənc şairlərdən biri də Hüseyn Hüseynzadə idi. İkinci Dünya Müharibəsi başlayanda cəbhəyə çağrılan və 1942-ci ildən 1946-cı ilə qədər ön cəbhədə döyüşən, Ukraynanın, Polşanın, Çexoslovakiyanın faşist işğalçılarından azad edilməsində fəal iştirak edən Hüseyn Hüseynzadə yaradıçılığa həmin illərdə başlamışdı. Lakin onun böyük ədəbiyyata gəlişi müharibədən sonrakı dövrə təsadüf edir.**

*Düşür yadıma hərdən,*
*Məktəb həyətində mən*
*Yoluna göz dikərdim*
*Qəlbim sızlardı hərdən*
*Sən dərsə gəlməyəndə.*

Nümunə kimi gətirdiyim bu bəndlə başlayan "Sən dərsə gəlməyəndə" şeiri, Böyük Səməd Vurğundan xeyir dua alan gənc Hüseynın sənət dünyasına gəlişinin müjdəsi idi

... Hər dəfə Xalq şairi Hüseyn Arifin şeirlərinii oxuyanda, eşidəndə, sözlərinə yazılmış mahnıları dinləyəndə, bu mətnlərdəki lirizm insanı heyrətə gətirir.

Son dərəcə səmimi duyğularla ifadə olunan Hüseyn Arif yaradıcılığı səmimi olduğu qədər də təbii və lirikdir.

Azərbaycan xalqının mərdlik, ziyalılıq, ağsaqqallıq simvollarından biri olan, şairin yaxın sənət və şəxsi dostu, Xalq yazıçısı İsmayıl Şıxlı yazırdı; "Hüseyn Arif fitrətən lirik şairdir. Onun lirik ricətləri, təbiət və insan psixologiyasının təsvirindəki lirizm təsdiq edir ki, bu cəhət şairin yaradıcılığında əsas aparıcı amildir və doğurdanda onun bütün əsərlərinin ruhuna hopmuşdur". Düşünürəm ki, Hüseyn Arif yaradıcılığını bu qədər lakonik və dolğun ifadə etmək üçün İsmayıl müəllimin bu möhtəşəm sözlərindən gözəl ifadə tapmaq çətin olardı. Onun şeirlərini, poemalarını oxuduqca xəyal səni ilkin uşaqlığına, boya başa şatdığın müqəddəs məkanlara, indi səndən çox uzaqlarda yerləşən, əlçatmaz doğma insanlara, çağdaş zamanımızda az qala unudulmuş isti insani münasibətlərə, acılı-şirinli xatirələrə qovuşdurur. İnsanda şirin xatirələr, ülvi hisslər, xoş duyğular oyadır. Düşünürəm ki, Hüseyn Arifin əsərlərindəki lirizm ilk növbədə onun daxili aləmindən, təbiətindən irəli gəlirdi. Bu lirika təkcə Hüseyn Arifin şeirlərindən deyil, həm də xarakterindən, davranışından, söz söhbətlərindən, səsinin ahəngindən hiss olunurdu. Hüseyn Arifin könül rübabının simləri, sazın simləri ilə həmahəng səslənirdi:

*Ötür şirin-şirin xınalı kəklik,*
*Pozma sevincini, qaya onundur.*
*Toxunma çəməndə açan laləyə,*
*Təbiət bəxş edən boya onundur.*

Hüseyn Arifin şeirlərində lirika o qədər güclüdür ki, onları oxuduqca içimizdə bir oxşama, bayatı, mahnı, musiqi oyanır. Sanki şair öz əsərlərini lirik not dəftəri üstündə yazıb. Məhz elə ona görə də Hüseyn Arifin şeirləri müasirləri, məşhur bəstəkarların diqqətindən yayınmamış və onlar ən gözəl mahnılarını Hüseyn Arifin şeirlər üstə köklənmişlər. İndi sevə-sevə dinlədiyimiz "Xatırla məni", "Sən mənimlə get", "Şeir deyilmi", "Mən inanmadım", "Qonşu qız", " Könül deyir yaşa hələ", "Dedim dedi" və digər mahnılar xalqımızın mənəvi dünyasına o qədər sirayət edib ki, bu gün həmin mahnılar xalqımızın yaddaşında həm də xalq mahnıları kimi qalıb. Aşağıda gətirdiyim nümunə, dediklərimin təsdiqi üçün məncə kifayət edərdi:

*Sonasan, qıymaram gölə,*
*Göldə soyuq dəyər sənə.*
*Gül yanında dönmə gülə,*
*Güldə soyuq dəyər sənə.*

1976-cı ilə - gənc və yeganə oğlu Arifin faciəli vəfatınadək, pozitiv ovqatlı şeirlər yazan Hüseyn Hüseynzadə, həmin faciəli hadisədən sonra soyadını dəyişərək Hüseyn Arif oldu. Elə o gündən də Hüseyn Arif poeziyasına təzadlı ovqat, sevinclə kədərin vəhdəti hakim kəsildi. "Aman yetmiş altı, başımda tufan qopardı" deyən, oğul itkisinin dəhşətli ağrı-acılarını, iztirablarını yaşayan Şair, məşhur kaman ustası, Xalq artisti Habil Əliyevə xitabən ağlaya-ağlay deyirdi: " Habil, indiyədək səni dinləyəndə ağlayırdım, indən sonra mən neyləyəcəm". Həmin iztirablı günlərdə yaşadığı sarsıntıların ovqatı şairin şeirlərinə hopmuşdu və O, bir-birinin ardınca kədərli şeirlər yazırdı. Bu şeirlər şeir deyildi, çırağı sönmüş, dünyası talan olmuş kövrək bir atanın fəryadı, ağısı, laylası idi:

**ixtisarla**

*Bir övlad tüstüsü çıxdı başımdan,*
*Göylər göz yaşını yerə sıx- dedi.*
*Ümidim, istəyim gözümdə qaldı,*
*Könül nəğməsini yarımçıq dedi...*
*Hüseyn Arifəm, payım zəhərmiş,*
*Bu səfər nə yaman ağır, səfərmiş.*
*Ata balasını necə sevərmiş,*
*Görüş deməyəni ayrılıq dedi.*

Həmin ağrılı-acılı günlərdə Arifin faciəli ölümü hamını-bütün Hüseynsevənləri yandırıb yaxmışdı. Yadımdadır o kədərli günlərdə Qərbi Azərbaycanın Amasiya bölgəsindən olan Nüşabə Qəribova adında bir xanımın Arifin faciəli ölümünə həsr etdiyi bir bənd şeir dillər əzbəri olmuşdu və hamı yana-yana həmin şeir təkrarlayırdı:



*Ölmə, torpaqlara qoymaram səni,*
*Yerin qollarımın arasındadır.*
*Təbii sularla yumaram səni,*
*Suyun gözlərimin qarasındadır.*

Bu bir bənd şeir Hüseyn Arifə çatınca, böyük şairin üstünə bir su səpələnmişdi və həmin xanıma xitabən Hüseyn Arif yazırdı:

*Eşitdim səsini, hikmət dolu səs,*
*Yapışdı qolumdan yorğun çağımda.*
*Oxudum şeirini, odlu bir nəfəs*
*Bahara çevrildi qış, otağımda.*

Bu ağır itkidən özünə gələ bildi Hüseyn Hüseynzadə, özündə güc, taaqət tapıb dözə bildi oğul dərdinə.

*Elimin, obamın üzü ağ olsun,*
*Min kəndə, şəhərə məndən salam var.*
*Min bir bacı, qardaş tutdu qolumdan,*
*Min bir əmim, dayım, min bir xalam var*
*Hüseyn Arifəm qəlbimdə aləm,*
*Qarşımda atını oynatmasın qəm.*
*Bir dəfə demişəm, bir də deyirəm,*

Balama oxşayan min bir balam var.- deyərək yaşamağı, yazıb yaratmağı davam etdirsə də, başına gələn müsibəti unuda bilmədi. "Özgəni güldürən sözüm, söhbətim, Özümü ağladan qəmim var mənim"- deyərək, ömrünün axırınadək təzadlı şeirlər yazdı...

Hüseyn Arif görüşləri, "turşməzə" söhbətləri, lətifələri, yardıcılığı, sərgüzəştləri ilə xalqın yaddaşena köçmüş, xatirələşmiş bir şəxsiyyərdir. O, sözün həqiqi mənasında bir dastan ömrü yaşadı. Bu dastanın coxsaylı qolları var.

Nə qədər ki, Hüseyn Arifi görənlər, onunla ünsiyyətdə olanlar, bir yerdə çalışanlar var, oğul gərək onları toplaya, qələmə ala, xalqın mənəvi sərvətinə çevirə.

Hüseyn Arif yaradıcılığının mövzu əhatəsi çox genişdir. Bu mövzuların içində təbiət təsvirləri, təbiətin əsrarəngiz gözəlliklərinin tərənnümü xüsusi yer tutur.

Və çox maraqlıdır ki, onun təbiət şeirləri insanla vəhdətdə verilir. Onun şeirlərində təbiətlə insanın vəhdəti o qədər təbii verilir ki, sanki təbiətin qoynundasan, onunla canlı ünsiyyətdəsən.

Ən maraqlısı da odur ki, Hüseyn Arif təbiətdə olan gözəllikləri insanda axtarır.

O gözəlliyi də, ülviliyi, zərifliyi də sərtliyi, əyilməzliyi, qüruru və vüqarı da təbiətdə görür və insanda axtarır. Düşünürəm, Hüseyn Arifin təbiətə həsr etdiyi şeirlərinin belə canlı və güclü olmasının səbəbi onun fitrətən təbiəti duymasından və bu duyğunu son dərəcə poetik qüdrətlə ifadə etmək qabiliyyətindən irəli gəlirdi.

*Ən böyük anadır təbiət bizə*
*Ən ulu, ən qədim həyat aşiqi,*
*Ümmanlar səbridir, dağlar vüqarı,*
*Qayalar alnının sərt qırışları.*

Hüseyn Arifin təbiətə həsr etdiyi şeirlərini oxuyanda gözlərin önündə təbiət təsvirləri canlanır. Belə anlarda ilk xəyala gələn Azərbaycan rəssamlıq məktəbinin ən görkəmli nümayəndələrindən biri olan məşhur rənggar Səttar Bəhlulzadə yada düşür. Hər iki ustad sənətkarın yaradıcılıqlarında ( elə xarakterlərində də) üzvi bir bağlılıq, bir bənzərlik var. Fərq ondadır ki, Hüseyn Arif sözlərdən mənzərə çəkir, Səttar Bəhlulzadə rənglərdən. Anacaq onların yaratdıqlarında əsrarəngiz və lətif bir poeziya var.

Diqqət yetirək:

*Ağ başlı, göy sinəli,*
*Yaşıl ətəkli Kəpəz.*
*Daş dişli, daş çənəli,*
*Qaya kürəkli Kəpəz.*
*Göy göl gözünün yaşı,*
*Üfüq çatılan qaşı,*
*Əsrlərin sirdaşı,*
*Çənli, çisəkli Kəpəz.*

Bu poetik ifadələri oxuduqca düçünürsən ki, sanki Səttar Bəhlulzadə özünün məşhur "Kəpəzin göz yaşları" tablosunu Hüseyn Arifin "Kəpəz" şeirinin təəssüratı altında yaradıb və ya əksinə.

Bu baxımdan Hüseyn Arifin Səttar Bəhlulzadəyə həsr etdiyi şeirdən də nümunə zənnimcə yerinə düşmüş olardı:

*Səni düşünəndə nə iclas, nə zal,*
*Nə də bir kabinet düşür yadıma,*
*Səni düşünəndə yüz boya, yüz rəng,*
*Al-əlvan təbiət düşür yadıma.*
*Vaxtlımı doğulduq, vaxtsızmı olduq?*
*Bir də qəm gətirən bu söhbət nədir?*
*Ana təbiətin əkiz oğluyuq,*
*Bizim qüdrətimiz təbiətdədir.*

Bu il sevim li söz ustadımızın yüz illik yubileyi ölkəmizin hər yerində sevilə-sevilə qeyd olunur. Yaradıcılığı, şəxsiyyəti və xarakteri bir vəhdət təşkil edən ustad Hüseyn Arif həmişə sevilib, sevilir və seviləcək, xalqımızın yaddaşında həmişə yaşayacaqdır.

## "Sağlam həyat tərzini qorumaq üçün nələrə diqqət etməliyik?"

**"Hava şəraiti insan sağlamlığına və bədən funksiyalarına birbaşa təsir göstərir. Mövsümə uyğun qidalanma sağlam həyat tərzini qorumaq üçün vacib amillərdən biridir".**

Adalet.az xəbər verir ki, bu fikirləri 93 FM dalğasında yayımlanan "Sağlam radio"da Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, qastroenteroloq Emin Məmmədov açıqlayıb. Onun sözlərinə görə, soyuq havalarda bədən istiliyini saxlamaq üçün daha çox enerji sərf edir: "Buna görə də zülallar, yağlar və kompleks karbohidratlarla zəngin qidalara ehtiyac artır. Bu balansı qoruya bilməmək enerji çatışmazlığına, immun sistemin zəifləməsinə və həzm problemlərinə səbəb ola bilər". Mütəxəssis-eksperti bildirib ki, günəşli günlərin sayı azaldığından immun sisteminin zəifləməməsi üçün vitamin D balansının bərpası çox vacibdir: "Balıq, yağlı quş əti, yumurta, süd məhsulları vitamin D, Calsium, Omeqa mənbəyidir. Soyuq mövsümdə vitamin C ilə zəngin meyvələrin qəbulu da vacibdir. Vitamin C selikli qişaların qoruyucu baryerini qüvvətləndirir və tənəffüs yolları infeksiyasından müdafiəni artırır".

"Soyuq havalarda insanlar ona görə tez- tez xəstələnir ki, açıq havada az olur və qapalı məkanlarda vaxt keçirməyə üstünlük verirlər, bu da tənəffüs yolu xəstəlikləri üçün uyğun şərait yaradır. Ümumilikdə, insanlar soyuqdan xəstələnmir, bütün səbəb infeksiyalardı. Soyuq və təmiz havada çox qalma immun sisteminin daha da davamlı olmasına, yaxşı çalışmasına kömək edir", - deyə qastroenteroloq əlavə edib.

## Bu ölkədə vəba mindən çox insanın həyatına son qoydu

**Afrika ölkəsi Sudanda vəba epidemiyası səbəbindən həyatını itirənlərin sayı 1258-ə yüksəlib.**

Adalet.az xəbər verir ki, Sudan Səhiyyə Nazirliyindən verilən açıqlamada ölkədə vəbaya yoluxanların ümumi sayının 48 min 598-ə çatdığı bildirilib. Sudanda iyun ayında başlayan yağışlar və daşqınlar vəba xəstəliyinin yayılmasına səbəb olub. Sudan hakimiyyəti avqustun 12-də vəba xəstəliyini epidemiya elan edib.

Birləşmiş Millətlər Təşkilatının (BMT) Humanitar Məsələlər üzrə Koordinasiya Ofisi oktyabrın 1-də 3,4 milyon sudanlı uşağın epidemiya xəstəlikləri riski altında olduğunu bildirib.

BMT-nin Uşaq Fondu (UNICEF) oktyabrın 5-də Sudana 1,4 milyon doza vəba peyvəndi göndərdiyini də açıqlayıb. Müharibənin davam etdiyi və səhiyyə sisteminin effektiv işləmədiyi Sudanda epidemik xəstəliklərin yayılması insanların həyatını daha da çətinləşdirir.

## Cəbrayıl və Qubadlıda modul tipli xəstəxanalar tikiləcək

**Cəbrayıl və Qubadlı şəhərlərinin inzibati ərazisində yerləşən dövlət mülkiyyətində olan ərazilərdə modul tipli xəstəxanalar tikiləcək.**

Bu barədə dövlət satınalmalarının vahid internet portalından məlumat verilib.

Bildirilib ki, sözügedən xəstəxanaların qurulması ilə əlaqədar layihə-smeta sənədlərinin hazırlanması xidmətlərinə başlanılır.

Məlumata görə, artıq bununla bağlı Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) tabeliyində "İnnovasiya və Təchizat Mərkəzi" publik hüquqi şəxs hazırlıqları yekunlaşdırıb.

Qurum xəstəxanaların qurulması ilə əlaqədar layihə-smeta sənədlərinin hazırlanması işlərini "Storm Building" MMC-yə həvalə edib və onunla dəyəri 217,4 min manat olan müqavilə bağlayıb.

## Malidə Fransa müstəmləkəçiliyinin izləri silinir

**Niger və Burkina-Fasonun ardınca Malidə də Fransa müstəmləkəçiliyi dövrünə aid toponimlər dəyişdirilir.**

Artıq bu məqsədlə dövlət başçısının 18 dekabr tarixli sərəncamının icrasına başlanılıb.

Baş nazir general Abdulaye Mayqa bildirib ki, müstəmləkə dövrünün qalıqlarından qurtulmaq suverenliyin tərkib hissəsidir.

Paytaxt Bamakoda fransız kolonializmi dövründəki idarəçilərin adları məşhur malili personajların adları ilə əvəzlənib. Artıq 25 küçə, bulvar və meydanın adları dəyişdirilib.

## İlk dəfə olaraq Şərqi Zəngəzurdan əmanətlərin cəlbinə başlanılıb

**İlk dəfə olaraq Şərqi Zəngəzur iqtisadi rayonundan əmanətlərin cəlb olunmasına başlanılıb.**

Bu barədə Mərkəzi Bankdan məlumat verilib.

Qeyd olunub ki, bu ilin dekabrın 1-nə Şərqi Zəngəzur iqtisadi rayonundan 392 min manat vəsait cəlb olunub.

Bu göstərici üzrə orta faiz dərəcəsi isə 1,81%-ə bərabər olub.

Sözügedən regiondan cəlb olunmuş əmanətlərin 388 min manatı milli valyutada, 4 min manatı isə sərbəst dönərli valyutada (SDV) olub.

Qeyd edək ki, cari ilin dekabrın 1-də Azərbaycanda ümumi regionlar üzrə cəlb olunmuş əmanətlər 14,2 milyard manat təşkil edib.

# Bu il yubileyi olan 11 bədii film: Məşhurlar və sevilənlər kateqoriyası

**Bu il tamaşıçıların uzun illərdir sevdiyi, hər dəfə eyni maraqla baxdığı , bütün obraz və frazalarını əzbər bildiyi ən məşhur 12 Azərbaycan filminin yubileyidir.**

Adalet.az xəbər verir ki, bu il yubileyi olan Azərbaycan filmləri ona görə yaddaqalandır ki, bu filmlərə müxtəlif yaş kateqoriyasına mənsub bütün tamaşaçılar rahatlıqla baxa bilir. Filmin ictimai məzmun və əhəmiyyəti, mənəvi-tərbiyəvi rolu cəmiyyətin sanki məlhəmi olur. Əxlaqi-etik məsələlərə toxunan, dövrünün mənəvi aləminin zənginliyi ortaya qoyan belə filimlərin dəyəri illər keçsə də azalmır, əksinə, daha da artır.

İndi isə gəlin yubileyi olacaq Azərbaycan kino sənətinin incilərini birgə xatırlayaq:

**1. 65 yaşlı "Bir qalanın sirri " tammetrajlı bədii filmi folklorşünas-alim, dramaturq, professor Məmmədhüseyn Təhmasibin "Çiçəkli dağ" pyesi əsasında rejissor Əlisəttar Atakişiyev tərəfindən 1959-cu ildə ekranlaşdırılıb. "Azərbaycanfilm" kinostudiyasında istehsal edilən film-nağılda xalqın əlindən torpağını və suyunu almış amansız və qəddar hökmdara qarşı kasıb, lakin namuslu və qeyrətli insanların mübarizəsindən danışılır.**

Alim-həkim Eldostu (Məmmədrza Şeyxzamanov), onun sədaqətli və sevimli şagirdi Mətanət (Tamara Kokova), igid və cəsur gənc usta Elşən (Gündüz Abbasov), Kamran baba (Əli Qurbanov) bu mübarizənin önündə gedirlər.

Filmdə göstərilir ki, el gücü və xalqın birliyi, elmlə gücün birliyi şər üzərində zəfər çalır, minlərlə adama sevinc, xoşbəxtlik bəxş edir.

**2. 65 yaşlı "Onu bağışlamaq olarmı?" filmini folklorşünas Məmmədhüseyn Təhmasibin "Bahar" pyesinin əsasında , qardaşı rejissor Rza Təhmasib 1959-cu ildə çəkib.**

Burada cinayət axtarışı əməkdaşlarının və ictimai asayişin keşiyində duran milis işçilərinin mürəkkəb və çətin işlərindən danışılır. Süjetin əsasını qatı cinayətkarın təsiri altına düşmüş gənc Tərlanın (Qriqori Tonuns) dramatik taleyi təşkil edir. Filmdə əsas rollarda Hökumə Qurbanova (Kəmalə), Manana Abuyeva (Sevda), Mehdi Məmmədov (Qaya bu, onun kinoda yeganə roludur), Həsənağa Salayev (Qüdrət), Məleykə Ağazadə (Qumru), Ətayə Əliyeva (leytenant Qarayeva) İsmayıl Talıblı (Veysəl Mirzə), Qriqori Tonuns (Tərlan), Veriko Ancaparidze (Ana) çəkiliblər.

**3. 60 yaşlı Sehrli xalat" filmi 1964-cü ildə istehsalata buraxılıb. Azərbaycanda ilk elmi fantastik üslubda çəkilən "Sehrli xalat"ın sevilmə səbəbinin zəhmətə, mərdliyə, qəlb və düşüncə gözəlliyinə ünvanlandığı üçün sevilir. Uşaqların bayramına gələn qonaqlar içərisində illüzionist İo Kio (Anatoli Falkoviç) adlı bir sehrbaz olur. O, uşaqlara sehrli xalat bağışlayır. Sehrli xalatın köməkliyi ilə uşaqlar keçmişə və gələcəyə səyahət edirlər. Bu səyahətlər nəticəsində keçmişdə baş verənlərlə və gələcəkdəki yeniliklərlə, elektron cihazlarla tanış olurlar.**

Böyük bir hissəsi kinostudiyanın pavilyonlarında çəkilən filmdə keçmiş və gələcəyə uyğunlaşdırılmış sarayın interyerinin qüsursuzluğu filmin uğurunu təmin edir. Rejissor diqqətindən yayınmayan detal və fon çəkilişləri, əlbəsə seçimi, qrim və geyim rəssamlarının peşəkarlığı müxtəlif dövrlə bağlı ictimai həyatın real inikasını yaradıb, filmi baxımlı edib.

Filmin sseanari müəllifləri A.Tarasov, Əlisəttar Atakişiyev, quruluşçu rejissor Əlisəttar Atakişiyev, quruluşçu operator Teyyub Axundov, quruluşçu rəssamlar Məmməd Hüseynov, Cəbrayıl Əzimov, bəstəkar Arif Məlikov, səs operatoru Paşa İbrahimov, dirijor Niyazi, geyim rəssamı Qəzənfər Xalıqov, qrim rəssamı V. Bereznyakov, montaj Tahirə Babayeva, redaktor Ədhəm Qulubəyov, operator Əlihüseyn Hüseynov, quraşdırılmış səhnələrin rəssamı Eduard Abdullayev olub.

Rollarda Azər Qurbanov, Solmaz Hətəmova, Yusif Şeyxov, Kolya Loginov, Əliağa Ağayev, Möhsün Sənani, Ağahüseyn Cavadov, İsmayıl Osmanlı, Hüseynağa Sadıqov, Məmməd Sadıqov, Anatoli Falkoviç və başqaları çəkilib.

**4. 60 yaşlı "Ulduz" film - kinokomediyası 1964-cü ildə bəstəkar Süleyman Ələsgərovun eyniadlı pyesi əsasında ekranlaşdırılıb. Filmin rejissoru Ağarza Quliyev, ssenari müəllifi isə Sabir Rəhmandır.Böyük şöhrət qazanmış komediya dəfələrlə müxtəlif teatr səhnələrində tamaşaya qoyulub. 1965-ci il martın 29-da Nizami adına kinoteatrda "Ulduz" musiqili kinokomediyasına ilk baxış keçirilib. Kinokomediyada iki sevən gəncin saf məhəbbətindən, eyni zamanda elmin həyatla əlaqəsindən, kəndin qabaqcıl ziyalılarının elmlə heç bir əlaqəsi olmayanlara, vəzifəpərəstlərə qarşı apardıqları mübarizədən danışılır.**

Bundan başqa sırf sovet düşüncə tərzini, təfəkkürünü, insanların inandığı amalların yalnız əmək faktoruna məxsus olmasını göstərən film elə bu ideyaları simvolik olaraq gerçəkləşdirən baş qəhrəmanın yəni, Ulduzun adı ilə adlandırılır. Bəsit süjet xəttinə malik olsa da, istedadlı aktyorların peşəkar ifası çox quru süjet və mahiyyətə malik olan filmi nəinki quruluqdan çıxarır, hətta onu kütlənin sevimlisinə çevirir. Filmin əsas çəkilişləri Astara rayonunda aparılıb. Əsərdə baş qəhrəmanları Ulduz (Tamillə Rüstəmova) və Bəxtiyarın (Hacımurad Yelizarov) sevgisi əsas hadisə sayılsa da, onlar Məhəmməd (Lütvəli Abdullayev), Möhsün (Hacıbaba Bağırov), Gülümsərov (Bəşir Səfəroğlu), Nazik (Məleykə Ağazadə), Züleyxa (Nəsibə Zeynalova) kimi rolların kölgəsində qalır. Gənc aspirant olan Ulduzun kolxoz mübarizəsindəki sünilik, Bəxtiyarın bir obraz olaraq film başlayandan sonadək davam edən passivliyi əsas faktoru- iki gəncin sevgisini ikinci plana atır.

**5. 55 yaşlı "Bizim Cəbiş müəllim" tammetrajlı bədii filmi Maqsud İbrahimbəyovun "Müharibənin 1001-ci gecəsi" ssenarisi əsasında,rejissor Həsən Seyidbəyli tərəfindən 1969-cu ildə ekranlaşdırılıb. "Azərbaycanfilm" kinostudiyasında istehsal edilən hərbi kinopovestdəki hadisələr II Dünya müharibəsi illərində Bakıda cərəyan edirMüharibə illərində qələbə naminə hər cür maddi çətinliklərə dözərək ailəsini halal zəhmətlə dolandıran, vətənin azadlığını hər şeydən yüksək tutan, sadə adamların mənəvi ucalığından söhbət açan "Bizim Cəbiş müəllim" filmində əsas rolları Süleyman Ələsgərov, Şəfiqə Məmmədova, Muxtar Maniyev, Səfurə İbrahimova, Ziya Seyidbəyli, Nəsibə Zeynalova, Əliağa Ağayev və Aqil Ağacanov ifa edirlər.**







1970-ci ildə Minskdə IV Ümumittifaq kinofestivalında aktyor Süleyman Ələsgərova yüksək aktyor sənətkarlığına və parlaq realist obraz yaradılmasına görə SSRİ Nazirlər Soveti yanında Kinematoqrafiya Komitəsinin və SSRİ Kinematoqrafçılar İttifaqının diplomu verilib.

**6. 55 yaşlı "Bir cənub şəhərində" filmi rejissor Eldar Quliyev tərəfindən 1969-cu ildə ekranlaşdırılıb. Neorealizm stilində cəkilmiş ilk Azərbaycan filmi, Eldar Quliyev isə bu stildə film çəkən ilk Azərbaycan rejissorudur. Film "Azərbaycanfilm" kinostudiyasında istehsal edilib. Lirik-psixoloji dram çox da böyük olmayan cənub şəhərlərindən birinin adamları, onların həyatı və əməyi haqqındadır. Burada hələ də insanların şüurunda keçmişin qalıqlarının kök salması, insanın mənəvi azadlığa necə böyük çətinliklə çıxması məsələləri ön plana çəkilib. Filmin mərkəzində yeniliklə köhnəliyin mübarizəsi, insanın köhnəlmiş adətlərin əsarətindən xilas olması prosesi durur.**

Filmdə əsas rolları Həsən Məmmədov, Eldəniz Zeynalov, Hacımurad Yegizarov, Məcid Dadaşov, Natella Adıgözəlova, Sadıq Hüseynov, Süsən Məcidova, Tatyana Xaritonova, Əsəd Məmmədov, Yusif Vəliyev və Sadıq Həsənzadə ifa edirlər. Film yazıçı Rüstəm İbrahimbəyovun "9-cu Xrebtovı" povesti üzrə ekranlaşdırıldı. 2000-ci ildə filmin quruluşçu rejissoru Eldar Quliyevə, ssenari müəllifi Rüstəm İbrahimbəyova, quruluşçu operatoru Rasim Ocaqova filmin ekranlara buraxılmasının 30 illiyi münasibətilə "Humay" mükafatı verildi.

**7. 55 yaşlı "Dəli Kür" filmi 1969-cu ildə yazıçı İsmayıl Şıxlının eyniadlı romanı əsasında Hüseyn Seyidzadənin çəkdiyi tammetrajlı bədii filmdir. Kinoromanda keçən əsrin əvvəllərində Azərbaycanın qabaqcıl ziyalılarının formalaşmasından, ilk mütərəqqi pedaqoqların fəaliyyətindən, qabaqcıl ziyalıların Zaqafqaziya xalqlarına göstərdikləri köməkdən və insanlarda azadlıq şüurunun formalaşmasından söhbət gedir.**

Azərbaycan film tarixində özünəməxsus rolu olan "Dəli Kür" hazır olduqdan sonra bir çox tənqid və təqdiblərə məruz qalıb. Ekran əsərində əks olunan bir çox məqamlar o vaxtı senzuradan keçməyərək çətin məqamlarla üzləşib.

Filmin ssenari müəllifi İsmayıl Şıxlı, quruluşçu rejissor Hüseyn Seyidzadə, rejissor köməkçiləri Əbdül Mahmudov və Ramiz Əliyev, quruluşçu operator İqor Boqdanov, quruluşçu rəssam Nadir Zeynalov, bəstəkar Cahangir Cahangirov, səs operatoru Akif Nuriyev, redaktor İsa Hüseynov olub.

Rollarda Ələddin Abbasov, Eldar Əliyev, Vladislav Kovalkov, Məlik Dadaşov, Leyla Bədirbəyli, Liya Eliava, Zemfira Sadıqova, Məmməd Bürcəliyev, Elçin Şıxlı, Fikrət Əliyev, Ceyhun Mirzəyev, Reyhan Müslümova, Zemfira İsmayılova, İsmayıl Osmanlı, Ənvər Həsənov, Məmməd Əlili, Qorxmaz Əlili, Mirzə Babayev, Nəsibə Zeynalova və başqaları çəkilib. Kinorejissoru, ssenarist Əbdül Mahmudov mediaya verdiyi açıqlamada deyir: Sovet hökuməti öz ideologiyasına lazımi qədər vaxt da, sərmayə də ayırırdı. Əlindən gələni də əsirgəmirdi. O cümlədən də Cahandar ağanın ölüm səhnəsi. Hansı ki, cılızlaşdırıldı. Guya Cahandar qaçırdığı arvada görə, qadının adamları qisasçılıq zəminində ağanı güllələyib.

Kinostudiyanın müdiri Adil İsgəndərov o vaxt buna qarşı nə qədər mübarizə apardı. Belə olan təqdirdə filmin bağlanma təhlükəsi meydana çıxdı. Cahandar ağa kazak başçısını qamçıladıqdan sonra kazaklarla vuruş başlayır və kazaklar onu arxadan güllələyir. Lakin sovet kinotənqidçiləri bunu qəbul etməyərək bildirdi ki, necə olursa olsun, bir azərbaycanlı rusu döyə bilməz, rus da azərbaycanlını öldürə bilməz. Buna görə də rejissor məcburən həmin səhnəni kəsdi, sonda Allahyar Cahandarı öldürdü, çox gözəl çəkilən filmin sonluğu bərbad hala gətirildi. Kazak başçısını oynayan məşhur aktyorumuz Yusif Vəliyevin adı titrlərdə olsa da, kinoda onun obrazını görə bilmirik. Film tamaşaçıların da hələ də başa düşə bilmədiyi eybəcər bir forma aldı. Çox heyf ki, film həmin epizodla bir növ şikəst oldu.

Filmdən çıxarılan həmin epizodun "Qızıl fond"da saxlanılmasına dair məlumatlar olsa da, bu öz təsdiqini tapmayıb".

**8. 45 yaşlı "İstintaq " filminin ssenari müəllifi Rüstəm İbrahimbəyov, rejissoru Rasim Ocaqovdur . Filmin mövzusu 60-cı illərdə Azərbaycanda baş vermiş hadisələr ətrafında cərəyan edir. Qeyd etmək lazımdır ki, o dövr üçün Sovetlər Birliyinin tərkibində olan sovet ölkəsində mafiyanın varlığından bəhs etmək böyük risk idi. Bu baxımdan filmin müəllifləri ilk dəfə olaraq cəsarətli addım atmağa nail ola bildilər. Ancaq bu heç də asan başa gəlmədi, çünki söhbət bir ölkədə fəaliyyət göstərən mafiyadan gedirdi. Mafiyada fəaliyyət göstərən cinayətkarlar isə daim xüsusi orqanlar tərəfindən dəstəklənir.**

Əvvəllər güləş üzrə məşhur idmançı olan Murad Əbiyev (Həsən Məmmədov) gözlənilmədən qalantereya sexinin rəisi təyin edilir. Günlərin birində o, qeyri-qanuni mal istehsal edib satdığına görə (milyon manat məbləğində) həbs olunur. Müstəntiq Seyfi Qəniyev(Aleksandr Kalyagin) isə vicdanlı, güzəştə getməyən, büllur kimi təmiz adamdır. Filmdə rüşvətxorluq tənqid edildiyi üçün ilkin olaraq ekranlara buraxılması qadağan edilmişdi. Çox çətinliklə ekranlara buraxılandan sonra film bütün ölkədə böyük səs-küyə səbəb oldu. Rusiyanın bəzi vilayət komitələri rəhbərlik etdikləri ərazilərdə filmin baxışını qadağan etdilər. Moskva isə öz növbəsində filmi ona görə qəbul etmişdi ki, orada söhbət Azərbaycandan gedirdi, deməli, bütün ölkənin adına ləkə sala bilməzdi.

1980-ci ildə Düşənbədə XIII Ümumittifaq kinofestivalı "Ən yaxşı bədii film"ə görə yaradıcı kollektivə Baş Mükafat verir. 1981-ci ildə ssenari müəllifi Rüstəm İbrahimbəyova, quruluşçu rejissor Rasim Ocaqova, quruluşçu operator Rafiq Qəmbərova, quruluşçu rəssam Fikrət Bağırova, aktyor Aleksandr Kalyaginə, aktyor Həsən Məmmədova və aktrisa Şəfiqə Məmmədovaya SSRİ Dövlət Mükafatı verir.

**9. 45 yaşlı "Babək" tammetrajlı bədii filmi də rejissor Eldar Quliyev tərəfindən 1979-cu ildə ekranlaşdırılıb. Film "Mosfilm" və "Azərbaycanfilm" kinostudiyalarının birgə məhsuludur. Film Azərbaycan xalqının qəhrəman oğlu, görkəmli sərkərdə və siyasi xadim Babəkə ithaf olunub və onun azadlıq hərəkatı filmin əsasını təşkil edir. Azərbaycan SSR-in ən bahalı filmidir. Filmdə əsas rolları Rasim Balayev, Həsənağa Turabov, Amaliya Pənahova, Tamara Yandiyeva, Şahmar Ələkbərov, Məmməd Verdiyev, Hamid Azayev və Ənvər Həsənov ifa edirlər. Bu il ərzində 35 milyon tamaşaçısı olan film 60-a yaxın ölkə tərəfindən alındı.**

Kinoşünas Sevda Əmirli yazır:"Filmin bütün zamanlarda sevilməsinin başlıca səbəblərindən biri də klassik kino estetikasını özündə əks etdirməsidir. Tamaşaçıları uzaq tarixi keçmişin müasirinə çevirən film yaradıcı heyətin böyük zəhməti hesabına ərsəyə gəlib. Kinonu həyatiləşdirmək, tamaşaçını uzaq keçmişdə baş verən hadisələrə inandırmaq o qədər də asan deyil.

Filmin rejissorunun, operatorunun, bəstəkarının, rəssamının həyatla əlaqəsi, tamaşaçılara olan diqqəti, yaradıcı heyət və seyrçi arasında qurduğu yaradıcılıq ünsiyyəti, müşahidə və hər dövr hadisələrini ekranda təhlil etmə qabiliyyəti sənətkarlıq meyarını ortaya qoyub. Bu kimi yüksək keyfiyyətlərin cəmində isə yaradıcı heyət cəmiyyətin nəzərində dövrünün qabaqcıl adamları olaraq sevilib, seçilib, məşhurlaşıb. Filmin emosional təsir gücü tamaşaçını heyrətləndirməklə yanaşı, həm də təəccübləndirir. Bir çox kadrlar, demək olar ki, Babəkin azadlıq ideyasına, insan sevgisinə köklənib. Lakonik, məntiqli dialoq və monoloqların cəmində, dövr hadisələrinin mahiyyətini cilalayan kadrların sferasında Babəkin ideyası, həyat amalı hiss olunur, diktə edilir".

**10. 45 yaşlı "Mən mahnı qoşuram" filmi 1979-cu ildə lentə alınıb. Azərbaycan kino tarixində özünəməxsus yeri və rolu olan ekran əsərinin ssenari müəllifləri İbrahim İbrahimov, Tofiq İsmayılovdur. Tofiq İsmayılov həm də bu ekran əsərinin quruluşçu rejissorudur. Filmin mövzusu kənd həyatından bəhs edir. Kənd dəyirmançısının qızı Sona gözəl mahnılar oxuyur. Bakıdan gələn musiqi müəllimi bu qızı özü ilə şəhərə aparmaq, musiqi məktəbində oxutdurmaq istəyir. Qızın atası isə uşağını həkim görmək arzusundadır.**

Amma sonda kənd camaatının təkidi və qızın istəyi ilə nəhayət ata nəinki razılıq verir, hətta uşağını özü Bakıya oxumağa aparır. Film uşaqlarla birgə böyüklərin də maraqla izlədiyi filmlər kateqoriyaındandır.

Konstantin Dauşvili - Bəhmən dayı, Nəsibə Zeynalova - Nənə,Həsənağa Turabov- Xudayar kişi, Elxan Cəfərov - Nadir, Oqtay Şeyxov- Ramiz, Leyla Bədirbəyli - Nadirin anası, Ağasadıq Gəraybəyli - Abdulla rollarında tamaşaçıların yaddaşına köçüb.

**11. 35 yaşlı "Ölsəm bağışla " dram janrında çəkilmiş bədii filmin ssenari müəllifi Rüstəm İbrahimbəyov, quruluşçu rejissoru Rasim Ocaqov olub. II Dünya müharibəsindən sonrakı illərdə baş verən hadisələrdən bəhs edən film məhəbbət, haqsızlığa qarşı mübarizə və ölüm haqqındadır. Filmin əsas süjet xətti iki gənc arasındakı məhəbbət üzərində qurulur. Elə bir məhəbbət ki, insan qəlbini pis fikirlərdən, pis əməllərdən xilas edir, onu təmizləyir, paklaşdırır. Həyat filmin qəhrəmanını bir çox sınaqlardan keçirir, sərtləşdirir. Hər addımında haqsızlıqlarla üzləşən Yusif (Fəxrəddin Manafov) onlarla təkbaşına mübarizə aparmalı olur. Amma o, xasiyyətcə mülayim adamdır. Yusif müharibədən sonra xəbər tutur ki, atası haqsız məhkum edilib, sevdiyi qız (Gülzar Qurbanova) onu gözləməyib başqasına ərə gedib. Nə etməli, hər şeyə göz yummalı, yoxsa yenidən mübarizə aparmalı? O, sevdiyi qızla xoşbəxt həyat sürməyi arzulayır. 1991-ci ildə Bakıda Azərbaycan filmlərinin I festival-müsabiqəsində "Ən yaxşı bədii film"ə görə Mükafat və Priz aldı.1992-ci ildə Çimkənddə (Türkmənistan) Qazaxıstan, Orta Asiya və Azərbaycan kino aktyorlarının I regional "İpək Yolu" kinofestivalında "Ən yaxşı qadın" rolunun ifasına görə aktrisa Gülzar Qurbanovaya və baş mükafat-festivalın Qran-pri Mükafatı verildi. "Ən yaxşı kişi rolu"nun ifasına görə aktyor Fəxrəddin Manafova baş mükafat-festivalın Qran-pri mükafatı verilir.**

Tamaşaçı olaraq əbədi istəyimiz budur ki, yenə də Azərbaycanda baxımlı, tərbiyəvi əhəmiyyətli, tarixi mövzulu, etik meyarlı filmlər çəkilsin!

**Əntiqə Rəşid**

# "Milli xəzinə. Azərbaycan təsviri incəsənəti" kitab-albomu və portal təqdim edilib

Azərbaycan Milli İncəsənət Muzeyində "Milli Xəzinə. Azərbaycan Təsviri İncəsənəti" adlı kitabın və www.az-art.gallery portalının təqdimatı keçirilib.

Adalet.az xəbər verir ki, kitab və portal Təşəbbüslər və Layihələr Mərkəzinin layihəsi əsasında, bp şirkətinin dəstəyi ilə hazırlanıb.



Təqdimat mərasimində giriş sözü söyləyən "bp"nin Kommunikasiya üzrə rəhbəri Tamam Bayatlı bp şirkətinin sosial layihələrə göstərdiyi dəstəyin əhəmiyyətinə toxunub.

"bp"nin Xəzər regionunda Kommunikasiya və xarici əlaqələr üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli təmsil etdiyi qurumun fəaliyyətində sosial və mədəni layihələrə göstərdiyi dəstək barədə danışaraq, Azərbaycan, ingilis və rus dillərində nəşr olunmuş kitabın və portalın incəsənətimizin tanıdılmasında əhəmiyyətini qeyd edib.

Təşəbbüslər və Layihələr Mərkəzinin rəhbəri, layihənin meneceri Ceyhun Osmanlı tarixi kökləri və ənənələri ilə qədimliyə söykənən, forma və məzmunu, estetik və emosional təsir gücü ilə çağdaş dünya incəsənətinin əsas üslub və cərəyanları ilə uyğunlaşan, ideya unikallığı və fəlsəfi düşündürücülüyü ilə diqqət çəkən əsl sənət əsərlərini özündə birləşdirən kitab və portalın yaranma tarixçəsi haqda məlumat verib. Kitabda 206 müəllifin 463 əsərinin yer aldığını bildirən C.Osmanlı layihənin icrasına göstərilən təşkilati dəstəyə görə Mədəniyyət Nazirliyinə təşəkkürünü ifadə edib, eyni zamanda kitabın materialları əsasında hazırlanmış www.az-art.gallery saytının əhəmiyyətini vurğulayıb.

Milli Məclisin komitə sədri Fazil Mustafa milli incəsənətimizin təbliğinin, korifey sənətkarlarımızla yanaşı, çox dəyərli əsərlər yaratmasına baxmayaraq populyarlıq qazana bilməmiş rəssamların da yaradıcılığının geniş ictimaiyyətə təqdim olunmasının vacibliyini qeyd edib.

Kitabın ideya müəllifi və art-direktoru sənətşünaslıq üzrə fəlsəfə doktoru Qalib Qasımov deyib ki, kitabda və portalda əks olunan əsərlərin hər biri nadir sənət incisidir və onlar 12 000-dən artıq rəngkarlıq, qrafika, heykəltəraşlıq, tətbiqi sənət, teatr-dekorasiya əsərləri arasından seçilib.

Azərbaycanın görkəmli rəssamları Mikayıl Abdullayev, Böyükağa Mirzəzadə, Maral Rəhmanzadə, Səttar Bəhlulzadə, Elbəy Rzaquliyev, Tahir Salahov, Fuad Əbdürrəhmanov, Cəlal Qaryağdı, Tokay Məmmədov, Fərhad Xəlilov, Ömər Eldarov, Natiq Əliyev, Salxab Məmmədov, Fuad Salayev, Sakit Məmmədov və onlarla başqa məşhur rəssamlarımızla yanaşı, yaradıcılığı geniş ictimaiyyətə bir o qədər də tanış olmayan, amma son dərəcə böyük istedada malik rəssamların əsərlərinin yalnız bir qismi burada öz əksini tapıb.

Q.Qasımov Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən Azərbaycan incəsənətinin inkişafına hərtərəfli dəstək göstərildiyini qeyd edib.

Kitabın mətnlərinin müəllifi və tərtibatçısı, sənətşünaslıq üzrə fəlsəfə doktoru Dilarə Vahabova kitabın hazırlıq mərhələsi, əsərlərin seçilməsinin elmi əsasları və prinsipləri barədə danışıb. O, eyni zamanda bildirib ki, kitabın həcm limiti nəzərə alınmaqla diqqət müəllifin kimliyinə, şəxsiyyətinə və ya təltiflərinə deyil, əsərlərin bədii əhəmiyyətlilik dərəcəsinə və ümumi dizayn konsepsiyasına uyğunluğuna yönəldilib.

Kitabın və portalın hazırlanmasında Əməkdar rəssam İrina Eldarova dizayner, sənətşünaslar Aytən Muradlı və Sənan Şəfizadə elmi məsləhətçi, Adil Yusif, Mirnaib Həsənov fotoqraf, Şamxal Əbilov layihə kuratoru, Aliyə Səfərova redaktor, İlahə Azməmmədova keyfiyyət nəzarətçisi, Kərim Kərimli, Elcan Orucov, Dilara Felzer tərcüməçi, Kəmalə Quluzadə koordinator, Elçin Aşurov dizayner, Sahil Balazadə proqramçı, Toğrul Rəhimli kontent meneceri qismində iştirak ediblər.

**Kitabın təqdimatında opera ifaçısı - Əməkdar artist İlahə Əfəndiyeva, Piano ifaçısı - Əməkdar artist Nərgiz Əliyevanın ifasında Puccini aria Lauretta, Kiara La spanyola, Tofiq Quliyevin Bakı haqqında mahni, "Qızıl üzük" mahnıları səsləndirilib.**

Aytən Babayeva
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent



# Uğurlarınız bol olsun

**Məlum olduğu ki, bu il əsası dahi Üzeyir Hacıbəyli tərəfindən qoyulan Azərbaycan Bəstəkarlar İttifaqının 90 illik yubileyidir. Yubiley çərçivəsində həm respublikamızda, həm də onun hüdudlarından uzaqlarda möhtəşəm konsert proqramları həyata keçirilib. Bu yubiley ilinə Azərbaycan bəstəkarları öz töhfələrini verərək, müasir dövrdə İttifaqın əsas inkişaf prinsiplərini nümayiş etdirirlər. Belə ki, onlar öz fəaliyyətləri ilə Üzeyir bəyin ənənələrini layiqincə davam etdirərək, onun ruhu qarşısında öz mənəvi borclarını yerinə yetirməyə çalışırlar. Bu mənada Azərbaycan Bəstəkarlıq məktəbinin uğuru dünya musiqiçilərinin də diqqətini cəlb edir. Onu da qeyd etməliyik ki, hər bir bəstəkarın əldə etdiyi nailiyyət onun özü ilə bahəm, ümumazərbaycan musiqisi üçün böyük dəyərdir.**

**Dünyanın "Sülh artisti", Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Elmlər Akademiyasının müxbir üzvü Firəngiz Əlizadənin yaradıcılığı buna əyani misaldır. Onun fəaliyyəti məhz Üzeyir bəyin Azərbaycan musiqisinin inkişafı naminə çalışmasının bariz nümunəsidir. Çünki Üzeyir bəy musiqi mədəniyyətimizin dünya səviyyəsində tanıdılmasının fövqündə idi. Bu gün bu cəhət ülvi bəstəkarımız Firəngiz Əlizadənin yaradıcılığında layiqli davamını tapıb.**

**Bəstəkarın dünya şöhrəti qazanmış əsərləri ilə bərabər, dünya musiqiçiləri arasında yüksək mövqeyi və nüfuzu buna misaldır. Biz bu məqalədə F.Əlizadənin əsərlərindən deyil, onun iştirak etdiyi yüksək nüfuza malik müsabiqə və festivallardan bəhs edəcəyik.**

**F.Əlizadənin yüksək intellektual səviyyəsi, müasir musiqisinin xüsusiyyətlərinə dərindən bələd olması və dünya professional musiqi mühitində böyük nüfuzu bəstəkarın müsabiqə və festivalların münsiflər heyətinin rəhbəri olaraq iştirakı üçün mühüm zəmin yaradır.**

**Eyni zamanda beynəlxalq səviyyəli festival və müsabiqələrdə azərbaycanlı bəstəkarın münsiflər heyətinin sədri təyin olunması Azərbaycan bəstəkarlıq məktəbinə verilən böyük dəyərdir.**

**İndi isə dünya musiqisi üçün əhəmiyyətli olan bu tədbirlərdən bir neçəsinə nəzər salaq.**

**Belə ki, bu il Firəngiz Əlizadə Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində görkəmli rus bəstəkarı A.P.Petrov adına Bəstəkarların XVIII Açıq müsabiqəsində növbəti dəfə münsiflər heyətinə sədrlik etmişdir. 2007-ci ildən keçirilən müsabiqədə müxtəlif ölkələrin tanınmış bəstəkarları iştirak edir. Əlamətdar haldır ki, 2019-cu ildən müsabiqənin münsiflər heyətinin sədri professor Firəngiz Əlizadədir. Eyni zamanda Firəngiz Əlizadənin yaradıcılığına böyük marağı nəzərə alaraq, müsabiqə çərçivəsində Sankt-Peterburq Konservatoriyasında onunla görüş keçirilmiş və əsərləri tanınmış musiqiçilər tərəfindən ifa olunmuşdur.**

**Həmin tədbirdə F.Əlizadənin "Metamorfozlar" ("Şüştər") əsəri Arkadi Şteynluxtun dirijorluğu ilə yüksək səviyyədə ifa edilmişdir. Fəxarətli bir haldır ki, F.Əlizadənin Rusiyada ilk dəfə ifa olunan bu əsəri dinləyicilər tərəfindən böyük maraq və heyranlıqla qarşılanmışdır. Onu da qeyd edək ki, Firəngiz xanımın sədri olduğu münsiflər heyətinə dirijor, Rusiyanın "Qızıl maska" milli teatr mükafatının laureatı Fyodor Lednyov, bəstəkar, Sankt-Peterburq Konservatoriyasının professoru Anatoliy Korolyov, Rusiyanın Əməkdar artisti Arkadi Şteynluxt və digər tanınmış musiqiçilər daxil olmuşdur.**

**Görkəmli bəstəkarımızın iştirak etdiyi növbəti möhtəşəm tədbirlərdən biri Rusiya Federasiyasının Moskva şəhərində baş tutmuşdur. Bu yaxınlarda "Musiqili Olimp" Fondu və Gənc musiqiçilərin "Şelkunçik" XXV Beynəlxalq Televiziya müsabiqəsinin təşkilatçığı ilə keçirilən tədbirdə Beynəlxalq Münsiflər heyətinin tərkibində iştirak etmək üçün F.Əlizadəyə xüsusi dəvətnamə göndərilmişdir.**

**"Musiqili Olimp" Fondunun Prezidenti İrina Anatolyevna Nikitinanın Firəngiz Əlizadəyə ünvanladığı məktubda müsabiqənin gənc istedadların üzə çıxarılmasında, uşaq musiqi təhsilinin genişləndirilməsində, eyni zamanda beynəlxalq mədəni əlaqələrin və istiqamətlərin inkişafında əhəmiyyəti vurğulanmışdır.**

**Qeyd etməliyik ki, Gənc musiqiçilərin "Şelkinçik" müsabiqəsi 2000-ci ildə Rusiya Federasiyasının "Mədəniyyət" kanalı tərəfindən təsdiq olunmuşdur.**

**15 yaşına qədər gənc musiqiçilər müsabiqədə klassik və müasir bəstəkarların mürəkkəb ifaçılıq xüsusiyyətlərinə malik əsərlərini səsləndirməklə, öz yaradıcı bacarıqlarını, ifaçılıq imkanlarını nümayiş etdirirlər.**

**Dirijor Mixail Qolikovun rəhbərliyi ilə Moskva Filarmoniyasının Akademik Simfonik Orkestrinin gənc solistləri müşayiət etməsi isə ifaçıların məsuliyyətini daha da artıraraq, onların professional səhnədə, musiqiçilər qarşısında özünü təsdiqləməsi üçün imkan yaratmışdır. Müsabiqə çərçivəsində N.Rimski-Korsakov, P.Çaykovski, F.Mendelson, Y.Haydn, N.Paqanini, K.Sen-Sans, M.Ravel, E.Sejurne və E.Qriqin əsərləri səslənmişdir.**

**Nəzərə çatdıraq ki, Gənc musiqiçilərin "Şelkunçik" XXV Beynəlxalq Televiziya müsabiqəsi humanitar səpkili layihə kimi, nəinki Rusiya Federasiyasında, əhəmiyyətinə və obyektiv keçirilən şərtlərinə görə dünya səviyyəsində böyük maraq göstərilən tədbirlərdən biridir.**

**"Fortepiano" nomimasiyasında münsiflər heyətinin sədri olan Firəngiz Əlizadə tanınmış musiqiçilər Sergey Kuznetsov (Rusiya), Semyon Skiqin (Rusiya-Almaniya) ilə birlikdə gənc istedadların ifaçılıq qabiliyyətlərini dəyərləndirmişlər. Vurğulayaq ki, bu müsabiqədə F.Əlizadə ilə yanaşı, Nikita Zimin (saksofon), Nikolay Popov (fleyta) kimi tanınmış musiqiçilər də Beynəlxalq Münsiflər heyətinin tərkibinə daxil idi.**

**Fəxredici bir hadisədir ki, festival çərçivəsində Firəngiz Əlizadənin əsəri ifa olunmuşdur. Müsabiqənin təşkilatçısı və "Musiqili Olimp" Fondunun Prezidenti İrina Nikitinanın "Eniqma" verilişində Firəngiz Əlizadə ilə geniş məzmunlu və səmimi münasibətlər üzərində qurulan müsahibəsi isə milli azərbaycançılıq ruhunun rusiyalı dinləyicilərə çatdırılması məramına əsaslanmışdır. Həmin müsahibədə Firəngiz xanım yalnız öz yaradıcılığı barədə deyil, Azərbaycan musiqi mədəniyyətinin ümumi məzmunu, xüsusilə Üzeyir Hacıbəyli, Qara Qarayev ənənələrindən bəhs etmişdir.**

**Dünya şöhrətli Azərbaycan bəstəkarının beynəlxalq əhəmiyyətli və böyük nüfuza malik müsabiqələrdə iştirak etməsi fəxarət doğuran mədəni hadisə olmaqla yanaşı, həm də qürurvericidir.**

**Təbii ki, Firəngiz Əlizadənin yaradıcılığı dünya musiqisi ilə sıx bağlıdır. Bu mənada onun uğurları ilə bağlı çox söz demək olar. Amma bu uğurların bir qisminin məhz F.Əlizadənin sədri olduğu Bəstəkarlar İttifaqının 90 illik yubileyinə təsadüf etməsi Azərbaycan bəstəkarlıq məktəbinin də yüksək inkişafa malik olmasının təzahürüdür. Odur ki, Firəngiz xanım başda olmaqla, Bəstəkarlar İttifaqının bütün üzvlərini bir daha bu yubiley münasibətilə təbrik edirik.**

**Uğurlarınız bol olsun.**

# Rifat Hisarcıklıoğlu: "TDT ölkələri ticarət müharibələri qarşında birgə hərəkət etməlidir"

**Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələrlə dünyada getdikcə geniş vüsət alan ticarət müharibələri qarşında birgə hərəkət etməlidir.**

Bunu Türkiyənin Ticarət və Sənaye Palatasının sədri Rifat Hisarcıklıoğlu Bakıda keçirilən Türk Ticarət və Sənaye Palataları Birliyinin Baş Assambleyasında bildirib. "TDT ölkələri olaraq öz aramızdakı ticarəti artırmalı, bunu üçün bütün əngəlləri aradan qaldırmalıyıq. Bu baxımdan gömrükdən rahat keçid çox mühümdür. Palata olaraq bununla bağlı təcrübəmizi qardaşlarımızla bölüşməyə hazırıq. Bu gün gündəmdə olan məsələlərdən biri də palatamızda bütün nəqliyyat modellərini əks etdirən bir alt komitənin yaradılmasıdır. Bu məsələdə də hamının dəstəyini gözləyirəm", - deyə o qeyd edib.

# Verilmiş kreditlərin sahibkarlıq subyektləri üzrə payı məlum olub

**Bu ilin yanvar-noyabr ayları ərzində banklar tərəfindən verilmiş 14,7 milyard manatlıq cəmi biznes kreditlərinin 8,3 milyard manatı və ya 56,2%-i iri sahibkarlıq subyektərinə verilib.**

Bu barədə Trend Mərkəzi Bankın açıqladığı statistik bülletenə əsasən hesablama aparıb. Cəmi biznes kreditləri portfelinin 1,8 milyard manatı və ya 12,4%-i orta sahibkarlıq subyektlərinin payına düşüb.



**Həmçinin biznes kreditləri portfelinin 1,5 milyard manatı və ya 10,4%-i kiçik sahibkarlıq subyektlərinin, 3,1 milyard manatı və ya 20,9%-i isə mikro sahibkarlıq subyektlərinin payına düşüb.**

Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

№ 49 (2423) 27 dekabr 2024-cü il

**Azərbaycanın dünyaya inteqrasiya olunması çox yüksək sürətlə davam edir. Təbii ki, bu sürətli inkişaf heç də bizim düşmənlərimizin ürəyincə deyil. Ən azından ona görə ki, ermənilər və onların havadarları güclü Azərbaycanı görmək istəmirlər. Güclü Azərbaycansa birmənalı olaraq yüksəlişə doğru gedir. Belə ki bu günlərdə Misirin paytaxtı Qahirədə keçirilən "D-8" təşkilatının konfransında Azərbaycan bu quruma üzv seçilib. Heç şübhəsiz, bu bir tarixi hadisədir və ölkəmizin beynəlxalq aləmdə təmsil olunmasında önəmli rol oynayır. Çünki bu təşkilata üzv olan ölkələrin bir milyarddan çox əhalisi var.**



# AZƏRBAYCAN "D–8" TƏŞKİLATINA ÜZV SEÇİLDİ

Azərbaycan həmişə dünyanın diqqətini özünə cəlb edən ölkələrdən biri olub. Başqa cürə demiş olsaq, dünyanın gözü elə çox vaxt bu ölkəyə dikilib. Ən azından ona görə ki, Azərbaycanın zəngin yeraltı və yerüstü sərvətləri var və bu sərvətlərə görə də, hətta dünyanı idarə edən böyük güclər belə Azrəbaycana həmişə maraq göstərib. Heç şübhəsiz, bu maraq da ötəri olmayıb. Tarixin müxtəlif dövrlərində yadellilər Azərbaycana hücum edərək onun ərazisini zəbt etmək, varını-dövlətini əlindən almaq istəyiblər. Əlbəttə, elə bir siyasi durumda ölkəni qorumaq, müdafiə etmək və onun haqqını dünyaya çatdırmaq elə də asan iş olmayıb. Heç kim deyə bilməz ki, Azərbaycan bugünkü siyasi-iqtisadi və sosial inkişafa birdən-birə nail olub.

Onu da qeyd edək ki, ölkəmiz müstəqillik dövrünə qədəm qoyduqdan sonra öz inkişafının və tərəqqisinin yolunu çətinliklə də olsa tapmağı bacarıb. Çünki ölkəmizin böyük bir ərazisi nə az, nə çox düz otuz il erməni işğalı altında olub və iyirmi faiz torpağımız onların nəzarətinə keçib. Bir tərəfdən müstəqillik əldə edən Azərbaycan, digər tərəfdən də işğal altında olan torpaqlarını azad etmək haqqında düşünüb. Bütün bunlara isə nail olmaq elə də asan məsələ deyildi. Ulu Öndər Heydər Əliyev hakimiyyətə gəldikdən sonra, Azərbaycanda mövcud problemlər, xüsusən də Qarabağ məsələsi, iqtisadi çətinliklər gündəmə gətirilib və həmin çətinliklərdən çıxış yolu tapmaq üçün prezident Heydər Əliyev çox böyük yükün altına çiyin verib. Eyni zamanda böyük dövlətlər, xüsusən də ermənilərə havadarlıq edən Rusiya, Fransa və eləcə də digər avropa dövlətləri çalışıblar ki, Qarabağ problemini dondursunlar, ölkənin çətinlikliləri öz həllini tapmasın. Bunların hamısını Heydər Əliyev çox yaxşı bilirdi. Ona görə də, böyük siyasətçi Azəbaycanın haqq səsini dünyaya çatdırdı. O, dəfələrlə BMT-nin iclaslarında, konfranslarında və digər mötəbər görüşlərdə bu fikirləri xüsusi ilə qabartmış, dünya siyasətçilərinin diqqətinə çatdırmışdır. O bildirmişdir ki, BMT-nin Ermənistanın işğalı ilə bağlı dörd qətnaməsi uzun illər keçsə də icra edilməyib.

Təbii ki, bütün məsələləri paralel həll etmək və Azərbaycanı quyunun dibindən çıxarmaq çox müşgül bir məsələ idi. Üstəlik də, Heydər Əliyev hakimiyyətə gələndə Azərbaycan iqtisadiyyatı bərbad vəziyyətə düşmüşdü, dövlətin büdcəsində qəpik-quruş qalmışdı və bu qəpik-quruşla heç bir iş görmək mümkün deyildi. Yəni, həmin pul ilə nə ölkə iqtisadiyyatını yenidən qurmaq mümkün idi, nə də hərbi sahədə irəliləyəşə nail olmaq üçün çıxış yeri yox idi. Ona görə də, Ulu Öndər çox ağıllı, çox müdrik bir yol tapdı və "Əsrin Müqaviləsini" gerçəkləşdirməyi bacardı. Bu müqavilə ilə Azərbaycanda mövcud olan neft yataqları İngiltərənin məşhur "BP" şirkəti ilə birgə işlənməli, yeni texnologiyalar hesabına yataqlar tapılmalı və neft quyuları qazılmalı idi. Bunun üçün isə milyardlarla vəsait lazım idi. Həm neftin istehsalından, həm də qazın və digər faydalı məhsulların əldə edilməsindən Azərbaycan böyük gəlirlər əldə edə bilərdi. Bu müqavilədən bir neçə il keçəndən sonra artıq Azərbaycanın dövlət büdcəsinə milyardlarla dollar vəsait daxil oldu. Eyni zamanda digər ölkələrin və şirkətlərin Azərbaycana marağı bir daha artdı. Onlar gördülər ki, Azərbaycanda sabitlik yaranır, investisiya qoyduqları neftqaz və digər faydalı qazıntılar sahəsində maya dəyərlərini çıxarmaqla yanaşı, gəlir əldə ediblər. İstər-istəməz digər şirkətlər də bu işdə iştirak etməyə başladılar.

Ölkəmizə İngiltərə, İtaliya, Fransa, Rusiya, Türkiyə, Bolqarıstan, Macarıstan, Rumıniya və digər Avropa ölkələrinin şirkətləri tərəddüd etmədən sərməyə qoymağa başladılar. Özü də bu sərmayə onu deməyə əsas verirdi ki, Azərbaycana yatırılan hər manatın əvəzinə xarici şirkətlər çoxlu vəsait əldə edəcəklər. Əlbəttə, bütün Beynəlxalq iqtisadi əlaqələrin yenidən qurulması Azərbaycanı dünya iqtisadiyyatına inteqrasiya edilməsində önəmli rol oynadı. Yəni, Azərbaycan Heydər Əliyevin hakimiyyəti dövründə iqtisadi, siyasi və sosial sahədə çox böyük uğurlara imza atdı. Hər bir dövlət və hər bir şirkət o işə maraq göstərir ki, onlar xarici ölkədə qoyduqları investisiyanı nəzərdə tutulduğu zaman kəsiyində geri qaytara bilsinlər və üstəlik də qazanc əldə etsinlər. Heç bir xarici dövlət Azərbaycanın qara qaşına və qara gözünə aşiq deyildi. Onlar Azərbaycanda mövcud olan saysız-hesabsız neft və qaz yataqlarını, eləcə də digər faydalı qazıntılara aşiq idilər. Onu da qeyd edək ki, xarici şirkətlərin Azərbaycanda uğur əldə etməsi, başqa sözlə demiş olsaq, böyük qazanc qazanması digər şirkətləri və dövlətləri də ölkəmizə gəlməyə ruhlandırdı, çünki ölkəmizdə fəaliyyət göstərən şirkətlərin işi və metodu, qazancları göz qabağında idi. Onların qazancını görən xarici ölkələrin neçə-neçə şirkətləri özləri Azərbaycanda iqtisadi əlaqə qurmağa və sərmayə qoymağa maraqlı idi. Bu maraqlar müəyyən zaman kəsiyindən sonra özünü doğruldur, yeni bir mərhələ alır və eyni zamanda həmin ölkələrə böyük qazanc gətirirdi.

Bir fikri də xüsusi vurğulayaq ki, təkcə Azərbaycana maraq onun neftinə, qazına deyil, digər sektorlara da marağı artırırdı. Yəni, qeyri-neft sektorunda investisiya qoymaq itəyən ölkələr vardı. Bura qardaş Türkiyə, İran, Rusiya və bir çox Avropa dövlətləri daxildir. Xüsusən də ölkəmizdə turizmin inkişafına, bununla yanaşı, ağır və yüngül sənayenin tərəqqisinə böyük dövlətlər maraq göstərirdilər. Sumqayıtda və Bakıda bir çox xarici şirkətlərin iştirakı ilə fabrik, zavod və çoxlu sayda müəssisələr işə düşdü və həmin müəssisələrdə bu gün dünya bazarına ixrac olunan müxtəlif sənaye məhsulları istehsal olunur. Onunla yanaşı, hərbisənaye kompleksinin inkişaf etməsi Azərbaycanda silah istehsalının həyata keçirilməsinə də münbit şərait yaratdı. İndi demək olar ki, Azərbaycan özü xarici ölkələrə istehsal etdiyi silahları göndərir.

Bu gün Azərbaycanda "Yaşıl enerji" adlandırılan böyük bir ehtiyat mənbəyi var və dünya iqtisadiyyatında bu məsələlər önə çəkilib.

Bu yaxınlarda Bakıda otuz dövlətdən üç yüzə yaxın şirkətin iştirakı ilə, Beynəlxalq Konfrans keçirildi və həmin konfransda çox böyük layihələrin gerçəkləşdirilməsi ilə bağlı fikirlər səsləndirildi. Birləşmiş Ərəb Əmirliklərinin, Səudiyyə Ərəbistanın və digər müsəlman dövlətlərin bu sahədəki iqtisadi layihələri ölkəmizin maraqlarına uyğundur, yaxın zaman kəsiyində həmin layihələr öz real əksini tapacaq.

**Əlbəttə, dünya iqtisadiyyatına intqerasiya olmaq, inkişaf etmiş ölkələrlə sıx əlaqə yaratmaq, onların marağını ölkəmizə qarşı artırmaq elə də asan məsələ deyil. Çünki bu gün Azərbaycan həm iqtisadi, həm də hərbi cəhətdən çox sürətlə inkişaf edir. İndi artıq demək olar ki, ölkəmizə xarici ölkələrin şirkətlərinin marağı daha da artıb. Bu məqsədlə onlar ölkəmizə yüz milyonlarla vəsait yatırtmaq üçün birlikdə iş görsünlər və bundan qazanc əldə etsinlər. Hələ Azərbaycan bundan sonra da yüksək sürətlə inkişaf edəcək, dünyaya inteqrasiya etməklə yeni bir qızıl səhifə yazacaqdır!**

**EMİL FAİQOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# Türkiyə memarlığının şah əsərləri: Memar Sinanın tikdiyi 77 məscid

**Türkiyədə məscidlər sadəcə bir ibadət yeri deyil. Bu məscidlər həm də dünya tarixi üçün bir irsdir. Bu məscidlər zəngin mədəniyyətin imzası və burada hakim olan böyük imperiyaların qalığıdır. Türkiyə mədəniyyətinin, tarixinin zənginliyini məscidləri ziyarət etməklə görmək mümkündür. Məhz bu səbəbdəndir ki, Türkiyəyə səfər edən turistlərin böyük hissəsi tarixi və mədəni irsin qorunmasının özündə əks etdirən bu məscidləri ziyarət edirlər. Türkiyəyə səfərimiz çərçivəsində biz də bir neçə məscidi ziyarət etmək şansımız oldu. Tarixlə mədəniyyətin, inamla etiqadın təcəssümünü məhz mıəscidlərə ziyarətimiz zamanı bir daha şahid olduq.**

Türkiyə sözsüz dünya tarixi, mədəniyyəti və irsi baxımından son dərəcə zəngin bir diyardır. Bu ölkənin hər küçəsi, hər qəsəbəsi minillik tarixi hadisələrə, heyranedici hekayələrə və Türkiyəni idarə edən bir çox imperiya və sülalələrin onurğa sütunu olan canlı mədəniyyətlə doludur. Müasir şəhər həyatının tələşında belə, siz minlərlə il boyu uca durmaqdan qazandığı saysız-hesabsız dərin mədəniyyət və müdriklik təbəqələrini tapa bilərsiniz.

Dünya memarlıq tarixinə Türk dünyasını təmsil edən bir mötəbər isim mövcuddur. Bu memar Sinandır.

Təqribi olaraq 1490-cı ildə doğulmuş, 1558-ci ildə isə vəfat etmişdir. Onun əsərləri memarlıq-incəsənət sahəsinə əbədi damğasını vuran nümunələr hesab olunur. Xüsusilə, Osmanlı memarlıq sənətinin möhtəşəm yüzilliyini təmsil edən Memar Sinan yarım əsr ərzində məscid, bazar, körpü, karvansara kimi bir çox abidələr yaratmışdır. Memar Sinanın müasir memarların yoluna işıq saçan və şəhərin görməli yerlərini inşa edən əsərləri əsrlərdir davam edir.

Türk mütəxəssislər qeyd edirlər ki, Memar Sinan zəlzələlərin nəticələrini bildiyi üçün tikilələrdə bunu mütləq nəzərə alırmış. O, tikintidə buna uyğun materiallar seçər və öz müstəsna bilikləri üzərində inşaat işləri aparармış. Mütəxəssislər onun inşa etdiyi bütün binaları hombem materiallardan tikdiyini qeyd edir. Estetik zövqlülük, bənzərsiz üsullar və möhkəm təməllər və inşaat planı ilə ərsəyə gələn çoxsaylı memarlıq nümunələri arasında Süleymaniyyə camisi, Şahzadə məscidi, Səlimiyyə məscidi, Drina körpüsü, Mostar körpüsü xüsusilə sevilir və seçilir. Memar Sinan Osmanlı ordularının Avropa ölkələrinə səfərləri zamanı keçilməyən çaylar üzərində saldığı möhkəm körpülərlə Sultan Süleymanın diqqətini cəlb etmiş və ömrünün axırına qədər dövlətin baş memarı vəzifəsini icra etmişdir. Memar Sinan kim idi? Onun məşhurluğunun əsl səbəbi nə idi? Dünyada bəlkə də haqqında danışdığımız Memar Sinan qədər bina tikən, tarixə öz izini memarlıq əsərləri ilə həkk etdirən ikinci bir memar yoxdur.

Memar Sinan 1539-cu ildə sədrəzəm Ayaz Mehmed Paşa tərəfindən Osmanlı imperatorluğunun baş memarı təyin edilir. Sinan 1588-ci ildə ölümünə qədər vəzifəsində qaldı və üç sultanın hakimiyyəti dövründə: I Süleyman (1520-66), II Səlim (1566-74) və III Murad (1574-95) dövründə şah əsərlərini yaratdı. Sinan öz xatirələrində Tezkiretü'l-bünyan adlı əsərində 80 cümə məscidi (böyük məscid) və 400-dən çox kiçik məscidi daxil olmaqla 698 binanı layihələndirdiyini bildirir. Əslində o, imperator memarlarından ibarət qrupa rəhbərlik edirdi və tikilən binalar kollektiv iş sayılırdı. Sinan özü sultan üçün aparılan böyük tikinti layihələrində iştirak edirdi. Bunlar Ədirnədəki Şahzadə külliyəsi (1543-48), Süleymaniyyə məscidi (1548-59), Qırxçeşmə su işləri (1561-65), Qanuni Sultan Süleyman Körpüsü (1565-67) və Səlimiyyə məscidləri (1568-74) idi. Bu tarixdən sonra o, III Muradın dövründə böyük tikinti işləri aparmamış, yaşlandığı üçün işi başqa memarlara həvalə etmişdir. Məscidlər Türkiyənin səma xəttinə dünyanın heç bir yerində rast gəlinməyən unikal bir dərinlik və xarakter əlavə edir. Möhtəşəm minarələri və aydın mavi səmaya qarşı gözə çarpan günbəzləri ilə, Türkiyədə dünyanın ən böyük və ən gözəl məscidlərindən bir neçəsi var.



Bu yazımızda dünya tarixində özünəməxsus yeri olan məscidlərimiz haqqında məlumat verəcəyik.

## Bursa Ulu Məscidi

1396-1399-cu illər arasında Osmanlı İmperatorluğu dövründə tikilmiş Bursa Ulu Məscidi Səlcuqlu memarlığından gqaynaqlanan əsl Osmanlı memarlıq üslubunun ecazkar əsəridir. Bu məscidin divarlarında və sütunlarında həkk olunmuş İslam xəttatlığının gözəl nümunələri, Bursa Ulu Məscidini qədim İslam xəttatlığının ecazkar nümünəsi olduğunun bir daha şahidi olacaqsınız. 5000 kv m geniş əraziyə uzanan məscid 20 günbəz və 2 minarəsi olan unikal düzbucaqlı quruluşa malikdir.

## Rüstəm Paşa Məscidi (İstanbul)

İstanbula səfərimiz zamanı bu möhtəşəm Rüstəm Paşa məscidi ziyarət etdik.

İstanbuldakı Rüstəm Paşa məscidi qədimliyinə görə möhtəşəm memarlıq əsəri olmaya bilər, lakin bu məscidin möhtəşəm İznik çini dizaynları bütün daha böyük layihələrdən üstündür. Osmanlı dövründə məscid Sultan I Süleymanın baş vəziri Rüstəm Paşa tərəfindən maliyyələşdirilib.

Mürəkkəb nəbati və həndəsi naxışlarla gözəl İznik kaşıları divarın həm daxili, həm də xarici hissələrini bəzəyir. Məscidin nisbətən kiçik olması səbəbindən incə sənət əsərlərinin gözəlliyini araşdırmaq və qiymətləndirmək daha asandır. Küçə səviyyəsindən yuxarıda yerləşən məscid yoldan keçənlərə asan görünmür. Küçədən sizi məscidin ön terrasına aparacaq pilləkənlə qalxmalı olacaqsınız.

## Səlimiyə məscidi (Ədirnə)

Türkiyə memarlıq sənətinin şah əsərlərindən biri sözsüz ki, Səlimiyə məscididir. Türkiyənin ən böyük məscidlərindən biri olan Səlimiyə məscidinin möhtəşəm quruluşu təxminən 28,500 m? geniş ərazidə təpənin üstündədir. Ədirnənin ən hündür nöqtələrindən birində inşa edilən məscid Ədirnə Sultanı II Səlimin dövründə Memar Sinan tərəfindən tikilib, məscidin nəhəng ibadət salonunda 6,000 nəfər namaz qıla bilər. Osmanlı İmperatorluğunun ən məşhur memarı Memar Sinan Səlimiyə məscidini onun şah əsəri hesab edirdi. Səlimiyə məscidi 2011-ci ildə YUNESKO-nun Dünya İrs Siyahısına daxil edilib.

## Muradiye Məscidi (Manisa)

Manisada olan Muradiye Məscidi də öz gözəlliyi ilə turistləri heyran qoyan bir məsciddir. Sultan III Mehmed 1595-ci ildə Manisa şəhərində Muradiyə məscidinin inşaşını tapşırır. Atasının və babasının ənənəsinə sadiq qalaraq, bu layihənin dizaynını məşhur memar Sinana həvalə edilir. Sözsüz ki, memar Sinanın inşa etdiyi bütün məscidlər öz akustikası və gözəlliyi ilə bütün Şərqdə sevilir.

Məscidin bütün daxili məkanını əhatə edən yüksək keyfiyyətli İznik kafel işi, gözəl kirəmitli mehrab və pəncərənin işıqlı vitrajı diqqət çəkən məkana əlamətdar bir atmosfer verir.

## Yeni Məscid (İstanbul)

İstanbulda çoxsaylı məscidlər var. Maraqlıdır ki, bütün məscidlər öz tarixi və unikallığı ilə dünya mədəniyyət tarixinə gözəllik bəxş edir. Yeni məsciddə Osmanlı dövründə inşa edilən bir sənət əsəridir. Məscidin tikintisi 1587-ci ildə başlanırvə 1665-ci ilə qədər davam edir. Məscid ilk olaraq Validə Sultan Məscidi adlanır. Yeni Məscidin nəhəng bir kompleks kimi möhtəşəm quruluşu və dizaynı təkcə dini məqsədlərə xidmət etmir, həm də böyük mədəni əhəmiyyətə malikdir.

## Divriği Ulu Məscidi və Darüşşifası (Divriği kəndi)

Bir təpədə kiçik bir kəndin üstündə oturan Divriği Ulu Məscidi Türkiyənin ən gözəl məscid komplekslərindən biridir. YUNESKO-nun Ümumdünya İrs Saytı statusunu gözəl sənətkarlığı sayəsində qazanıb . Bu tarixi, dini abidənin tikilişi çox qədimə gedib çıxır. Tarixi faktlara görə Ulu cami (böyük məscid) və darüşşifası (xəstəxana) Səlcuqlu-Türk bəylikləri tərəfindən inşa edilib.

Divriği Ulu Məscidinin ən diqqətçəkən xüsusiyyəti daş qapılarıdır. Dörd qapının hündürlüyü 14 metrə çatır və mürəkkəb həndəsi naxışlar, nəbati motivlər və heyvan naxışları ilə örtülmüşdür. İslam memarlığı tarixində parlaq memarlığı ilə məscid şah əsəridir. Məscidə girdiyiniz zaman sizi tağlı daş işləri qarşılayacaq və sakit darüşşifası daxili məkanlar qəsdən bəzəksiz buraxılmış və beləliklə, məscidlə dramatik bir kontrast yaradılmışdır.

## Süleymaniyyə məscidi (İstanbul)

Memar Sinanın daha bir möcüzəsi olan Süleymaniyyə məscidi Türkiyənin ən böyük məscidlərindən biridir. Təxminən 1550-1558-ci illərdə Sultan Süleymanın əmri ilə tikilmiş məscid böyük əraziyə malikdir.

İbadət zalının qübbəli geniş daxili məkanı var. Hər gün bu məscidi minlərlə turist ziyarət edir.

## Sultanahmet Məscidi (İstanbul)

Mehmet Ağanın göstərişi ilə inşa edilən Sultanahmet Məscidi, şübhəsiz ki, Türkiyənin ən məşhur məscidlərindən biridir. Mürəkkəb memarlığın əsl möcüzəsi olan məscid 1609-1616-cı illər arasında tikilmişdir.

Altı minarəsi olan bu məsciddə turistlərin ən sevimli yerlərindən biridir.

## Mahmud bəy məscidi (Kasaba kəndi, Kastamonu)

Təxminən 1366-cı ildə tikilmiş bu nəfis məscid Kastamonu şəhərindən təxminən 17 km aralıda Kasabanın kiçik obasında yerləşir və bu məscid tarixi görünüşünə və dizaynına görə olduqca möhtəşəmdir. Çünki bu məscid ağac boyalı və oyma ilə şəkilləndirilmiş bir sənət əsəridir.

Məscidin içərisində çoxsaylı taxta tavanlar, taxta sütunlar və mürəkkəb çiçək və həndəsi naxışlarla bəzədilmiş taxta qalereya mövcuddur.

## Kocatepe Məscidi (Ankara)

**Türkiyənin ən gözəl məscidlərindən biri sözsüz ki, Ankarada yerləşən Kocatəpə məscididir. Məscid 1967-1987-ci illər arasında tikilib. Bu nəhəng məscidi şəhərin istənilən yerindən görmək mümkündür. Daha bir maraqlı məqam isə məscidi inşa edən memarların Memar Sinanın sənət əsərlərindən ilhamlanmasıdır.**

**Türkiyədəki məscidlərin tarixi , gözəlliyi bütün islam dünyası üçün bir örnəkdir. Hər il milyonlarla turist bu məscidləri ziyarət etməklə yanaşı, burada öz dualarını edirlər. Yolunuz Türkiyəyə düşsə bu tarixi inanc yerlərini ziyarət edin.**

**Sübhan**

---

## Xalq artisti: "...onlar sənəti aşağı salırlar"



**Xalq artisti Brilliant Dadaşova yeni sənətə gələn gənc ifaçılar haqqında fikirləriylə diqqət çəkib.**

Adalet.az xəbər verir ki, ifaçı bu haqda şou proqramların birində danışıb. Onların yersiz davranışlarını qınayıb:

"Belə bir deyim var: deyirlər ki, təlxək saraya daxil olursa, o, kraal çevrilmir. Amma sarayın abhavasını dəyişib, sirkə çevirir. Elə insanlar var ki, sənətə gəlirlər, ancaq sənət heç cür onları qaldıra bilmir. Əksinə, onlar sənəti aşağı salırlar".

## İfrat: "Hərdən mübasibətlər də insanlar kimi soyuqlamalıdır"



**Bir zamanlar tez- tez duetlər ifadən İfrat Dünyamalıyevlə Vəfa Şərifova arasında soyuq yellər əsir.**

Adalet.az xəbər verir ki, V.Şərifova bu barədə danışmasa da həmkarı verdiyi cavablarla məlumatı təsdiqləyib: O, "Vəfa xanımın hesabını heç vaxt sosial şəbəkə hesabımda izləməyə almamışam. Ona kimi izləmək lazımdır, kimi izləmək lazım deyil- bunları da mən öyrətmişəm. Heç kəsi izləməməyi mən məsləhət görmüşəm. Onunla küsülü deyilik. Hardasa rastlaşanda bir- birimizə salam veririk. Düşünürəm ki, hərdən mübasibətlər də insanlar kimi soyuqlamalıdır".

**Əntiqə**

---

Aqil Abbas və Əbülfət Mədətoğlu **Sərvaz Hüseynoğluna** atası **Hüseyn kişinin** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**Təsisçi və baş məsləhətçi:** Aqil ABBAS

**Baş redaktor:** İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 534-55-98 Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 211
Çapa imzalanmışdır: 26.12.2024